# Hacı İbrahimdən Xan Tumana

kitaboxu.com

**Seyid Əbdülrza Haşimi**

بسم الله الرحمن الرحيم

Kitabın adı..... Hacı İbrahimdən Xan Tumana
Müəllif:....................... Seyid Əbdülrza Haşimi
Çap tarixi:..................................................2025
Çap növbəsi:............................................Birinci
Tiraj:..........................................................1000

kitaboxu.com

# Ən böyük nemət

Bəlkə də, hamımız, ən azı İran xalqının əksəriyyəti elə bilir ki, sayəsində yaşadığımız təhlükəsizlik təbii və ilahi bir nemətdir. Bir müddət öncəyə qədər mən də belə düşünürdüm. Daha doğrusu, o qədər təbii görünürdü ki, heç bu haqda düşünmürdüm. Bu günsə yox! Bu gün ölkəmin sərhədlərində əsgər və pasdarların arasında, özü də şimal-qərbin sərt və keçilməz dağlarında olduğum üçün mənim, ailəmin və milyonlarla iranlının təhlükəsizliyi naminə çəkilmiş əziyyətlərin və axmış qanların cüzi bir hissəsini yaxından görə və hiss edə bilirəm. Bundan öncə əsla güman etməzdim ki, belə yerlər var və ölkəmin fədakar pasdar və sərhədçi qüvvələri yayda, qışda və haqqında danışacağım öldürücü soyuqda tam qüdrətlə orada xidmət edir, İslam İranında milyardlar bahasına təhlükəsizliyi pozmağa çalışan, 50 metr aralıda, bəlkə, daha yaxında pusqu quran, İranın ən rəşadətli oğullarını məhv etmək üçün fürsət gözləyən terrorçu düşmənin hücumlarını dəf edirlər.

kitaboxu.com

Bu yerlərə gəldiyim gündən beynim məşğuldur. İlahi! Müqəddəs müdafiə və cəbhələr hələ də davam edir, şəhadət hələ də İran səmasından qeyrətli gəncləri

çağırır. Lakin bu torpağın aslanları bu dəfə oxçu Araş kimi canlarını kamana qoyub minlərlə müqəddəs müdafiə şəhidinin pak qanıyla suvarılmış sərhədləri hər hansı kamera və mediadan xəbərsiz qoruyurlar.

Allahım! Mən bu nemətə görə necə şükür edə bilərəm?! İlahi! Dil və qələm bütün bu fədakarlıqları vəsf etməyə acizdir. Xudaya! Öz acizliyimi etirag etsəm də, bu mühüm missiyanı qələmin üzərinə qoyub xalqıma çatdıracağam.

İlahi! Bu kiçik əməli məndən qəbul elə və təqsirlərimi bağışla! Amin!

Ramazan ayı, iyul 2015
Şimal-qərb, Hacı İbrahim yüksəkliyi
Haşimi Ərsəncani

kitaboxu.com

# Mövqe yaran və mövqe qoruyan diviziya

Kərbəla diviziyasının komandiri sərdar Rüstəmian axırıncı gün günorta namazlarından sonra bizi çox sadə və səmimi şəkildə öz çadırına nahar yeməyinə və diviziya barədə danışmağa dəvət etdi.

Hətta hərbi formasında da heç bir ad və rütbə olmayan bəsici rəngli, bəsici ətirli bir komandir döyüş, cəbhə və müqəddəs müdafiə günlərini xatırladan sadə bir çadırda qarşımda oturub səmimi şəkildə suallarımı cavablandırır. Özü barədə, cəbhədə və Əhli-beyt hərəmlərinin müdafiəsində göstərdiyi qəhrəmanlıqlar barədə, nə qədər israr etsəm də, cıqqırını çıxarmadı ki çıxarmadı. Mən təslim olub mövzunu dəyişdirəndən sonra ağzını açıb diviziyanın yaradıldığı zamandan bu günə qədər keçdiyi yoldan səbirlə və diqqətlə danışmağa başladı:

"İran-İraq müharibəsinin ilk bir-iki ilində Bəsic təşkilatı və xalq könüllülərinə güvənməyən prezident Bəni-Sədrə görə düşmənlə bacara bilməyib ağır məğlubiyyətlərlə üzləşdik. Bəni-Sədr qaçandan sonra isə mərhum imamın izni, inqilabi iradə və xalqın könüllü səfərbərliyi ilə orduya paralel olaraq kiçik hərbi birləşmələr, sonra da tabor, briqada və diviziyalar yaradıldı. Kərbəla taboru da o zaman, yəni 81-ci ilin ilk

kitaboxu.com

aylarında formalaşdı. Bu tabor ilk dəfə orduyla bərabər Abadanın mühasirəsinin yarılmasına dair Samin əl-əimmə əməliyyatında iştirak etdi.

Döyüşlərdə qələbə əldə edildikcə könüllü qüvvələrin cəbhələrə axını da günbəgün artdı, tabor briqadaya çevrilib bütün şimal bölgəsini, yəni ozamankı Gilan və Mazandaran vilayətlərini əhatə etdi.

1982-ci ildə Məhərrəm əməliyyatı öncəsi bəsici qüvvələr o qədər çoxaldı ki, briqada da 25 saylı Kərbəla diviziyasına çevrildi.

Bütün bu mərhələlərdə diviziyaya qardaş Mürtəza Qurbani rəhbərlik edirdi. Məhərrəm əməliyyatından sonra birləşməyə komandirlik Əbdüləli İmrani, sonra Əli Yaylaği, sonra Kumeyl Köhənsal, sonra da Məhəmmədhəsən Kusəçiyə həvalə olundu. 1985-ci ildə isə qardaş Qurbani yenidən diviziya komandiri oldu.

Mazandaranın çoxlu insan resursuna, güclü, cəsur və qəhrəman komandirlərinə görə, digər birləşmələrlə eyni zamanda Kərbəla birləşməsi də qardaş Möhsün Rzayinin sərəncamı ilə diviziyaya çevrildi və hərbi imkanları genişləndi.

Kərbəla diviziyası müqəddəs müdafiə zamanı böyük uğurlara imza atmışdır. O cümlədən, Qüds-1, Qüds-2 və Kərbəla-1 əməliyyatlarında iştirak etmiş, Mehranın

kitaboxu.com

azadlığı zamanı Qalavizan yüksəkliyini ələ keçirmişdir. O zaman cənab Şəmxani demişdi ki, yüksəkliyə birinci qalxan diviziyaya 50 ədəd Toyota pikapı veriləcək. Bu mükafatı bizim diviziya aldı. Dalğıc şəhidlərlə bağlı keçirilən Kərbəla-4 əməliyyatında sudan keçib Ümm əl-Rəsas və Ümm əl-Bavi adalarını tutan yeganə birləşmə bu diviziya idi. Kərbəla-5-də düşmənin ən çətin maneələrini yardıq, Vəlfəcr-8 əməliyyatında ən mühüm strateji nöqtə olan Fav yarımadasını ələ keçirdik və bu, bütün dünyada rezonans doğurdu. Xurmalıqlara, suya, düzənliyə, digər coğrafi amillərə və mürəkkəb maneələrə görə Favı fəth etmək asan məsələ deyildi, lakin Allahın yardımı ilə baş tutdu.

Korpusun baş komandanı cənab Möhsün Rzayi bu barədə demişdi: “Fava daxil olan ilk diviziya Kərbəla diviziyası oldu. Mənim Hacı ağa Təbəsidən aldığım İmam Rza (ə) bayrağını da Fav məscidinin üstündə onlar dalğalandırdılar. İmam Rza (ə) bayrağının dalğalanması, əslində, Kərbəla diviziyasının bayrağının dalğalanması idi”.

Diviziyanın fəaliyyətlərinin bir hissəsi bunlardan ibarətdir. Mazandaranlı uşaqların başqa nailiyyətləri də çoxdur, amma onların hamısını danışmağa nə vaxt çatar, nə də sizin səbriniz.

kitaboxu.com

2010-cu illərdə də ölkənin şimal-qərbində sərhədlərimizin 200 km-dən artıq bir hissəsində at oynadan PJAK (Kürdüstan Azad Həyat Partiyası) qüvvələrini Allahın köməyi ilə qovmuşuq. Özünüz bir aydır burada olub gördünüz ki, indi də torpaq, namus və vətənimizi qoruyub heç bir muzdur və ya əcnəbiyə aman vermirik və verməyəcəyik!

Allaha çox-çox şükürlər olsun ki, indinin özündə Mazandaranda rəsmi korpus qüvvələrindən əlavə, əlli tabordan artıq könüllü Bəsic qüvvələri var. Onlar əmr verilən kimi lazım olan hər bir bölgədə fədakarlığa hazırdırlar.

Kərbəla diviziyasını bir cümlədə təqdim etmək istəsəm, Böyük Rəhbərin Mazandaran vilayətinə səfəri zamanı buyurduğu cümlədən yaxşısı ola bilməz: "Kərbəla diviziyası mövqe yaran və mövqe qoruyan güclü və qüdrətli bir diviziya olub".

kitaboxu.com

Biz belə qüdrətli bir diviziyanın qəhrəmanlarının varisləri, bu bölgənin əzəmətli şəhidlərinin əmanətdarları, imamət və vilayət müdafiəçiləriyik. Biz böyük İslam xanımı həzrət Zeynəb-Kübranın (ə) hərəminin müdafiəsində iştirak etmiş və əziz şəhidlər vermişik. Bundan sonra da bu yolda və İslam Respublikasını müdafiə etmək üçün damarlarımızda axan son damla qana qədər vuruşmağa hazırıq!"

# Birinci bölmə

## Hacı İbrahim yüksəkliyi

kitaboxu.com

# Birinci fəsil

## Hekayə haradan başladı?

2014-cü ilin ramazan ayı çox çətin və həyəcanlı keçdi. Yoldaşım bir əlində təsbeh, bir əli göydə hər kəsdən dua etməsini xahiş edirdi. Qardaşı qərb əməliyyat bölgələrinə göndərilmişdi. İki-üç il öncə Qumun Əli ibn Əbu Talib diviziyasının bir neçə pasdarı Oşnəviyyədə PJAK-la döyüşlərdə şəhid edildiyinə görə gözlərinə yuxu getmirdi.

Hər il olduğu kimi, bu il də ailələrimizi iftara dəvət etmək istəyəndə yoldaşım razılaşmayıb dedi:

- Əbülfəz gəlməyincə qonaqlıq olmayacaq!

- Onda bir zəng et, gör nə vaxt gəlir və ya gəlirmi, - dedim.

- Necə yəni gəlirmi?! - deyə gözlərini bərəltdi. – Sən nə demək istəyirsən ki?

Söhbət bir az da uzansa, özümün bu "əməliyyat" zonasında şəhadət şərbətini içəcəyimi görüb qaynımın nömrəsini aldım, ona zəng edib dedim:

kitaboxu.com

- Əbülfəz, sən Allah, nə qədər ki bu bacın məni şəhid etməyib, gəl, mən də bir süfrə açıb bu mübarək ayda qohumlara iftar qonaqlığı verim.

Bütün qohumlar arasında zarafatcıllığı və şirindilliyi ilə tanınan Əbülfəz dedi:

- Əvvəllər deyirdilər ki, az övlad, yaxşı həyat. İndi isə şüar dəyişib belə olub: “Az ruhani, yaxşı həyat”. Bu baxımdan, bacıma de ki, İslam düşmənlərinin acığına, yeznəmiz arxa cəbhədə şəhid olana qədər burada qalacağam. Əsla qəm yemə, hacı, o tərəfdə görüşərik, iftar süfrəni də orada açarsan, huri-murilərlə birlikdə oturarıq.

Güldüm, üzümü xanımıma sarı çevirib dedim:

- Deyəsən, siz ailəlikcə məndən yorulmusunuz ha! Qonaqlığı veririk, Əbülfəz də nə vaxt gəlsə, ayrıca dəvət edərik.

Yoldaşımın zarafata hövsələsi olmasa da, görünür bu sözü zarafat və gülüşsüz deyə bilmədi. Qaşlarının düyününü açıb gülə-gülə dedi:

- Bəs qardaşım qayıtmasa, necə? Birdən şəhid olsa? Atam müharibə dövründə şəhid oldu, yəqin, qardaşım da sülh dövründə şəhid olmaq istəyir! Elə biz şəhid verək, siz ağalar da evlərinizdə rahat oturun, ayaqlarınızı uzadıb kitab oxuyun, eləmi? Sizlər kitab yazmaqdan, ya da camaatın balalarına ayə və hədis

kitaboxu.com

oxuyub güllə qabağına göndərməkdən başqa nə bilirsiniz?!

- Bizim də özümüzə görə həm şəhidimiz var, həm əsirimiz, həm müharibə əlilimiz, - deyə öyünməyə başladım. - Bibim oğlu Seyid Mürtəza Hüseyni şəhid olub, o biri bibim oğlu Həbib müharibə əlilidir, xalamın əri ağa Seyidi əsirlikdə qalıb. Hamısını yazmaq üçün bir ton kağız lazımdır.

Ayağa qalxdı, iftar hazırlamaq üçün saymazyana mətbəxə gedə-gedə dedi:

- La ilahə illəllah! Mənim bu birtonluq ərimə deyən yoxdur ki, atanın uğurlarından sənə nə. Allah rəhmət eləsin, yaxşı ki, o da ruhani olub və təbii ölümlə dünyadan köçüb. Cəbhəyə gedib şəhid olan, yaxud yaralanan o birilərin də, nəsihət verib güllə qabağına göndərən bir ruhani dayıları olub. Əgər siz əlahəzrətin özünün bir hünəri varsa, bir ton lazım deyil, bircəciyini de, mən qulaq asım.

- Əvvəla, mənim yaşım cəbhə və müharibəyə görə deyil. İkincisi də, indi ki belə oldu, gələn il bu vaxt həmin əməliyyat bölgəsinə düşmən gülləsinin qabağına gedəcəyəm, görüm sonra kimə deyinəcəksən. Yəqin, onda da deyəcəksən ki, atam müharibə dövründə şəhid oldu, qardaşım sülh dövründə, ərimi də özüm şəhid etdim; sonra da gedib "Şəhid Yetişdirmə Mərkəzi" adına lisenziya alarsan!

kitaboxu.com

Zarafat bir yana, amma ondan sonra beynimə girdi ki, münasib bir fürsətdə mən də belə təhlükəli əməliyyat bölgələrinə gedim, həm oraları yaxından görüb həyəcan və təhlükəni bir dəfə də olsa, dadım, həm də ölkəmizin təhlükəsizliyinin necə və nəyin bahasına təmin olunduğunu yaxından görüm. 2015-ci ildə bərəkətli ramazan ayından öncə soraqlaşıb İmam Cəfər Sadiq (ə) adına hərbi təbliğat briqadasına müraciət etdim, müsahibədən sonra qeydiyyata düşdüm və getməyə hazırlaşdım.

## Zəncirsiz döyüş nişanları

Başqa bir ruhani ilə birlikdə bilet alıb axşamüstü saat 5-də Qumdan Urmiyaya yola düzəldik. Bir gecə avtobus oturacağında oturub yorulandan sonra sübh çağı təyinat yerinə çatdıq. Həzrət Həmzə qərargahının uşaqları avtovağzalda bizi gözləyirdilər. Maşına minib düşərgəyə getdik. Bir-iki saat istirahət edəndən sonra bölgü oldu və bir mikroavtobusla Piranşəhrə İmam Əli ibn Əbu Talib qarnizonuna yola düşdük.

kitaboxu.com

Qarnizonda boz rəngli iki-üç böyük çadır vardı: biri komandir və iclas üçündü, biri döyüşçülərin istirahəti üçün, biri də namazxana. Namazxanada günorta namazını qılandan sonra dua oxuduğum yerdə bir şəkil diqqətimi çəkdi. Ruhullah Sultani adlı yaraşıqlı bir

cavanın şəkli idi, altından belə yazılmışdı: "Ruhullah can, şəhadətin mübarək!"

Fəqih Rəhbərin nümayəndəliyinin başçısı cənab Hacınurinin iki namaz arasındakı söhbətindən bildim ki, son bir neçə gündə qaçaqmalçılar və PJAK qüvvələri ilə döyüşdə şəhid olub. Namazdan və nümayəndəlik başçısının təbliğata gəlmiş ruhanilərə tövsiyələrindən sonra Kərbəla diviziyasının Piranşəhrdəki ezam rəisi ilə birlikdə yandakı çadıra getdik. Gedəcəyimiz yer və birləşmə bilinəndən sonra sərəncam və nişanlarımızı alıb yola düzələcəkdik.

Diqqət və vasvasılıqla sərəncamı yazan və nişanların nömrəsini qeyd edən yaraşıqlı gənc əlini qutuya salıb bir nişan götürdü, onu qeyd etməyə başlayanda sərhədçi döyüşçülərin biri gülüb:

- Seyid ağanın nişanını yuvarlaq rəqəmlərdən seç. 12... əvvəli 12 olsun, deyirlər, uğur gətirir. Seyid ağanın şəhadət ətri indidən dünyanı bürüyüb, - dedi, sonra isə dərin köks ötürüb əlavə etdi: - Hacı ağa, səni and verirəm cəddinə, bizə də əl tut.

Ad, soyad və ünvanımı soruşandan sonra götürdüyü nişanın nömrəsini qovluğuma qeyd etdi və yaxınlarımdan birinin telefon nömrəsini istədi. Ev telefonunun nömrəsini verəndən sonra mənalı bir təbəssümlə ikinci dərəcəli qohumlarımdan, ya da

kitaboxu.com

qardaşlarımdan birinin telefon nömrəsini soruşdu. Güldüm.

- Çox da arxayın olma, qardaş, mən bu tezliyə yaxanızdan əl çəkən deyiləm, - deyib qardaşımın telefon nömrəsini söylədim, zəncirsiz bir nişanı mənə uzadanda isə təəccüblə soruşdum: - Bunu nə edim?

- Bütün ezamiyyət müddətinizdə üstünüzdə olmalıdır.

- Bu zəncirsiz nişandan bəllidir ki, həm nişan, həm də telefon nömrəsi boşunadır, - deyə gülümsədim. – Allah sənə kömək olsun, mən bunu nə edəcəyəm?! Bunun zənciri yoxdur axı. Heç olmasa, zəncirini də ver ki, üstümdə gəzdirə bilim.

- Bağışlayın, - deyə nişanları təhvil verən oğlan üzr istədi, - təkcə nişanlar var. Bunu sap və ya sancaqla paltarınıza birləşdirin. Üstünüzdə olması kifayətdir.

Sərhədçi pasdar öz nişanını boynundan çıxarıb zəncirini açdı, mənə sarı uzadıb dedi:

- Al, seyid can, bunu al, nişanın üstündə olsun. Mən naməlum şəhid olsam, yaxşıdır. Naməlum şəhidlər məzarlığında yatmaq daha səfalıdır. Bu zaman bütün İran xalqı adamın ailə üzvü olur.

Təşəkkür etdim, nişanı öpüb ilk dəfə olaraq müqəddəs boyunbağı kimi boynuma doladım. Müqəddəs müdafiə dövrünün ən yaxşı şəhidlərinin hisslərini azacıq da olsa, təcrübə edərək soruşdum:

kitaboxu.com

- Yaxşı; bəs hara göndərilirik?

- Hacı İbrahim yüksəkliyi, Müslim ibn Əqil taboru, Hacı İbrahim-1 və 2 zastavaları. Amma seyid can, orada çox ehtiyatlı ol. PJAK qüvvələri iki addımlığınızda olcaqlar. Ruhani geyimində görsələr, sənin üçün təhlükəli planlar cızarlar.

- Biz gedirik ha, - deyə adının Nadir olduğunu sonradan öyrənəcəyim gənc bir pasdar başını çadıra salıb dedi. – Hacı ağa da bizimlə gedəcəksə, işlərini həll edin, uşaqlar gözləyirlər.

Fəqih Rəhbərin diviziya üzrə nümayəndəliyinin başçısı cənab Hacınuri dedi:

- Hacı hazırlaşınca anbardan ona gödəkcə, papaq və əlcək alın, orada donmasın.

"Yayın ortasında, iyul ayında gödəkcə və əlcək?!" – deyə öz-özümə düşündüm.

Bir neçə dəqiqədən sonra Nadir əlində böyük bir paket içəri girib dedi:

- Hacı ağa, bu da gödəkcə və papaq! Siz hazırsınız?

Çantamı götürüb Toyota pikaplarına sarı yola düzəldim. Yük platformasında bir dəstə adam oturmuşdu. Təxminən bütün maşınların arxası şəxsi heyətlə doluydu. Nadir maşınların birini göstərib dedi:

- Seyid can, siz bu maşına minin.

kitaboxu.com

Çantamı pikapın yük yerinə qoyub özüm də minmək üçün təkan götürmək istəyəndə Nurullah çağırdıqları bir cavan biləyimdən tutub yarızarafat-yarıgerçək dedi:

- Seyid ağa, özünüzü düşünmürsünüz, biz yazıqların abrını düşünün. Camaat deməz ki, bunlar niyə ruhanilərini yük platformasına mindirmiş, özləri isə öndə oturmuşlar?!

Qolumdan tutduğu halda məni maşının ön hissəsinə yönləndirdi, özü də yanımda oturdu. Nadirin mindiyi maşın öndən getdi, digərləri də qatar kimi onun ardınca.

Nadir mənim göndərildiyim yerdə, yəni Hacı İbrahim yüksəkliyində yerləşən Müslim ibn Əqil taborunun komandir müavini idi, hazırda komandir olmadığına görə tabora o, rəhbərlik edirdi. Bir qədər sonra şübhəli bir hal duydum; Nadir bəzi yerlərdə yanlış yolla gedir, yol nişanlarının göstərdiyi istiqamətlərə dönmür, bəzən də eyni yoldan iki dəfə keçirdi.

Bir dəfə də belə bir halla rastlaşanda dözməyib Nurullaha dedim:

- Biz doğru yolla gedirik? Yol nişanı o tərəfi göstərirdi axı. Bunlar niyə belə fırlanırlar?

- İndiyədək kuzəçi üfürməsi eşitmisən? – deyə Nurullah gülümsəyib dodaqaltı dedi.

kitaboxu.com

- Aha, aydındır, - deyə mən də özü kimi dodaqaltı cavab verdim. – İz azdırmaq kimi bir şey.

Nəhayət, Təmərçin sərhəd keçid məntəqəsinə çatıb oradan yolumuzu Hacı İbrahim yüksəkliyinə sarı döndərdik.

Bir qədər irəliləyəndən sonra Nurullah torpaq yolun sol tərəfində, keçid məntəqəsinə yaxın yamacların ortasında naməlum şəhid məzarına bənzər bir şey göstərib dedi:

- Bura 2011-ci ildə sərhədləri PJAK-dan azad edərkən keçirilən əməliyyatlarda sərhədçilərimizin şəhid olduğu yer, bu da onların xatirə lövhəsidir. Ruhları şad olsun deyə salavat!

- Məgər müharibədən sonra da döyüşlərimiz olub? – deyə soruşdum.

- Hə, nə qədər desən, olub! Müharibədən sonra bəzilərinin yadına düşdü ki, döyüşçülərimizin səkkizillik müharibə yorğunluğundan istifadə edib torpaqlarımızın bir hissəsini saçaqlı sənədlərdə öz adlarına keçirsinlər.

- PJAK qruplaşmasını deyirsiniz, eləmi?

- Bəli, PJAK-ı deyirəm. Onlar müstəqil Kürdüstan şüarı ilə İraq, Suriya, Türkiyə və İran torpaqlarının müəyyən hissələrini qoparıb özlərinə dövlət qurmaq istəyirlər. Bu məqsədlə həmin ölkələrin sərhədlərinə əl uzadırlar.

kitaboxu.com

- Görünən də budur ki, müəyyən qədər məqsədlərinə çatıblar.

- Əlbəttə. İraq və Suriyada vəziyyət dəyişdiyinə görə rəsmi şəkildə müstəqillik iddiası ediblər. Türkiyə və İranda da vuruşurlar. Bir neçə il öncə bu yollar və əlavə olaraq sərhədlərimizin 200 km-i onlarda idi. Axırda İran İslam Respublikası əməliyyatlara başlayıb onları uzaqlaşdırdı. İndi geri çəkilsələr də, hələ ümidlərini üzməyiblər, əlverişli fürsət gözləyirlər.

- Sizin burada olmanız da düşmənə fürsət yaratmamaq üçündür.

Nurullah razılıqla başını tərpədib sakit qaldı.

Biz yuxarı qalxdıqca dağın yoxuşu daha da sərtləşirdi. Zastavalara getmək üçün dağa dırmaşdığımız 4WD Toyota pikapları şir kimi nərildəsə də, sonda nəfəsi çatmadı və sürücü ötürücüdən kömək aldı. Lakin Hacı İbrahim yüksəkliyi o qədər sərt idi ki, axırda hamımız avtomobildən enməyə məcbur olduq. "Ya Əli" qışqıraraq dağın dikbaşlığını yenməyə, özünə gəlsin deyə maşının ağır gövdəsini itələməyə başladıq. Torpaq yol çökmə süxur qırıntıları ilə doluydu. Daşlar o qədər iti idi ki, hər biri bir traktor təkərini parçalamağa yetərdi, o ki qala yüngül avtomobillərə. Təkərlərə baxdım; sanki çoxlu xırda qəlpələrdən yaralanıb gənclik çağlarında maşından ayrılıq nəğməsi oxuyurdular. Yəqin ki, bir

kitaboxu.com

neçə səfərdən sonra sərhədçiləri çiyinləri üstündə dağlara qaldıra bilməyəcəkdilər.

Çətin olsa da, maşını tərpədib 3500 metrdən artıq yüksəkliyə doğru yolumuza davam etdik. Yolun əvvəllərində, heç nə bəyənməyən adamların da diqqətini çəkən güllük və çəmənlikləri görəndə elə bildim ki, bir ay belə gözəl təbiətin qoynunda qalacağıq. Lakin get-gedə üzüyuxarı qalxdıqca gözəl və təravətli çəmənliklər azaldı, bəzisi keçən illərin mirası olan qar komalarının sayı artdı. Hətta yolun kənarında buldozer bıçağı ilə kəsilmiş 4-5 metr hündürlüyündə qar topaları vardı. Halbuki iyul ayı idi, şəhər sakinləri istidən kondisionerlərə sığınır və ya yaylaq kəndlərinə üz tuturdular. Hündür qar divarlarını görəndə gödəkcə və papağın hikmətini anladım.

Şimal-qərb dağlarının ən uca zirvələrinə qədər bütün yolboyu hündür yerlərdə müşahidə qüllələri quraşdırılmışdı. Sərhədçilərin hesabına orada hərəkət, aktivlik və həyat əlamətləri görmək olurdu.

Təyinat nöqtəsinə yaxınlaşanda yaxınlığında helikopter enişi üçün platforma olan iki yolayrıcında dayandıq. Yolların hər biri çox sərt yoxuşu olan və bir-birindən 1 km aralıda yerləşən bir ucuşiş zirvəyə gedirdi, hər bir zirvənin üstündə sipərli hündür barı vardı. Onların da üstündəki üçrəngli şanlı bayraqlar, yəqin ki, yeni gəlmiş sərhədçiləri salamlayırdı.

kitaboxu.com

Otağa girəndə baxışlardan hiss etdim ki, ruhani kimi gəlişim oradakıların çox da xoşuna gəlmədi. Haqlı idilər; otaqda özləri kimi birinə də yer yox idi, o ki qala həm gəlişi ilə yerlərini, həm də peşəsinə görə rahatlıqlarını – davranış, oturub-durma və zarafat sərbəstliklərini məhdudlaşdıran özgəyə.

Onları bu ab-havadan çıxarmaq üçün əvvəldən zarafata başlayıb dedim:

- Dostlar və qardaşlar! Hamınız bilin, sonra "demədi" deməyin. Mən başımı yerə qoyan kimi xoruldamağa başlayacaq və sübhə qədər birnəfəsə sizə nağara çalacağam. Yanımda yatacaq əziz dostlar bunu da bilsinlər ki, mən hər gecə qaydasız döyüş və cüdo məşqi edirəm. Odur ki, 1-2 metr ətrafım üçün heç bir məsuliyyət daşımıram. Sonra yuxudan oyanıb məndən üz-başınızın göyərdiyinə və qol-qıçınızın sındığına görə təzminat tələb etməyəsiniz.

Bunu görən uşaqlar özlərini rahat hiss edib dedilər:

- Bıy, vallah, hacı ağa özümüzküdür!

Hərəsi bir cür zarafat edib mənə yer açdılar. Qapıya yaxın yerdə divarın dibində bir yer seçdim ki, gecələr dəstəmaz almağa çıxanda heç kimin əl-ayağını tapdamayım; həm dostlara az əziyyət verim, həm də namazımı rahat qılım.

kitaboxu.com

Axşam azanı yaxınlaşırdı. Çörək, xurma və bir boşqab firni sadəliyində süfrə sərildi və mübarək ramazan ayı orucunun ilk iftarını açdıq.

Zastavanın komandiri cənab Pirzad yeni gələnlərə dedi:

- Bütün dostların bildiyi kimi, ezamiyyət müddətində, hətta istirahət zamanı və yatanda da hamı hərbi geyimdə və döyüşə hazır vəziyyətdə olmalıdır. Bundan əlavə, bura 3500 metrdən də yeksək yer olduğuna görə havada güclü təzyiq var, başağrısı, başgicəllənmə və ürəkbulanma təbiidir. Kim problem hiss etsə, otaqdakı oksigen balonundan istifadə edə bilər. Bu problemin qarşısını almaq, ya da azaltmaq üçün ağır qidalardan uzaq durmaq və daha çox, maye qəbul etmək lazımdır.

Əllamə Həsənzadə Amulinin müridlərindən olan şüxtəb və şair ruhlu amullu Məhəmməd dedi:

- Bizim süfrəmizdə rəngarənglik olmasa da, səfa var. Səfa ilə də necə ağırlaşmaq olar ki, problem yarana, ya yaranmaya?! Siz tapşırmasanız da, süfrənin özü bu məsələyə riayət edir.

İftardan sonra komandir zabitlərlə birgə iclas keçirib kağız üzərinə plan çəkməyə başladı. Görünür məsləhətləşərək zastavanın müdafiə planını hazırlamaq və müxtəlif cəhətlərdən təhlükə ehtimallarını təzə gələnlərə xatırlatmaq istəyirdilər.

kitaboxu.com

Gecələr qısa olduğuna görə, plan hazırlanan kimi dostların hərəsi bir tərəfə sürüşdü, naryadlar da bilinəndən sonra istirahət zamanı başladı, yüzlərlə kilometr yol gəlib yorulanlar şirin yuxuya getdilər.

Gecənin yarısı güclü ürəkbulanma və başgicəllənmədən oyandım. Bunun hündürlükdən və hava təzyiqindən olduğunu düşünüb fənərimi yandırdım və komandirin tövsiyəsinə uyğun olaraq bir qədər su içib yaxşılaşdım. Bu hal ikinci və üçüncü dəfə də təkrarlandı və hər dəfə su içib bir az yaxşılaşdım. Bir dəfə də dostların hay-küyünə və gülüş səslərinə oyanıb başım üstə cərgəyə düzüldüklərini və üzüqibləyə dayanıb guya meyit namazı qıldıqlarını gördüm. Heyrət içində, sual dolu baxışlarla bu səhnəyə cavab axtardığım yerdə, nəhayət, dostların biri dilləndi:

- Gecə zastavanın dizel generatoru xarab olub, uşaqlar da məcbur qalıb içəridəki benzinlə işləyən generatoru işə salıblar, amma bilməyiblər ki, karbon dioksid qazının çıxmağa yeri olmayacaq və tüstü də binanı bürüyəcək. Az qala hamımız Allahın rəhmətinə gedəcəkdik. Xoşbəxtlikdən qarovul növbəsini dəyişəndə içəridəki tüstünü hiss edib hamını oyadıb. Bütün dostlar Allahın rəhmətindən məhrum oldular, amma gördük ki, siz rəhmətdən vaz keçməyib təkbaşına getməkdə israrlısınız. Biz də düşündük ki, nə

kitaboxu.com

qədər ki peşman olmamısınız, dostların iştirakı ilə tez meyit namazınızı qılaq.

Hələ gözlərimə yuxu getməmiş birdən zastavanın həyəcan siqnalına diksinib oyandım. Pasdarlar tələsik silahlarını götürüb bir-birini əzə-əzə sürətlə kazarmadan çıxırdılar. Zastavada ilk gecəm idi, heç kimi və heç yeri tanımırdım. Bir nəfərdən soruşdum:

- Əxəvi,[1] nə olub?

- Zastavaya hücum ediblər. Tez silahını götür, mövqe seç.

- Mənim silahım yoxdur axı.

- Bilmirəm; onda yaxşı bir yerdə mövqe seç. Burda düşmən demir ki, Peyğəmbər övladı, ya da ruhani olduğunuza görə sizinlə işimiz yoxdur! Burda quru ilə yaşı birlikdə yandırırlar!

Nə etməli olduğumu bilmədən çaş-baş halda zastavanın həyətinə çıxdım. Komandir həyəcanla oyan-buyana gedirdi. Mərmi, tüstü və alov altında mənə baxıb dedi:

- Hacı ağa... səninləyəm, hacı! Otur! Sənə deyirəm; otur! Niyə ağ geyimdə güllə qabağına gəlmisən? Ey, pulemyotçu, lüləni endir! DŞK... DŞK-çı, səninləyəm! Niyə başında dəbilqə yoxdur? Laməzhəb, əvvəl səni vuracaqlar. Ey, sən... Bəli, səninləyəm! Niyə şalğam

[1] Qardaş

kitaboxu.com

kimi oturub gözlərini mənə zilləmisən? Qumbaraatan, niyə boş durmusan? Ey, əsgər, çörək yeməmisən?! Tez ol, qumbaraları apar!

Bir qədər aralıda bir əsgər yerə yıxılmışdı. Tibbi yardımçı çəfiyə şalını çıxarıb əsgərin qolunu bağladı, onu belinə götürüb qaranlıqda təhlükəsiz bir yerdə dayanmış təcili yardım maşınına apardı.

Zastavanın başqa bir səmtindən komandirlə əlaqədə olan komandir müavini ratsiyadan müşahidə qülləsindəki uşaqlara deyirdi:

- Projektor! Niyə projektorla zastavanın qərbini işıqlandırmırsınız? Ora zülmət qaranlıqdır, pulemyotçu heç nə görmür.

Bu oyunların zastavanı qorumaq üçün bir təlim məşqi olduğunu biləndə komandir tərəfindən danlanmayım deyə əyilə-əyilə kazarmaya doğru yola düzəldim, koridorda uşaqların göründüyü bir yerdə oturdum. Məşq bitəndən sonra komandir hamını toplayıb ucadan dedi:

- Əziz pasdar və əsgərlər! Yorulmayasınız! Bugecəlik bəsdir, amma daha çox işləmək lazımdır. Düşmənin partizan əməliyyatlarında məqsədi bizim itki verməmizdir. Odur ki, bundan da güclü mövqelər seçməliyik.

Sonra isə öz qüvvələrinin müsbət və mənfi cəhətlərini saymağa başlayıb dedi:

kitaboxu.com

- Məşqimiz saat 03:18 dəqiqədə başladı. Saat 03:21 dəqiqədə artıq hamı mövqe seçmişdi. Yəni mövqe seçməmiz 3 dəqiqə çəkdi. Bunu daha tezləşdirməli və gücləndirməliyik; 3 dəqiqə çoxdur...

Mən də həyətə çıxdım. Komandirin uşaqlarla söhbəti bitəndən sonra mənə dedi:

- Hacı ağa, siz də Təminat rəisindən bir Kalaşnikov avtomatı alın və düşmən önünə ağ geyimdə çıxmayın. Onlar geyiminizi görən kimi kim olduğunuzu biləcəklər və bunun axırı yaxşı olmayacaq. Uşaqlara tapşıracağam sabahdan sizə hərbi təlimlər keçsinlər ki, özünüzü müdafiə edə biləsiniz.

- Bağışlayın, bayaq pasdarların biri dedi ki, zastavaya hücuma keçiblər. Bu, aldatmaq üçün idi?

- Yox, nə aldatması?! Həyəcan siqnalı verilirsə, deməli, düşmən hücuma keçib. Düşmən də ya həqiqidir, ya şərti. Hər halda, hazır olmaq lazımdır.

- Əgər hər gecə belə olsa, işimiz var! Bəs gözlərimizi nə vaxt yumacağıq?

- Hacı can, siz yatmaq istəyirdinizsə, əməliyyat bölgəsinə gəlməməli idiniz. Biz burda yuxuda da ayıq-sayıq olmağa məcburuq. Əgər belə məşqlərimiz olmasa, uşaqların hazırlığı zəifləyər, monotonluq müdafiə qabiliyyətlərini azaldar. Bu baxımdan, həmişə və hər şəraitdə məşq etməli və tam hazırlıqlı olmalıyıq. Bəsici olmaq bu deməkdir!

kitaboxu.com

kitaboxu.com

# İkinci fəsil

## Axar çay

Əsgər kazarmasında xüsusi aura vardı. Ora girəndə özlərini yad hiss etməsinlər deyə onlarla zarafatlaşır, hərbi biliklərini mənə də öyrətmələrini istəyirdim. Çünki ora hərbi hissə idi, düşmənin hücum ehtimallarına qarşı hamı hazıqlıqlı olmalı idi. Mən hərbi bacarıqları pasdar və zabitlərdən də öyrənə bilərdim. Lakin əsgərlərin bir ruhanini öz aralarında görmələri, bildiklərini ona öyrətmələri onlara özlərini dəyərli hiss etdirəcək və münasibətləri səmimiləşdirəcəkdi.

Biri avtomat, biri snayper, biri pulemyot, biri DŞK, biri də RPG qumbaraatanından istifadə qaydalarını öyrətməyə başladı. Bilmədiklərimi diqqətlə onlardan soruşur, silahları söküb-yığanda bəzən bacarmır, yaş, peşə və vəzifə fərqlərimizə baxmayaraq, utanmadan onlardan soruşub öyrənirdim. Əsgərlər bunu gördükdə

kitaboxu.com

özləri də sual və problemlərini çəkinmədən söyləyə bilirdilər.

Belə bir yeni və səmimi ortam yarandıqda bir əsgər də çəkinməyi kənara qoyub soruşdu:

- Hacı ağa, günboyu bizim dilimizdən o qədər söyüş və acı söz çıxır ki; bununla necə namaz qılmaq olar? Allah zikrinin belə bir dillə söylənməsi heyif deyil?!

- Onda heç vaxt hamama da getməməlisən, - deyə təəccüblə bildirdim. - Günboyu bədənimiz çirklənir, toz-torpağa, tərə bulaşır. Suyun belə bir bədəni yuması heyif deyil?! Hamam bədəni çirkabdan təmizləmək üçündür. Hədisdə deyilir ki, namaz biz insanların evinin yaxınlığında olan və gündə beş dəfə çimdiyimiz axar çaya bənzəyir. İnsan o vaxt yuyunur ki, bədəni, dili, əməli çirkli olsun. Ona görə bu, sənin sözün deyil, şeytanın sözüdür. O, and içib ki, sizi hər bir hiylə ilə namazdan və Allahı yad etməklə yaranan təmizlikdən uzaqlaşdıracaq. Çünki hər bir ağıllı adam bilir ki, bədən kimi ruhun da təmizliyə, yuyunmağa ehtiyacı var.

kitaboxu.com

# Üçüncü fəsil

## Müjdə

Zastavaya gəlmiş pikapın arxasındakı dizel generatoru bizə daha çox elektrikli saatların müjdəsini verirdi. Biz gələn kimi xarab olub geriyə təmirə getmiş generator bu gün, ramazanın 3-də daha qıvraq və gümrah şəkildə qayıtmışdı. Generatorun gəlişi, bəlkə də, hamıdan çox məni sevindirirdi. Çünki güclü bir generatora görə həm elektrik nemətindən daha çox faydalanacaq, həm də internetdən istifadə edəcəyimə görə işim çox irəliləyəcəkdi.

Köməkləşib generatoru maşından endirdik, işə salanda isə ondan qatı tüstü çıxmağa başladı. Mühəndis dostlardan olan Rəcayifər tüstünü görüb dərin köks ötürdü:

- Vay-vay! Bunlar motoru işə salıb yoxlamayıblar görsünlər ki, elektrik enerjisi verir, ya yox. Motorunu

kitaboxu.com

təmir ediblər, amma dinamosuna baxmayıblar. Yenə açıb geriyə göndərməliyik.

Generatorun gəlişinin dostlara bir faydası toxunmasa da, mənimçün yaxşı oldu. Buradakıları yazmaq üçün komandirin və təhlükəli əməliyyat bölgələrinə gedən kəşfiyyat komandasının əməkdaşlığına ehtiyacım vardı. Bu komandada seçilməyim deyə hərbi forma almalı idim. Hacı İbrahim-1 və Hacı İbrahim-2 zastavalarına nəzarət edən Müslim ibn Əqil taborunun komandiri mayor Baqiri geriyə getdiyinə görə mənə forma almış və generatoru gətirən dostlarla gətirmişdi.

Hərbi formanı əynimə geyən kimi uşaqların hərəsi bir söz atmağa başladı:

- Hacıdan şəhadət ətri gəlir!

- Yox, əşi, şəhadət ətri dünyanı bürüyüb. Hacı canlı şəhiddir!

- Ay bala, bəsdirin, siz yazığı şəhid etməyincə əl çəkməyəcəksiz!

Mənimlə yadigar şəkil çəkdirmək, guya şəhadətimdən sonra paylaşmaq üçün hamı sıraya düzüldü. Hərbi formadan çox komandir, zabit və əsgərlərin xoş münasibətinə və xatirələri qeyd etmək həvəsinə sevinirdim. Çatışmazlıq hiss etməyim deyə diviziyanın uşaqları əlləri çatan hər şeyi can-başla təmin edirlər. Bura gəlmək istəyəndə belə həyəcanlı və

kitaboxu.com

xatirə dolu bir səfərin məni gözlədiyini təxmin etməzdim.

Xudaya! Məni müqəddəs müdafiə dövrünün bir parçasına dəvət etdiyin üçün minnətdaram!

## Hacı İbrahimin qışları

Müşahidə qülləsindən aşağıya dama baxanda qıfa bənzəyən nisbətən böyük bir dəlik diqqətimi cəlb elədi. Diqqətlə baxıb elə bildim ki, dizel generatorunun qatı tüstüsünü çıxaran borudur. Lakin onun qıfa bənzər görkəmi bu ehtimalı rədd edirdi. Dəliyi postdakı pasdara göstərib soruşdum:

- Damın üstündəki dəlik nədir?

- Burada qış fəsli olduqca soyuq keçir, - deyə pasdar cavab verdi. – Qarın hündürlüyü bəzən bir neçə metrə çatır, zastavanın qapıları bağlanır, giriş-çıxış mümkün olmur. Bu zaman damın qarı bu qıfdan içəridəki çənə tökülür və su çatışmazlığı yaranmır.

- Yəni qışda, doğrudan da, burda kimsə olur? – deyə təəccüblə soruşdum. – Qapılar qardan bağlanırsa, içəridəkilər yemək, dərman və digər imkanlar üçün nə edirlər?

- Qışda bu bölgənin yolları keçilməz olur. Hava şəraiti əl verəndə yeni şəxsi heyət, ərzaq və digər imkanlar helikopterlə daşınır.

kitaboxu.com

- Bəs helikopter qarın üstünə necə enir? Üstəlik, qapılar bağlı olduqda bu yerdəyişmə necə baş tutur?

- O qədər qara görə helikopter yerə otura bilmir, zastavanın üstündə havada dayanır, şəxsi heyət və əşyalar damdan yerbəyer edilir. Buna görə binadakı şəxsi heyət çox diqqətli olmalıdır ki, qar dama dolub yeganə yolu da bağlamasın və ya onları boğmasın.

- Qar və şaxta bu qədər güclənəndə və bütün yollar bağlananda, yəqin ki, düşmən qüvvələri də bölgədən çəkilirlər. Belə olan halda bu zastavalarda şəxsi heyətə nə ehtiyac var?

- Qar İran tərəfdəki dağlarda İraq tərəfdəkindən güclü olur və bu, bizim uşaqların işini çətinləşdirir. İraq sərhədində qar yüngül olduğuna görə istilər başlayanda onlar bölgəyə bizdən tez gəlib zastavalarımızı ələ keçirə bilərlər. Biz də sonradan can və maliyyə itkisi ilə onları geri almağa məcbur olarıq. Qışda şəxsi heyətin burda olması bu problemi həll etməkdən əlavə, ağır şəraitlərdə qüdrət əmsalını da nümayiş etdirir. Birinci qarı görən kimi geri çəkilən düşmən bizim nəinki geri çəkilmədiyimizi, hətta qar-boranda və iliyə işləyən soyuqlarda da əziz vətənimizin sərhədlərini tərk etməyib son nəfəsimizə qədər dayandığımızı görəndə hər hansı təcavüzə də cürət etmir. İndi yayın ən isti çağında bura belə soyuqdursa, görün qışda necə olar! Sizcə, ən güclü soyuqda uşaqlarımızı burada

kitaboxu.com

görən düşmən sərhəd məftillərinin bu tayına əyri baxmağa cəsarət edərmi?!

kitaboxu.com

# Dördüncü fəsil

## Bəsici həyatı

Mübarək ramazan ayının uzun gündüzlərində boş vaxtlarda geri qalmış iş və dərslərimi çatdırmaq üçün notbukumu gətirmişdim. Lakin mənəvi mühiti, pasdar və sərhədçi dostların aktivliyini, sadə və səmimi həyatı görüb üzərimdə bütün bu fədakarlıqları qeyd etmək missiyası hiss edirdim.

İşə başlayan kimi problemlər bir-bir qarşıya çıxır, mənə mane olurdu. İlk və ən önəmli problem zastavada elektrik enerjisinin azlığı idi. Xatirələri kompüterə qeyd etmək qələmlə vərəqlərə yazmaqdan qat-qat rahat idi, lakin generator biz gələn kimi xarab olmuşdu, benzinlə işləyən generatoru müəyyən saatlarda işə salırdılar. Yazılarımı həmin saatlara uyğun tənzimləyə bilsəm də, xarablığına və yanacağı tez-tez bitdiyinə görə generator sönüb-yanır, verdiyi enerji azalıb-artırdı və mən notbukumu təhlükəyə ata bilmirdim.

kitaboxu.com

Hacı İbrahim-1 zastavasının komandiri leytenant Pirzad bu problemdən xəbər tutan kimi səxavətlə mənə təqvimli gündəlik və qələm verdi. Bu gündəlik həm kağız ehtiyacımı təmin edir, həm də hadisələri yazmağa xronologiya sayılırdı. Üstəlik, o, əlimdə olanda bir növ dostlardan xatirələrini söyləmələrini xahiş etmək sayılırdı. Pasdar və əsgər dostlar bu "xahiş"lə həvəslə mənə kömək edir, dəyərli məlumatlarını səxavətlə bölüşürdülər. Mən də daha bəhanəyə yer olmadığını görüb bütün çətinliklərə sinə gərən hər kəs kimi və bir bəsici olaraq yaşamalı, problemlərə qalib gəlməli və bir "Bismillah"la yazmağa başlamalı olduğumu anladım. Eyni zamanda ruhani vəzifələrimi yaddan çıxarmamalı idim. Bu səbəbdən camaat namazı, aktual şəriət məsələlərinin, xüsusən də səfər hökmlərinin izahı və məsumların hədislərinin qısa şərhindən ibarət gündəlik proqram tərtib etdim. Mövzular mühitə, mövcud həyat şərtlərinə və problemlərə uyğun seçilirdi ki, uşaqlar məsum sözünün işığını daha aydın hiss etsinlər. Bunlardan əlavə, hər gün hərbi təlim keçmək, sonda da hər iki zastavanın zabit və əsgərlərinə baş çəkmək və problemləri ilə tanış olmaq üçün zaman bölgüsü lazım idi. Gün uzun olduğuna görə şəxsi işlərimlə məşğul olmağa, Quran oxumağa, mütaliəyə, yazmağa, hətta

kitaboxu.com

dostlarla birlikdə su gətirməyə, səngər düzəltməyə və digər işlərə də arxayın şəkildə vaxt ayıra bilirdim.

Zastavanın içində qaranlıqda yazmaq çətin idi. Həyətdə də oturması çox çətin olan bir neçə səngərdən başqa bir şey yox idi. Havamı dəyişmək üçün həyətə çıxdım. Arxasına 106 mm çaplı silah qoyulmuş köhnə bir pikap diqqətimi cəlb elədi. Sevincək ona yaxınlaşdım, oturacağında oturub yazmağa başladım. Quru kobud gövdəsinə baxmayaraq, rahat oturacağı vardı.

Bir gün yenə maşında oturub Quran oxuduğum yerdə zirehli texnika işlərinə baxan təbrizli Şəhram gəlib yanımda əyləşdi. Salamlaşandan sonra maşının arxasındakı silahın lüləsini göstərib soruşdum:

- Bu, hansı topdandır belə?

- Bu, top deyil, tüfəngdir. Buna 106 çaplı silah deyirlər.

- Aman Allah! Bu, tüfəngdirsə, bəs top nədir?! Sizdəki tank nədir bəs? Onun lüləsi niyə nazikdir?

- O da tank deyil, zirehli maşındır, içinə on nəfər yerləşir. Əməliyyat yerlərində uşaqları təhlükəsiz daşımaq üçün istifadə olunur.

- Təhlükəsiz deyəndə, bunları RPG qumbaraatanı ilə vurmaq olmur ki?

- Yox, əşi, tank və zirehli maşınları yalnız filmlərdə RPG ilə vururlar. Bunların kuzovuna raketdən başqa

kitaboxu.com

heç nə batmır. Qumbaraatan necə mahir olsun və hansı məsafədən atsın ki, bunlara təsir etsin – Allah bilir!

***

Axşam dostum Məcid Tehrandan zəng etdi. Bütün dostlara salam söylədi, hal-əhval tutandan sonra ağır şəraitdə yaşamaqdan və qidalanmadan soruşanda aşpaz Mikayılın sözləri yadıma düşdü, gülə-gülə dedim:

- Aşpazımız Mikayıl deyir ki, uşaqların ərzaqı adambaşına verilir və hər iyirmi gündən bir gəlir. Ərzaq gecikəndə uşaqlar ona Mikayıl yox, Əzrayıl deyirlər.

Bu zarafat ağzımdan çıxan kimi leytenant Pirzad işarə barmağını dodaqlarının üstünə qoyub gözlərini bərəltdi. Telefon əlaqəsini kəsib hansı səhvə yol verdiyimi öyrənməyə çalışdım.

- Zastavanın məlumatlarını niyə ötürürsən, hacı ağa? – dedi.

- Hansı məlumatları? – deyə təəccüblə soruşdum.

Bir-bir barmaqlarını qaldırıb saymağa başladı:

- Bir: telefonda yerinizi bildirib dediniz ki, Hacı İbrahim yüksəkliyindəyik. İki: Zastavanın ərzaqı adambaşınadır. Üç: Ərzaq hər iyirmi gündən bir gəlir. Dörd: Ərzaq gecikəndə uşaqlar problem yaşayırlar.

Gözlərim cənab Pirzadın barmaqlarına dikilib qaldı, təslim əlaməti olaraq əllərimi qaldırıb dedim:

kitaboxu.com

- Bunların düşmənlə nə əlaqəsi? Mən təqsirkaram, amma əvvəla, bunların sirr olduğunu bilmirdim; ikincisi də burda düşmən yoxdur ki, qorxam.

Leytenant yenə əlini qaldırıb bir-bir saymağa başladı:

- Birinci qayda: Sizin və bütün uşaqların telefonu düşmən tərəfindən dinlənir. İkinci qayda: Ən kiçik məlumatın da ötürülməsi bizim zərərimizə və düşmənin xeyrinədir. Üçüncü qayda: Məlumatları qorumaq onların özlərindən vacibdir, - dedi, sonra əlini aşağı salıb sözünə davam etdi: - Zastava komandiri olaraq, mənim fikrimcə, zastavanın ərzaq proqramı bu axşam düşmənə bəlli oldu, bundan düşmənin sonrakı əməliyyatlarında bizim əleyhimizə istifadə oluna bilər. Belə ki, ərzaq gəlişinə nəzarət edə, növbəti ərzaq zamanına bir neçə gün qalmış əməliyyata başlayıb təzyiq göstərə, növbəti ərzaqın gəlişinə mane ola, uşaqlarımızı günlərlə ac, habelə fiziki və psixoloji təzyiq altında saxlayaraq son zərbəni vura bilər.

Gözlərimdəki narahatlığı görən leytenantın üzünə zirək təbəssüm qondu. O, əlavə etdi:

- Yenə də çox narahat olmanıza ehtiyac yoxdur. Biz bunu da nəzərə almışıq. Ərzaqın gec-tez gəlişi də öz planımızdır ki, düşmən onun gəliş vaxtını bilməsin. Bununla bağlı digər planlarımız da var, amma onları

kitaboxu.com

demək məsləhət deyil. Bunları dedim biləsiniz ki, sizin danışığınız bizim hamımız üçün baha başa gələ bilər.

kitaboxu.com

# Beşinci fəsil

## Kəşfiyyat

Mayor, Nadir və Zeynalla birlikdə ətrafdakı dağlara kəşfiyyata getdik. Müslim ibn Əqil taborunun döyüşçüləri arasında dərin dostluq münasibəti var. Danışıqlarından kimin rəis, kimin tabe olduğunu bilmək olmur. Tanımayan olsa, elə bilər ki, Zeynal komandirdir, Nadir və mayor da onun tabeliyində xidmət göstərirlər. Dağlara doğru getdiyimiz yerdə Zeynal üzümü göstərib dedi:

- Hacı ağa, üzünü ört.

Boynumdakı çəfiyə şalı ilə üzümü örtüb sual əlaməti olaraq qaşlarımı düyünlədim. Zeynal ətrafı və PJAK düşərgəsi səmtini göstərib dedi:

- Onlar indi hər yerdə, hətta bizim bir neçə addımlığımızda, bu qaya və kolların arxasında pusquda ola bilərlər. Sizin cüssə, görkəm və saqqalınızı görüb diviziya komandirlərindən olduğunuzu zənn edərlər.

kitaboxu.com

Onlar pusquda olanda korpusun adi qüvvələrini hədəf seçmirlər, uşaqlarımıza psixoloji zərbə vurmaq üçün də olsa, snayperləri yüksək vəzifəli komandirləri vurmağa çalışırlar. Namərdlər 2011-ci ildə İsfahanın 15 Xordad artilleriyasının komandiri Şəhid Cannisarini belə vurdular. Allah bilir, snayperləri neçə gün, ya da neçə həftə pusquda dayanmış, axırda onun alnını nişan ala bilmişdi.

Qayaların birində üzü üstə uzanıb ətrafı müşahidə edən mayor durbini mənə verdi, bir təpəni göstərib dedi:

- O təpənin altındakı daşlığa diqqətlə baxın. Qayanın altında PJAK tərəfindən qazılmış bir otaq var. Onlar adətən qayaların içində, yeraltı mağaralarda, əsasən dağlarda qazılan otaq və tunellərdə yaşayırlar. Oralarda yaşamaq üçün bütün imkanlar yaratmışlar. Oğlanlı-qızlı günlərlə, bəzən də həftələrlə qalırlar, kənardan isə heç nə bilinmir. Buna görə bölgəni və hərəkətləri çox diqqətlə nəzarətdə saxlamalı, onların hər hansı hərəkət imkanlarını məhdudlaşdırmalıyıq. Əlbəttə, onlar da boş oturmayıb bizim hərəkətlərimizi izləyirlər. Bu meydanın qalibi qarşı tərəfin fəaliyyətlərindən daha çox və daha əhatəli məlumat toplayandır.

Mayor durbini aldı, bu dəfə dərədəki gölməçəni göstərib dedi:

kitaboxu.com

- Ora baxın; bir silahlı iki nəfərlə birgə gizləndikləri yerə su aparmağa gəlib.

Durbini alıb mayorun dediyi ünvana diqqətlə baxdım: silahlı dayanmışdı, digərləri isə əllərindəki iyirmilitrlik bidonlara su doldururdular.

Mayor sözünə davam etdi:

- Belə məsələləri nəzarətdə saxlamaq ona görə əhəmiyyətlidir ki, suyun miqdarını və iki dəfə su götürmək arasındakı zaman aralığını öyrənərək saylarını təxmin etmək olur. Bunlar axırıncı dəfə dünən səhər su aparmağa gəlmişdilər. Onda da üç nəfər idilər və iki bidon su apardılar. İstifadə etdikləri suyun miqdarına əsasən təxmin etmək olar ki, bütün qənaətlərinə rəğmən, sayları 6-8 nəfərdir.

- Bu, sizi aldatmaq üçün də ola bilər.

- Düzdür! Amma biz zonanın bütün gölməçə və bulaqlarına nəzarət edirik. Qruplaşmaya ən yaxın gölməçə bura olduğu və onlar suya ehtiyaclarını bu mənbələrdən birindən götürməyə məcbur olduqları üçün, təxmini olsa da, saylarını öyrənə bilirik. Hərçənd, bu məlumat bizim ehtiyat etməməyimizə səbəb olmur.

kitaboxu.com

# Mazandaranın uzun dənəsi[1]

Hamı Şəhid Ruhullah Sultani ilə yadigar şəkillərini gətirmişdi. Bütün şəkillərdə bir məsələ adamın diqqətini cəlb edirdi: Şəhid Sultani ən ucaboy uşaqlardan da hündür idi. Bu boy-buxun enli kürəyi, düz və daranmış saqqalı ilə birlikdə onun üzünə xüsusi heybət bəxş edirdi. Onun uca qamətini görüb zarafata dedim:

- Gərək şəkil çəkdirəndə o oturarmış, siz ayaq üstə dayanarmışsınız. Bəlkə, onda bərabər olub kadra yerləşərdiniz.

Cənab Məhdəvi gülüb dedi:

- Böyük Rəhbər Bocnurda gedəndə Şəhid Sultani və Kərbəla diviziyasının bir qrup pasdarı ağanın mühafizəsi üçün oraya göndərilmişdilər. Həzrət ağa vəzifəli şəxslərlə görüşəndən sonra şam süfrəsi sərilir. Şəhid Sultani rəhbərdən bir neçə metr aralıda oturur. O özü belə deyirdi:

"Çox həyəcanlı idim, yemək boğazımdan keçmirdi. Ancaq gözlərimi ağaya dikib üzünün nurunu qəlbimə doldurmaq istəyirdim, amma olmurdu; qorxurdum ki, mənim baxışlarımı hiss edib yeməyini rahat yeyə bilməz. Buna görə də hər dəfə başını aşağı salıb yeməyinə baxanda ona baxırdım, başını qaldırıb

---

[1] Bu ifadə adətən Mazandaranın uzun düyüsü üçün işlənir. (müt.)



kitaboxu.com

kiminləsə danışanda isə mən başımı aşağı salırdım. Mən heç cür yemək yeyə bilmirdim, ancaq qaşıq-çəngəllə oynayırdım. Həzrət ağaya elə diqqətlə tamaşa edirdim ki, kiminsə məni görə biləcəyi yadıma düşmürdü. Bilmirəm ağanın özü də hiss etmişdi, ya yox; amma birdən mühafizəçilərinin biri mənə yaxınlaşdı, əlini çiynimə qoyub dedi: “İstəyirsinizsə, gəlin, ağanın yanında oturun”.

Sevindiyimdən yerə-göyə sığmırdım. Məncə, bunu Böyük Rəhbərin özü yaxın mühafizəçisinə tapşırmışdı.

Ayağa qalxıb yaxınlaşdım. Sərdar Cəfəri ağanın yanında oturmuşdu, onun yanında birnəfərlik yer vardı. Sərdarın yanında oturub yenə ağaya tamaşa etməyə başladım. Düşünürdüm ki, kaş aramızda bu qədər məsafə də olmayaydı, heç bir maneəsiz onun əl-ayağından öpəydim. Yeməkdən sonra sərdar Cəfərini kimsə çağırdı. Ayağa qalxan kimi tez onun yerinə atıldım. Artıq ağanın düz yanındaydım. Sevindiyimdən gözlərim dolmuşdu, özümü itirmişdim. Birdən ağanın ayağını öpmək üçün qeyri-ixtiyari olaraq əyildim. Mühafizəçilər qolumu tutdular. Baxışım imamımın baxışlarında düyünlənib qaldı. Çox sevimli və əzəmətli anlar idi. Göz yaşlarımdan üzüm islanmış, boğazımı qəhər tutmuşdu. Ağa mehriban tərzdə baxdı, əlini başıma çəkib buyurdu: “Sən haralısan?” Dilim topuq vura-vura: “Mazandaran... Amuldanam,” – dedim.

kitaboxu.com

Yenə gözəl təbəssüm edib dedi: “Maşallah! Mazandaranın uzun dənəsi!”

Məsud Məhdəvinin sözünü təsdiqləyib dedi:

- Ruhullahın iki metrə yaxın boyu, 130-140 kq da çəkisi vardı. Bizi qucaqlayanda qucağında itirdik. Bir dəfə ezamiyyətdən gələndə bir-bir bütün dostlarla görüşdü, mənə çatanda geri çəkilib dedim ki, bağışla, komandir, mən soyuqlamışam. Qolumdan yapışıb məni dartdı və bərk qucaqlayıb dedi: “Gəl bura görüm, mən səndən də pis xəstələnmişəm!”

- Məsud, Şəhid Ruhullah Sultani çox gənc imiş, baxanda əməliyyat komandiri olduğunu güman etməzlər, - dedim.

- Elədir. Korpus 2011-ci ildə qərb sərhədlərimizi PJAK-dan geri alanda mürəkkəb əməliyyatlarda böyük qəhrəmanlıqlar göstərmişdi. Buna görə Quru Qoşunlar vaxtından əvvəl rütbəsini qaldırdı. Şəhadətindən sonra da ona polkovnik rütbəsi verildi.

- O, məndən bir-iki gün qabaq PJAK qüvvələri tərəfindən şəhid edilib. Onun son günləri və şəhadət tərzi barədə danışa bilərsiniz?

- Yeddi-səkkiz gün öncə uşaqlarla zarafatlaşırdı; hətta axırıncı gün bizimlə kollektiv şəkil də çəkdirdi. Qaçaqçılar gecə ikən at və qatırlarla zastavanın ətrafındakı cığırlardan ölkəyə qaçaq mal və silah keçirmək istəyəndə onlara mane oldu, mallarını

kitaboxu.com

müsadirə etdi. Amma namərdlər geri qayıdanda qaranlıqdan istifadə edib onu arxadan vurdular. Biz onu geri aparanda üzündən təbəssüm əskilmirdi. Cəsədini Amula aparanda ona hörmət olaraq şəhərin bütün mağazaları bağlandı, bütün əhali onun dəfnində iştirak etdi. Meyit namazını qılmaq üçün tabutunu yerə qoyanda kiçik oğlu şəhid atasının cəsədini öpüb ağlayırdı, böyük oğlu hələ yetim qaldığına və cəsədin atasına aid olduğuna inanmırmış kimi mat-məəttəl camaata baxır, bahar buludu kimi, amma yavaş və səssizcə göz yaşı tökürdü.

kitaboxu.com

# Altıncı fəsil

## Leyli yolunda

- Hətta yarım metr irəlinin də görünmədiyi bir çovğunda Toyota pikapı qara batmışdı, nə qədər yalvarırdıqsa, yalnız guruldayıb buz üstündə təkərlərini fırladır, yerindən tərpənmirdi. Ən əsası isə budur ki, Hacı İbrahim zastavasındakı uşaqların ərzaqı bitmiş, gözləri yolda qalmışdı. "Xudaya! Özün onlara kömək elə, bizim əlimizdən heç nə gəlmir!" – deyə dua edirdim. Qarı təmizləyib iri qalın daşları çətinliklə yerdən çıxarır, maşının altına 4-5 metr uzunluğunda daş döşəyirdik. Nəhayət, avtomobil yerindən tərpənib hərəkət edə bildi. Buna baxmayaraq, bizi yalnız Bozmərg-sir qalasına qədər apardı. Ondan daha artığını gözləmək düzgün də deyildi.

Gənc sərhədçi dərin nəfəs alıb sözünə davam etdi:

- Gecə qalada yorğun-arğın bədənimizi yerə qoyan kimi, sanki qu tükü üzərindəyik kimi şirin yuxuya

kitaboxu.com

getdik. Səhər Hacı İbrahim yüksəkliyinə getməli idik. Lakin hava o qədər dumanlı idi və külək xırda qar dənəciklərini havada elə uçururdu ki, insan önünü görə bilmirdi. Odur ki, bir gecə də qalmalı olduq. Ertəsi gün gördüm ki, yox, hava düzələn deyil. Daha dözə bilmədim, ayaqları keyimiş bir dostumuz üçün dərman, beş-altı paket makaron, tomat, yağ, iyirmi ədəd balıq konservi və bir qədər hazır xörəyi bel çantama yerləşdirdim, yetərincə silah-sursat götürdüm və kəsə dağ yolu ilə Hacı İbrahimə doğru yola düzəldim. Bəzən ayağımı qara batıranda elə bilirdim ki, qar bu dəqiqə məni udacaq. Elə olsaydı, cəsədim də tapılmayacaqdı. Bu səbəbdən, uzaq olsa da, dağın təpəciklərinə baxaraq yol seçirdim ki, qarın hündürlüyü az olsun.

Çantamdakı ərzaqın, çiynimdəki silahın və patron dolu daraqların ağırlığı, addım atmağı çətinləşdirən qarla dolu çətin dağ yolu və soyuq hava nəfəsimi kəsirdi. Üstəlik, dəniz səviyyəsindən 3500 metr hündürdə idim və belə bir sıxlıqlı hava şəraitində adi halda da oksigen balonuna ehtiyac yaranırdı. Zastavaya yaxınlaşanda əlimi ratsiyanın düyməsinə basıb kömək istəməyə də taqətim qalmamışdı. Ancaq donmuş əllərimi birtəhər ratsiyanın üzərinə qoyub uşaqlara dedim: “Bayıra çıxın, məni xilas edin; daha taqətim qalmayıb!”

kitaboxu.com

Dostlar başıma nə gəldiyinə dair yarım gün narahat halda gözləyəndən sonra səsimi eşidib sevincək bayıra çıxdılar, qoltuqlarımın altına girib məni içəri apardılar. Qızışandan və oksigen qəbul edəndən sonra bir az özümə gəldim. Mən çatanda dedilər ki, cəmi bir neçə peçenyeləri qalıbmış. Bir neçə gün imiş səhər-axşam yalnız peçenye yeyirmişlər.

- Üzr istəyirəm, dediniz ki, dostunuzun ayağı keyiyibmiş. Bu nə məsələ idi? – deyə soruşdum.

- Yağış yağırdı, damın üstünə su dolmuşdu. Qüllədə postda olanda onu ildırım vurmuşdu. Xoşbəxtlikdən, güclü yağışa görə çardağın altındaymış. İldırım yaş yerə düşmüş, ayağını elektrik tutmuşdu. İndi də çardağın tavanına baxsanız, gəcin böyük bir parçasının düşdüyünü görərsiniz. O, ildırımın yeridir. Yazıq neçə gün meyit kimi yerdə qaldı, ayaqlarını tərpədə bilmədi. Uşaqlar növbə ilə onun ayaqlarını masaj edirdilər. Şükür Allaha, nisbətən yaxşılaşdı. O gündən başlayaraq on altı gün ərzində gətirdiyim ərzaqdan yedik, sonra kömək və ərzaq gəldi, onu da geriyə göndərdik.

Ölkəmin qeyrətli sərhədçilərindən birinin fədakarlıq hekayəsini dinləməkdən zövq alırdım. Söhbət bu yerə çatanda ondan soruşdum:

- Yadımdan çıxmamış soruşum: adınız nədir?

kitaboxu.com

- Adımın nə önəmi var ki? – deyə utanıb baxışını yana çevirdi.

Bütün dostlar diqqətlə qulaq asırdılar. Bu yerdə Məhəmməd zarafata dedi:

- Hacı ağa, adının çəkilməsinə razı deyilsə, onun yerinə mənim adımı yazın. Amma sui-istifadə etmiş kimi olmayım deyə söyləməliyəm ki, adı Tövhiddir.

- Tövhid, bəs necə oldu ki, elə qar və çovğunda təkbaşına yola çıxıb həyatını riskə atdın? O yolu heç yayda getmək olmur!

- Niyə gəldiyimin cavabı bəllidir. Sual belə olmalıdır ki, gəlməyib dostlarıma ərzaq və dərman gətirməsəydim, başlarına nə gələrdi?

- Mən eşitmişəm ki, bir neçə il əvvəl qumlu uşaqların iki-üçü buradan da gərgin olan Oşnəviyyə döyüşlərində güclü soyuqdan donub şəhid olublar. Bu baxımdan, özünün dediyin kimi, qarın səni udması və hətta cəsədinin də tapılmaması tamamilə mümkündü. Sualım budur ki, bütün bu şərtlərlə yanaşı necə cəsarət edib yola çıxdın? Fikirləşmədin ki, donub yolda qala bilərsən?

Üzündən sadəlik və sədaqət yağırdı. Şirin azəri ləhcəsi ilə dedi:

- Təhlükələrlə dolu Leyli yolunda birinci şərt Məcnun olmaqdır!

kitaboxu.com

# Mənfi fikirli cənab

Dilinə yiyəlik edə bilmir, hər kəsi və hər şeyi insan və uzunqulaq bədəninin aşağı hissələrinə bənzədirdi. Bilmirəm kimdən və hansı ruhani həmkarımdan nə çəkmişdisə, mənə xoş üz göstərmirdi. Amma bir az səbir-hövsələ ilə davrandıqdan sonra yavaş-yavaş mənə yaxınlaşdı, sonra iş o həddə çatdı ki, qonşu zastavaya gedəndə gəlib məni maşınla geri qaytarırdı. Lakin məsələ burasındaydı ki, heç mən də onun ədəbsiz sözlərindən amanda deyildim. Bu isə ondan uzaqlaşmamaq şərtilə başqa bir yolla həll olmalı idi.

İlk olaraq adını "Mənfi fikirli cənab" qoydum, zastavada da bu ləqəblə məşhurlaşdı. Hamı onu belə çağırmaqla həm üzlərdə təbəssüm yaradır, həm də ona üstüörtülü bir xəbərdarlıq etmiş olurdular ki, sözlərinə fikir versin. Bu fənd bir müddət işə yaradı; aramızda səmimi dostluq yarandı və daha mənə sataşmadı. Lakin bir müddətdən sonra gördüm ki, təsiri azalır və dostumuz yenə mənə sataşmağa başlayır. Bu zaman başqa bir fəndə əl atdım və xoşbəxtlikdən, axıra qədər təsirli oldu.

Bir dəfə dostlarla birgə oturduğumuz yerdə məndən söz düşdü və o, yerli ləhcəsi ilə mənə pis bir söz atdı. Elə bildi ki, başa düşmədim; özüm də üz vurmadım. Lakin onun yanında oturmuş dostumuz mənə baxıb dedi:

kitaboxu.com

- Hacı ağa, buna nə qədər deyirəm ki, belə danışma, amma qulağına girmir ki girmir!

Təəccüblənmiş kimi görkəm alıb dedim:

- Bilmirəm biz niyə bu qədər israr edirik ki, bir şey mütləq adamın qulağına girsin?! Bəyəm adamda qulaqdan başqa bir şey yoxdur?!

Uşaqlar bir qədər fikirləşdilər, sonra isə bir neçə saniyədən sonra partlayan qumbara kimi hamısı birdən qəşş edib gülməkdən yerə uzandılar.

- Yox-yox, məqsədim bu deyil, - deyə daha təəccüblü ifadə ilə bildirdim. – Niyə adam bir söz deyən kimi pis başa düşürsünüz? Demək istəyirəm ki, adam sözünü insanların beyninə, ruhuna...

- Hacı ağa, davam etmə, - deyə dostların biri gülə-gülə sözümü kəsdi, - davam etmə, yoxsa pis yerlərə gedib çıxacaq.

Bir nəfər əlini Mənfi fikirli cənabın çiyninə vura-vura gülüb dedi:

- Sənə nə qədər dedim ki, hacı ilə işin olmasın. Bu seyid əcdadlarının genetikasından zərrə qədər irs almış olsa, səndən də böyük yüz adamın arxasını yerə vurar. Onun motoru hələ işə düşməyib, bütün cüssəni halal elədi, gör, Allah eləməmiş, bıçaq sümüyünə dirənsə, başına nələr gələr!

Azan vaxtı yaxınlaşırdı. Ayağa qalxıb qollarımı çırmadım, dolanbac, dar və qaranlıq pilləkənlə

kitaboxu.com

dəstəmaz almağa getdim. Dostlar yaranmış gülüş bazarında zarafat karvanından geri qalmaq istəmirdilər. Odur ki, zarafatcıl pasdarların biri dedi:

- Hacı ağa, sənə qurban, mümkünsə Allahdan icazə al, mənim yerimə də bir dəstəmaz al, aşağı düşməyə halım yoxdur.

Gülüb dedim:

- Əgər İmam Xamenei, ya da sərdar aşağıda olub tez sıraya düzülmək əmri versəydi, yenə ərinib mənə deyərdin ki, get, yerimə sırada dayan?

- Həzrət ağa başqadır; cani-dildən gedərdim. Sərdar da olsaydı, yay kimi yerimdən atılardım, amma ürəkdən yox ha, qorxudan! Bəli, əgər sərdar icazə versəydi, deyərdim ki, zəhmət olmasa, gedin, mənim yerimə sırada dayanın.

- Bəs sərdar şəxsi heyəti düzüb intizamlı hərbçilərin rütbəsini artırsaydı, necə? Yenə qorxudan yerindən atılardın?

- Allah tərəfi, həssas məsələyə toxundun. Yox, bu halda ürəkdən gedərdim.

- İbadətlərimizə tənbəllik edəndə bu bir neçə məqamı diqqətdə saxlasaq, halımız çox yaxşılaşar: Əvvəla, ibadət etdiyimiz Allahın yaxşı və böyük olduğunu bilək. Biz həzrət ağanı zahiri görünüşünə görə yox, Allaha bağlı olduğuna görə sevirik. Deməli, Allahı nə qədər yaxından tanısaq, Onun əzəmətinə

kitaboxu.com

diqqət və sevgimiz nə qədər çox olsa, bizdə ibadətə tənbəllik və ərincəklik yox, güc və həvəs yaranar. İkincisi, fərz edək, Allahın əzəmətli və yaxşı olduğunu diqqətdə saxlaya bilmiriksə, bəs əməlimizin nəticəsində alacağımız mükafat və rütbəni niyə yadımıza salıb, siz demiş, yay kimi yerimizdən atılmırıq? Bundan əlavə, fərz edək, qorxu da olmasa, mükafatlandırma da olmasa, özümüz istəmədən bizə bu qədər nemət vermiş, göz, qulaq, sağlamlıq və sair imkanlar bəxş etmiş Allah bizdən Özü üçün yox, yenə də bizə və ehtiyacımıza görə bir şey istəyəndə niyə tənbəllik etməliyik?! Sanki bir nəfər sərin bir bulağı bizə bağışlayıb, bizsə həmin bulaqdan onun özünə bir stəkan su verməyə xəsislik edirik. Bu, həqiqətən, insafsızlıqdır![1]

kitaboxu.com

[1] Həzrət Zəhranın gündəlik dualarının şərhi, səh. 56.

# Yeddinci fəsil

## Öztəminatlı döyüşçülər

Bu günə qədər elə bilirdim ki, ən çətin şəraitdə və ən az imkanlarla yaşayan bizik. Lakin polkovnik Kazimi ilə xüsusi təyinatlı uşaqlara, artilleriya və digər bir neçə zastavaya baş çəkəndə bildim ki, biz naz-nemət içində yaşayırmışıq, xəbərimiz yoxmuş. Çünki bu zastavaların sərhədçilərinin binaları da yoxdu. Onlar dağın içində ovulmuş və daha çox, sığınacağa bənzəyən yerlərdə xidmət edirdilər.

Şiferdən qövsşəkilli dam örtüyü, çoxlu bacaları və kələ-kötür döşəməsi vardı, rahatlıq üçün heç bir müsbət cəhət görünmürdü. Bu dırnaqarası zastavalar bizdən alçaqda olduğuna görə havası daha isti idi və bu səbəbdən orada əqrəb və zəhərli hörümçəklər olurdu. Onlar hər gün bu ziyanvericilərin bir neçəsini öldürməyə məcbur olurdular. Bir neçə gün qabaq döyüşçülərin birini zəhərli əqrəb sancmış,

kitaboxu.com

ezamiyyətdən öncəki tibbi yardım təlimləri sayəsində xilas olmuşdu. Əlbəttə, müalicə müddətində az ağrı-acı çəkməmişdi.

Bu zastavaların uşaqları adlarını öztəminatlı döyüşçülər qoymuşlar. Çünki burada həkimsizlik və ya dərmansızlıq əqrəb, hörümçək və ya ilan zəhərlərinə qarşı qaneedici cavab deyil, hər bir şəraitdə və bütün çatışmazlıqlarla yanaşı özünü təmin etmək, öz ehtiyaclarını aradan qaldırmağı bacarmaq lazımdır. Bilmirəm ki, əvvəldən bu zastavalara göndərilsəydim, axıracan qalmağa gücüm və cürətim çatardı, ya yox. Orada yaşayan əsgərlər və xüsusi təyinatlılar isə heç nədən şikayətlənmədən çiyin-çiyinə keşik çəkir, sadə və səmimi həyatları ilə hamımıza bu mesajı verirlər ki, çox adi və imkansız şəraitdə də qardaş kimi yaşamaq mümkündür; təbii ki, məqsədlər eyni olsa və o daxmaya Allah nuru saçsa.

Xüsusi təyinatlıların bir qismi gecədən pusqu səngərinə getmişdilər və qayıtmaq üzrəydilər. Torpaq yoldan qalxan toz-torpaqdan bildim ki, onlardır.

Uca boyları, güclü bədənləri vardı. Saçları o qədər tozlu idi ki, rənglərini müəyyən etmək olmurdu. Yorğun üzlərindəki təbəssüm çöhrələrini işıqlandırır, onlara xüsusi əzəmət bəxş edirdi. Onları qarşılamağa getdim. Biri pikapın arxasından enəndə əlimi çiynine vurdum, paltarından toz-torpaq qalxdı. Boğazıma toz

kitaboxu.com

getməsin deyə üzümü çevirəndə qaşqabağını sallayıb dedi:

- Belə olmaz ha! Bu toz-torpaq mənim həyatımdır, ruhumdur! Bu torpaq vətən torpağıdır, igidlər torpağıdır! Yenə deyim?

Təbəssümlə cavab verdim və formasındakı etiketə baxıb soruşdum:

- Ağa Səhrayi, siz taborun xüsusi təyinatlı uşaqlarındansınız?

- Bəli, biz uşaqlıqdan xüsusi təyin olunmuşuq, - gülərək dedi, sonra birdən qaşlarını düyünləyib dərin köks ötürən başqa bir xüsusi təyinatlıya tərəf sıçrayıb:
- Nə oldu, Məhəmməd, hələ sakitləşməyib? – deyə soruşdu və onun paltarının düymələrini açmağa başladı.

Tez onlara yaxınlaşdım. Məhəmməd sinəsinə xəncər saplanmış adam kimi qıvrılırdı. Səhrayi onun paltarının düymələrini açanda sinəsində böyük bir daş yerinin göyərdiyini gördüm.

- Bu, nəyin yeridir? – deyə təəccüblə soruşdum. – Dünəndən sinən üstə iri daş qoymuşdun?

- Yox, sinəmi iri daşın üstünə qoymuşdum, - deyə gülümsədi. – Gecədən sübhə qədər sinəm üstə uzanmışdım və tərpənmədən durbinlə düşmənin hərəkətlərinə baxırdım. Yerimdən tərpənsəydim, müşahidə qülləsindən görərdilər.

kitaboxu.com

Üzlərindən yorğunluq yağsa da, onlarla söhbət etməməyə ürəyim gəlmədi. Onlar da hər küləkdən əsən çinar deyildilər. Məhəmmədlə bir tərəfdə oturub danışmağa başladıq. O, ilk pusqu əməliyyatları barədə bunları dedi:

- İlk dəfə pusqu əməliyyatına gedəndə indiki kimi ramazan ayı idi. Zastavada iftar hazırlayıb aparmağa vaxtımız yox idi. Buna görə Toyota pikapının arxasına bir piknik sobası, qazan, süd, şəkər və su qoyub yola düzəldik. Düşmənin gəlib-getdiyi bir yerdə gizlənib səhərə qədər onları nəzarətdə saxlamalı idik. Yarıyacan suyla dolu olub torpaq yolboyu pikapın arxasında yellənən qazanı çətinliklə qaynatdıq. Uşaqlar başlarına ədyal atıb qazın üstündə dayanırdılar, biri də aşağıda qazanı saxlayırdı ki, suyu dağılmasın. Su qaynayandan sonra növbə ilə firnini qarışdırmağa başladıq. Axırda bir zəfəranlı firni alındı ki, gəl görəsən! İri topaları firnisindən çox idi. Elə oradaca hərə bir tikə çörək götürüb firniyə batırır, iftar edirdi. O vəziyyətdə, təbii ki, çayımız da yox idi.

Havanın tam qaralmasını gözlədik, sonra düşmən mövqeyinə doğru yola düzəldik. Zülmət qaranlıq, dağ-dərələri bürümüş vahiməli sükut, qorxu dolu mühit, hər an hər yandan hücum edib bizi tikə-tikə edə bilən düşmənlərin ortası! Qarşıya baxanda qaranlıqdan başqa heç nə görünmürdü. Geri döndüm; öndən də

kitaboxu.com

qaranlıq idi. Bir anlıq bütün vücudumu vahimə bürüdü. İlk dəfəydi uşaqlara qoşulub belə bir yerə kəşfiyyata getmişdim. Ayaqlarım boşaldı, əllərim əsməyə başladı. Ürəyim elə döyünürdü ki, elə bilirdim, səsini hamı eşidir. Qorxudan ayaqlarımın titrədiyini arxamca gələn Hüseyndən hətta gecənin qaranlığı da gizlədə bilmədi. O, əlini çiynimə qoyub dedi: "Nə olub? Niyə getmirsən?" "Ayaqlarım keyiyib, çox qorxuram!" – deyə cavab verdim. O, qəlbində iynə ucu qədər də qorxunun olmadığı halda dedi: "Bir söz desəm, acığına gəlməz?" Dedim ki, gəlməz, de. Dedi: "Məsciddə kiminçün namaz qılırsan? Əzadarlıqda kimə görə sinə vurursan? Deyəsən, yadından çıxıb ki, Allah hər yerdədir və biz tək deyilik! Belə görünür ki, namaz səninçün dil vərdişidir, adət üzündən qılırsan!"

Bu sözlərdən sonra ürəyimin döyüntüsü daha da artdı, sanki daha çox qorxub heykəl kimi dondum. Hüseyn vəziyyətimi görüb qəfildən qulağımın dibinə bir sillə vurdu: "Özün də xüsusi təyinatlısan ha! – dedi, sonra işarə barmağını sinəmə sıxıb əlavə etdi: - Güllə sinənə dəyəndə ağrısını bundan da az hiss edəcəksən. Bəli, ölüm bu qədər rahatdır, bunu hiss etdiyindən də rahat. Bunun üçün qorxarlar?! Məgər axırı rahatlıq deyilmi?! Sonra da rahat uça biləcəksən. Məgər bu dünyanın xarabalıqlarında gəzib onun-bunun murdarladığını təmizləyəndə nə olur ki?!"

kitaboxu.com

Barmağını sinəmə sıxmaqla sanki mənə pozitiv enerji ötürdü, bütün qorxularım yoxa çıxdı, sübhə qədər tək-tənha gecə durbini ilə düşmənin fəaliyyətlərini izlədim. O gündən bəri hər dəfə əzadarlığa gedəndə və namaz qılanda Hüseynin sözləri yadıma düşür, düşünürəm ki, birdən bunlar dil vərdişi olar.

Məhəmmədə baxır, həvəslə xatirələrini dinləyirdim. Xüsusi təyinatlı uşaqların, doğrudan da, başqa aurası var. Bundan böyük təvazökarlıq ola bilərmi; mən ona öz qəhrəmanlıqlarından danışmasını istəyirəm, o isə deyir ki, ilk dəfə əməliyyata gedəndə qorxudan ayaqlarım əsirdi.

Polkovnik Kazimi səngərdən çıxdı, uzaqdan məni səsləyib:

- Seyid can, gedək? – dedi.

- Gedək.

kitaboxu.com

## Əxlaq dərsi

Polkovnik Kazimi, Salxordə, Əmudoxt və xüsusi təyinatlı uşaqların bir neçəsi ilə birlikdə Qumə zastavasına, oradan da artilleriya və texnika zastavalarına sarı yola düzəldik. Mən maşına minmək istəyəndə Qumə zastavasının komandiri olan Firuzabadi israrla bildirdi ki, xüsusi avtomobillərin birinə - üstünə bir neçə uzun nazik anten quraşdırılmış

Toyotaya əyləşim. O vaxtacan buna fikir verməmişdim. Firuzabadinin israrını görəndə isə soruşdum:

- Axı maşınların nə fərqi var ki, ona minməyimi istəyirsiniz?

- Fərqi var, hacı ağa, - deyə Firuzabadi gülümsədi. – Siz bu maşına əyləşin, cənab polkovnik fərqini sizə deyər.

Özü gedib başqa maşında oturdu. Növbəti dayanacağımız olan artilleriya zastavasına qədər bizi müşayiət edəcəkdi.

Polkovniklə birgə Firuzabadinin göstərdiyi maşına oturduq.

- Firuzabadi doğru deyir, - deyə polkovnik bildirdi, - bu maşınla o maşının fərqi var.

- Nə fərqi?

- Düzdür, siz öz iradə və cəsarətinizlə bizə yoldaşlıq edirsiniz, amma biz də qonaqpərvərlik adətlərini unutmamalıyıq. Hal-hazırda sizin həyatınız bizimçün bütün uşaqların həyatından önəmlidir.

- Çox sağ olun, amma bunun hansı maşına oturmağımla nə əlaqəsi var?

Polkovnik yolun sağında bir bulağı göstərib dedi:

- PJAK qüvvələri bizimkilərlə döyüşdə öldürülmüş bəzi döyüşçülərini bu bulağın kənarında dəfn ediblər. Bir neçə il əvvəl korpus qüvvələri sudaşıyan qoşqu ilə

kitaboxu.com

bulaqdan su götürüb qayıdanda onlar da qarşıdakı təpənin başında gözləyirmişlər. Maşın bu yolda quraşdırdıqları bombaya çatanda pultla bombanı partlatmışdılar. Düzdür, bomba maşın keçəndən sonra partlamışdı, amma arxası qopmuş və maşın çevrilmişdi. Bu hadisədə uşaqların birini partlayış dalğası tutdu, digərləri də yaralandılar.

- Bunların mənim minmək istədiyim maşınla nəsə əlaqəsi vardı?

- Bu maşında mina radarı var, yolumuzda mina və ya bomba olsa, siqnalla bildirəcək.

- Aha! Yəqin ki, bu uzun antenlər ondan ötəridir, eləmi?

- Bəli. Antenlər həmin sistemə qoşulub, minaya yaxınlaşanda sürücüyə təhlükə xəbərdarlığı verilir.

Artilleriya zastavasına çatanda cənab Firuzabadinin və polkovnik Kaziminin israrı ilə qərara gəldik ki, döyüşçülər önündə danışım. O biri zastavalar kimi bu zastava da dəmir dirəklər, daşlar, torpaq və ya daş dolu çuvallarla dağın üstündə tikilmiş səngər və otaqlardan ibarətdi. Belə bir yerdə xidmət edən pasdar və əsgərlər önündə çıxış etməyə, həqiqətən, xəcalət çəkirdim, amma çarə yox idi.

Şəxsi heyətin önündə dayanıb dedim:

"Bismillahir-Rəhmanir-Rəhim.

kitaboxu.com

Özləri əxlaq nümunəsi olan insanlara əxlaqdan danışmağa utanıram. Bunu bilin ki, mən sizdən əxlaq dərsi öyrənmək və şəhərimə qayıdıb həmkarlarıma, yerlilərimə və bütün xalqıma söyləmək üçün buradayam.

Otuz il öncə Səddam şəhərlərimizi və günahsız insanlarımızı qırıcılarla bombalayıb qətliam edəndə, xatırlayıram ki, Qumun tacirləri və varlı adamları da mağazalarını bağlayıb təhlükəsiz bölgələrə sığınırdılar. Niyə? Çünki mağaza, iqtisadiyyat və ticarət onda dəyərlidir ki, adamın canı, namusu və sərvəti təhlükədə olmasın. Heç bir ağıllı adam təhlükəsizliyin olmadığı bir cənnətə də ayaq basmaz. Bəlkə, məhz buna görə Allah Quranın Duxan surəsində təqvalılara cənnət, gül və bülbül vədi verməzdən qabaq oranın təhlükəsizliyinə zəmanət verir: "Təqvalılar təhlükəsiz bir yerdə olacaqlar".[1]

Sonra cənnət və bulaqlarından danışır. Maraqlıdır bilək ki, bu xüsusiyyətləri sadalayandan sonra yenə hər şeyin, hətta meyvə və yeməklərinin təhlükəsizliyi üzərində təkid göstərib buyurur: "Orada təhlükəsiz halda hər meyvədən istəyəcəklər".[2] Bu o deməkdir ki, cənnət hər cəhətdən təhlükəsizdir. Allahın bu ifadələri bu ilahi nemətin necə önəmli olduğunu göstərir.

---

[1] Duxan, 51.
[2] Duxan, 55.

kitaboxu.com

Bir müddət əvvəl bəzi dostlarla birgə bir yaylaq bölgəsinə getmişdik. İş elə alındı ki, gecəni orada dağda qalası olduq. Biz gecə, bəlkə də, canavar, kaftar və digər vəhşi heyvanlardan qorxurduq, amma canavar və kaftardan da yırtıcı olan İŞİD, PJAK və digər terrorçu düşmənlərdən qorxmaq ağlımıza da gəlmirdi. Təhlükəsizlik budur. Bu təhlükəsizliyi təmin etməyin çox ağır qarşılığı vardır...

Mənim əzizlərim! Özünüzlə qürur duyun və bu qəhrəmanlığın mükafatını yalnız Allahdan istəyin. Sizin mükafatınızı verməyə Haqq-taaladan başqa heç kimin gücü yetməz!

Allahın salamı, rəhməti və bərəkəti olsun sizə!”

kitaboxu.com

# Səkkizinci fəsil

## Əgər İmam Mehdi içəri girsə

Həzrət Zəhranın gündəlik duaları necə gözəldir! Özü də hər mühitə uyğun rəngə boyana bilir. Burada, ölkəmin sərhədçiləri arasında da çox gözəl və fərqli görünür. Mühafizə və keşik məsələləri vətəni düşməndən qorumaq üçün də zəruri məsələlərdir; yuxudan uzaq gözlə keşik çəkmək, məğlubedilməz qüvvəylə qorumaq, sirr və məlumatları gizli saxlamaq. İlahi! Həm bu amillərlə bizi qoru, həm də pasdarlarımıza bunları verməklə ölkəmizin keşiyini çəkməkdə bizə kömək et! Yuxunu dəf etmiş gözlə, bizə bəxş etdiyi yenilməz qüdrətlə və tərəfimizdən qorunan sirlərlə izzət və iqtidar zirvələrində durduqda da bu qüdrəti bizim təkəbbür səbəbimiz etmə, Özünə və övliyalarına tabelik səbəbi et! Amin!

Günorta namazlarını qılandan sonra istirahət etmək üçün hərə bir tərəfdə uzandı. Bir neçə dəqiqədən sonra

kitaboxu.com

koridordan səs-küy gəldi. Nə baş verdiyini öyrənmək üçün bayıra çıxdım. Bir dəfə Piranşəhrdə, bir dəfə də bu zastavada gördüyüm, nisbətən alçaq boyu və rəngli gözləri olan bir pasdar mayorla ucadan və sərt tonla danışırdı. Bu şəkildə etiraz etdiyinə görə düşündüm ki, yəqin, onun rəisidir.

Mayorun soyuqqanlı xarakteri var. Bilmirəm, aralarında necə münasibət vardısa, belə bir şəraitdə dostların biri kameranı götürüb onların danışığını çəkirdi. Nə üstə mübahisə etdiklərini bilmək üçün Nadirə yaxınlaşdım. Söhbətləri bitəndən sonra mayoru qucaqlayıb sağollaşdı. Qapıya çatanda mayor dedi:

- Mahmud can, iftara qal.

O isə təşəkkür edib getdi.

- Bu adam kimdir? – deyə Nadirdən soruşdum. – Mayorla niyə belə sərt danışır?

Nadir gülüb dedi:

- O, Mahmud Radmehrdir. Xarakteri belədir; çılğın. Çox yaxşı və dindar uşaqdır, ərəb və ingilis dillərini mükəmməl bilir. Farsca da ana dilidir. Quranın təfsirini də yaxşı bilir. Bütün bunlardan əlavə, mənim üçün həm də bir örnəkdir.

- Necə örnək?

- Nümunələr çoxdur, birini sizə deyim: Bir dəfə diviziyada gecə növbətçisi idim. Mahmud mənə zəng edib dedi ki, uşağı xəstədir və posta gələ bilməyəcək.

kitaboxu.com

Uşağını xəstəxanaya aparsın deyə onun üçün məzuniyyət yazmamı istəyirdi. Mən elə də etdim. Lakin növbəsi çatanda toz-torpaq içində posta gəldi. Təəccüblə soruşdum ki, niyə gəldin, bəyəm uşağın xəstə deyildi? Uşaqların bir neçəsi də oradaydı. Başını bulayıb dedi ki, sonra deyərəm. Onların yanında demək istəmirdi. Adam azalanda yenə dedim ki, axı sənə məzuniyyət yazmışam, niyə gəldin? Deyəsən, hövsələsi olmadığına görə cavab vermək istəmirdi. Mənim çox maraqlandığımı görəndən sonra isə dedi: "Uşağı xəstəxanaya aparmaq üçün evə gedəndə gördüm ki, yoldaşım atasıgilə gedib. Zəng edib bildirdim ki, hazırlaşsın, birlikdə uşağı həkimə aparaq. Dedi ki, daha ehtiyac yoxdur; səhərdən uşağa bitki qaynadıb verirdim, indi yaxşıdır. Beləliklə, mən də işə qayıtdım. Soruşdum ki, bəs üst-başın niyə belə toz içindədir? Dedi: "Uşaq yaxşı olduğuna və mən də məzuniyyət aldığıma görə düşündüm ki, hamamın kafel işini tamamlayım. Tez suvaq hazırlayıb kafelləri vurmağa başladım. Hələ bir cərgə vurmamış bir anlığa özümə gəldim, dedim ki, Mahmud, indi İmam Mehdi içəri girib: "Nə edirsən?" – deyə soruşsa, nə cavab verəcəksən?! İndi vəzifən postda olmaqdır, məzuniyyəti də uşağın xəstəliyi üçün almışdın, kafel vurmaq üçün yox. İndi ki uşaq xəstəxanalıq olmadı, hərbi hissəyə qayıtmalısan. Əgər bu vəziyyətdə ölsən,



kitaboxu.com

Allaha nə cavab verəcəksən? Bu işlə özümə, Allaha və xalqa zülm etdiyimi anlayıb tez suvağı kənara tökdüm və özümü bura yetirdim. Üz-başımı yumağa vaxt olmadığı üçün belə gəldim.

Üzümü Nadirə tutub:

- Danışıq tərzindən çox ciddi görünürdü, - dedim.

- Mahmudun o biri üzünü görməmisən. Deyib-gülməyə başlayanda onun ciddi üzünün də olduğunu düşünməzsən. Çox xoşsöhbət və zarafatcıldır. Çoxları zarafatcıllığına görə ona irad bildirirlər.

- Doğrudan, onun rütbəsi nədir? Mayorla belə danışdığına görə, yəqin ki, daha yüksək olar.

- Radmehrin rütbəsini soruşma. 2011-ci ildə həyata keçirdiyimiz mürəkkəb əməliyyatları dəqiq planlama səbəbindən rütbəsini yüksəltmək üçün Tehrandan məktub gəlmişdi. O isə məktubu cırıb atdı. O deyir ki, mənim rəisim yalnız vəzifə borcumdur. Buna görə də, üzərində vəzifə hiss etdikdə hamıyla belə danışır, hətta generalla da. Yaşı az olsa da, o, gələcəkdə diviziya komandirliyinə namizəd sayılan azsaylı uşaqlardandır. Bir neçə dəfə Tehrandan onu yüksək komandirlik təlimlərinə aparmağa gəliblər, amma nə ediblərsə, razılaşmayıb.

- Niyə?

- Bu, hamının arzusudur, amma Radmehr meyarla hərəkət edir. O deyir ki, məndən daha bacarıqlı və

kitaboxu.com

layiqli insanların olduğu yerdə belə bir vəzifəni qəbul etməyim xəyanətdir; həm özümə, həm layiqli şəxslərə, həm də ən önəmlisi Allaha. Düşünür ki, indiki postumda vəzifəmi daha yaxşı yerinə yetirə bilirəm, nəinki komandir postunda. O, belə konstruktiv fikirləri ilə həm də diviziya döyüşçülərinin məsləhətçisidir.

- Nə maraqlı adamdır! Deyirdin həm də ustalıq edir?

- Bəli, atasından öyrənib. Tətil günlərində imkansız adamlar üçün havayı işləyir. Özü deyir ki, havayı deyil, İmam Mehdinin (ə) salamatlığı işləyirəm və bu, kiçik qarşılıq deyil.

- Bunları niyə tez demədin, onu belə buraxmazdım! Yadında qalsın; nə vaxt bura gəlsə, mənə xəbər ver, onunla danışım.

- Adətən qərargahda olur, arabir zastavalara baş çəkir. Baş üstə, nə vaxt gəlsə, deyərəm.

## Ruhani siyasətləri

Məhəmmədhüseyn məddahdır, hövzə adamlarına xas görkəminə görə ruhani olmayanda pişnamazlıq edir. Bir dəfə yaxasız ruhani köynəyimi yuyub sərmişdim, götürmək yadımdan çıxmışdı. Mənə mesaj yazıb icazə aldı, mən olmayanda 2 saylı zastavada ruhanilik etdi. Hər şey bir yana, görkəminə çox yaraşır.

Axşam bir yerə toplaşanda dostlar israr etdilər ki, rövzə oxuyum. Mən dedim:

kitaboxu.com

- Öz aranızda Məhəmmədhüseyn kimi yaxşı bir məddah olduğu halda mənə növbə çatmaz.

İşıqları söndürdülər və məddah mərsiyə oxumağa başladı. Məhəmmədhüseyn bir atlının gəlib üzünün qanını silməsini gözləyən yaralı döyüşçünü təsvir etdi. O, çox yaxşı oxuyurdu. Üçayaq üzərinə bərkidilmiş bir kamera məclisin videosunu qeyd edirdi.

Diqqətimi bir neçə məsələ cəlb etdi: Biri budur ki, bu axşam ramazanın 15-ci gecəsi və İmam Həsən Müctəbanın (ə) doğum axşamıdır. İkincisi budur ki, bu dostlar mənim xütbələrim üçün də kamera və dəm-dəsgah gətirmirlər; bəs necə olur ki, bu axşam qaranlıqda kameranın işığı mənim oturduğum yerə tuşlanıb? Bu səbəblərdən məclisdən və baş verənlərdən bir az şübhələndim. Başımı aşağı saldığım halda məclisdən qabaq verilən bir parça yerli şirin çörəyi yeməyə başladım. Qəmli halda şirin çörəyi dişləyirdim və ağzım tərpənirdi.

Rövzə bu yerinə çatdı ki, bir nəfər atdan enib yaralının başını qaldırır. Yaralı soruşur ki, ağa can, siz kimsiniz, şəhadət anımda başımı qucaqladınız? Bu sualın cavabında isə qəribə hadisələr baş verdi: Birdən işıqlar yandı, Mənfi fikirli cənab bir çubuğu at kimi ayaqlarının arasına qoyub otağın ortasına atıldı və qışqırdı:

- Mən Zorroyam! Mən Zorroyam!

Sonra isə hamı bir ağızdan dedi:

- Mən Zorroyam! Mən Zorroyam!

Görünən buydu ki, məndən başqa hamı bu senaridən xəbərdar idi və bu dastan hacı ağanı ələ salmaq üçün uydurulmuşdu.

Uşaqlar kameranı götürüb məclis boyu mənim hallarımı araşdırmağa başladılar. Axırda Nadir dedi:

- Vay-vay! Sanki ələ salınan biz olmuşuq. Məclisin əvvəlindən axırına qədər hacı ağanın ağzı işləyir. Heç elə bil, Hüseyn rövzə oxumur.

- Amma yox, hacı çox qəmlidir, - deyə Zeynal bildirdi.

Mənfi fikirli cənab ona cavab verdi:

- Yox, əşi, bu da bir siyasətdir; həqiqi məclis olsa, desin ki, qəmliyəm, lağlağı olsa, desin ki, ağzım işləyir. Bu ruhanilərdə siyasət olmasaydı, qırx il hakimiyyətdə qala bilməzdilər ki!

kitaboxu.com

# Doqquzuncu fəsil

## Komandir postda

Qarovul əsgərin halsız görkəmi, qızarmış üzü və yorğun gözləri xəstələndiyini və qızdırması olduğunu göstərirdi. Şəhid Tusi adına taktika qərargahının komandir müavini, hər bir neçə gündən bir zastavalara baxış keçirən polkovnik Kazimi əsgərin görkəmini görüb ona yaxınlaşdı, əlini alnına qoyub soruşdu:

- Sən xəstələnmisən? Deyəsən, qızdırman var.

- Bəli, cənab polkovnik, - əsgər hərbi salam verəndən sonra halsız vəziyyətdə dedi. – Dünəndən üşüdürəm. Dərman içmişəm, amma təsir etməyib.

- Niyə vəziyyətini bildirməmisən ki, sənin yerinə başqa birini göndərsinlər?

- Cənab polkovnik, uşaqlar gündə bir neçə dəfə naryadda olurlar. Mənim yerimə də çıxsalar, onlarda can qalmaz.

kitaboxu.com

- Mən sənin yerinə keşik çəkərəm, - deyə polkovnik ratsiya və silahı əsgərdən aldı, - get, istirahət elə.

Əsgər məəttəl qalıb gözlərini komandirinə dikmişdi, nə edəcəyini bilmirdi. Komandir əsgərin təəccübləndiyini görüb kazarmanı göstərdi:

- Sənə deyirəm, get, istirahət elə. Nə dayanıb baxırsan?

Polkovnikin günəş altında postda dayanmasını qəbul edə bilməyən əsgər, doğrudan da, çaş-baş qalmış, dili-ağzı tutulmuşdu. Özünü toparlayıb dedi:

- Amma... komandir... axı siz...

Polkovnik yenə ciddi şəkildə, amma bu dəfə daha sərt və amiranə tərzdə dedi:

- Komandirin əmrinə tabe olmağı sənə öyrətməyiblər?! Mən sənə əmr edirəm ki, get kazarmaya, istirahət elə. Növbəti qarovula da deyərsən, vaxtında gəlib postu təhvil alsın.

Əsgər gözlərini komandirinin şəfqət dolu üzündən çəkmək istəmirdi. O, arxaya baxa-baxa gedir, sükut və razılığı ilə ona təşəkkür edirdi. Nə baş verdiyini anlayan Adillə Nadir yaxınlaşmaq istəyəndə polkovnik uzaqdan işarə ilə bildirdi ki, gedib öz işləri ilə məşğul olsunlar. Mən də polkovnikin bir-iki saat postda olacağını görüb fürsətdən istifadə etmək qərarına gəldim və onunla söhbət etməyə yollandım.

kitaboxu.com

# Bu şəhərdə qəribəm

Bu gün cümə axşamı, 15 ramazandır. Qumda olanda həyat yoldaşım adətən ramazan ayının ikinci cümə axşamında xurma paylayaraq, ya da iftar süfrəsi açaraq bu günlərdə şəhid olmuş atası Mənsur Hasilini yad edir. Çox ürəyim istəyirdi ki, mən də şəhərə yaxın olub bir axşam uşaqlara iftar verə biləydim. İki gün öncədən xurma, külçə şirniyyatı və meyvə şirəsi payımı saxlamışam. Onları bugünkülərlə birlikdə şəhid qayınatamın xatirəsinə əsgərlərə paylayacağam.

Xudaya! Özün bilirsən ki, bu işlər bəhanədir ki, onlar da bizi yada salsınlar və Sənin yanında bizə şəfaət etsinlər.

Qayınanam deyirdi:

“Mənsur cavan vaxtı gözəl-göyçək oğlan idi, istədiyi qızı seçə bilərdi, amma mənə elçi gəldi. Mən dul idim, birinci ərimdən iki balaca qızım vardı. Onlar böyüyənə qədər ailə qurmaq istəmirdim. Mənsur isə düz bir il gəlib-getdi. Axırda əl çəkmədiyini görüb ürəyimin sözünü ona dedim: “Mən bu yetim uşaqlardan ötrü narahatam. Əgər mənimlə evlənməkdə bu qədər israrlısansa, gərək zamin gətirəsən”.

Dəstəmaz alıb üzüqibləyə dayandı, iki rükət namaz qıldı, sonra Quranı öpüb dedi: “Mən bu şəhərdə qəribəm, zaminim yoxdur. Ancaq Allahın kəlamı olan bu Qurana and içirəm ki, bu uşaqlara atalıqdan başqa

kitaboxu.com

bir şey etməyəcəyəm, - göz yaşlarından bütün üzü islanmış halda sözünə davam etdi: - Allahdan və Onun kəlamından üstün zaminim yoxdur. Əgər razısansa, ya Əli!”

Onunla evləndik. Mənsur pərvanə kimi qızların başına dolanırdı. Allah tərəfi, onlara atalıq üçün əlindən gələni əsirgəmədi. Bir ildən sonra Məhəmmədə hamilə oldum. Xəstəxanadan evə buraxıldığım gün iki qızım da göyöskürək tutdu. Onlar birgünlük uşağa yaxınlaşa bilməzdilər. Bunu onlara tapşırmışdım, lakin böyük qızım gəlib sevincək Məhəmmədi öpdü, mən də əlimin arxasıyla belinə vurdum. Bunu görən kimi Mənsurun üzü qızardı, sanki qəlbində qiyamət qopdu. Mənə bir söz demədən dəstəmaz aldı, qızları dizləri üstə oturtdu, Məhəmmədin beşiyini üzüqibləyə qoyub əlini göyə qaldırdı və dedi: “İlahi! Səni izzət və cəlalına and verirəm, əgər bu uşaq gəlişi ilə bu qızlarımdan əziz olacaqsa və mən vəzifəmi yerinə yetirməyəcəyəmsə, Səndən istəyirəm ki, günü bu gün onu məndən alasan. Çünki bu acı mənə Sənin hüzurunda xəcalətli olmaqdan yaxşıdır. İlahi! Mən Sənin və kitabının zaminliyi ilə bu iki yetimin qəyyumluğunu öhdəmə götürmüşəm. Elə et ki, Səndən xəcalətli olmayım!”

O gündən sonra mən də Mənsurun yanında uşaqlara güldən ağır söz deməyə cürət etmədim”.

kitaboxu.com

Şübhəsiz ki, bu mərifət yalnız mövla Əlidə və o cənabın ardıcıllarında ola bilər. Mövlası Əmirəlmömininin mərifətinə tabe olmaq istəyən heç kim başqa cür ola da bilməz; Allahı özündən, hətta canının parçasından da çox sevər. Burada Quranın bu ayəsi necə də gözəl təfsir olunur: "İman edənlərin Allaha sevgisi daha güclüdür".[1]

Ata can, kaş sağ olaydın, Quranı yuxarı qaldırıb Allahdan xəcalətli olmamağı istədiyin əllərini öpə biləydim!

Əziz qayınatam Şəhid Mənsur Hasili belə bir mərifətlə 1988-ci ildə mübarək ramazan ayında Şələmçədə şəhadət şərbətini içib ağası Əmirəlmöminin Əliyə (ə) qovuşdu.

kitaboxu.com

---

[1] Bəqərə, 165.

# Onuncu fəsil

## Ezamiyyət haqqı

Ezamiyyət üçün verilən pulun bu bölgədə işin ağırlığına uyğun olmaması haqda qızğın müzakirə gedirdi. Dostların biri dedi:

- Bu ezamiyyət qarşılığında bizə verilən pulun azlığı bir yana, amma belə çətin və təhlükəli bölgələrdə xidmət etdiyimizi biləndə çoxları: “Pulunu alırsınız da!” - deyirlər ha, bax, onda adam yanıb-tökülür. Görəsən, özləri bir neçə dəfə artıq pula görə hətta bir saat da düşmənin açıq hədəfində dayana bilərlər?!

Sübh namazını qılandan sonra dostların birindən Quran istədim, Səff surəsinin 10-12-ci ayələrini oxuyub şərh etməyə başladım:

- “Ey iman gətirənlər! Sizə elə bir ticarət göstərimmi ki, sizi şiddətli əzabdan xilas etsin?” Burada Allah möminlərlə danışır, onlara elə bir ticarət təklif edir ki,

kitaboxu.com

böyük qazancından əlavə, onları şiddətli əzabdan da xilas edir. O, bu təklifi bir sual şəklində irəli sürür.

Gözlərimi Qurandan çəkib camaat namazı cərgələrində oturmuş dostlara baxdım:

- Sual: Bu necə təklifdir ki, qəbul etməsək, şiddətli əzaba düçar olacağıq? Sanki Allah bu məqsədyönlü təklifi ilə bizə bildirmək istəyir ki, ya Mənimlə bu ticarətə girəcəksiniz, ya da əzabla üzləşəcəksiniz. Bu, təhdid, inhisarçılıq və güc nümayişidir, yoxsa yaxşı bir təklif? Ya Mənimlə alış-veriş, ya da əzab – seçim sizindir!

Gülüb üzüyümü barmağımdan çıxardım, üzümü dostlara tutub dedim:

- Bu gün bir problemə görə bazara gedib bu üzüyü satmağa məcbur oluram. İlk olaraq qarşıma təcrübəli bir dəllal çıxır və mən bunu on min tümənə satıram. Əvvəldə elə bilirəm ki, yaxşı pul almışam. Amma qayıdanda bir dostum cibindən bir milyon tümənlik bir çek çıxarıb deyir ki, üzüyünü bu qiymətə almağa gəlmişəm.

Dostumun təklifini eşidəndə başıma nə gəlir? Üzüyü on min tümənə satdığıma görə bütün içim yanır, ya yox? Üzüyümü geri almaq üçün od üstündəki üzərlik kimi atılıb-düşürəm, ya yox? Bu, şiddətli əzabdır, ya yox? Şiddətli əzab yalnız üzü üstə cəhənnəm oduna atılmaqdan ibarət deyil ki! Hesab günündə özümüzü və



kitaboxu.com

sərvətimizi nə qədər ucuz və dəyərsiz satdığımızı, Allahın onları necə yüksək məbləğə almaq istədiyini bilmək elə şiddətli əzabdır. Lakin Allah alış-verişdən sonra peyda olub: “Mənə satsaydın, çox baha qiymətə alardım” – deyən dost kimi deyil. O, bütün müştəri və dəllallardan qabaq təklifini verib buyurur ki, ixtiyar səninindir, amma diqqətli ol, Məndən başqasına satsan, şiddətli əzabla üzləşəcəksən.

Allahın təklifi budur: “Allaha və Onun Peyğəmbərinə iman gətirəsiniz, Allah yolunda malınız və canınızla vuruşasınız”. Bu, əvvəldə bizim, yəni satıcının vəzifələrini müəyyən edən bir alqı-satqı müqaviləsi kimidir; birinci mərhələdə insanın varlığını dəyərləndirəndən sonra Allaha və elçisinə iman və sevgini bəyan edir, imandan sonra da əməl və cihada növbə gəlir, özü də təkcə mal və sərvətlə yox, həm də can və ömürlə. Bu, o deməkdir ki, Allah hər şeyimizə müştəridir. Birinci bəndin sonunda bu müqavilənin insana çox səmərəli olduğuna toxunur: “Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!”

Yenə başımı Quranın üstündən qaldırıb dedim:

- Növbəti sual: Bu alış-verişin bizə daha yaxşı və qazanclı olduğunu anlamaq üçün nəyi bilməliyik?

Ölüm qaçılmazdır. İnsan fani, Allah isə əbədidir. Hər bir sağlam ağıl təsdiq edir ki, bu fani can və mala əbədi həyat vermək bu dünyada faydasız dəfn

kitaboxu.com

olunmalarından, yaxud faydalarının az və bu dünya həddində olmasından yaxşıdır. Şiddətli əzab məsələsi də belə ola bilər: Əbədiləşdirə bildiyimiz bir məhsulu bu dünyada basdırırıq, orada isə çoxlarının onu nağdlaşdırdığını və qazanclarını aldıqlarını görəndə yanırıq.

Allah alqı-satqı müqaviləsinin davamında alıcı olaraq Öz vəzifələrini və ödənişi necə edəcəyini açıqlayır, dünyanı, fani can və malları əbədiyyətə calayır, müqaviləyə əməl etməyin nəticələrinə toxunur. Məsum olmayan heç bir insan ömründə bir günaha da düşmədiyini iddia edə bilməz. Günahkar adam da cənnətə girə bilməz. Allahın Öz vəzifələrində qeyd etdiyi birinci bənd budur: “Sizin günahlarınızı bağışlayar”. Əməl dəftəri silinəndə də cənnətə giriş icazəsi verilər. Allah təmizlənmiş insanın girəcəyi və möminlərin mükafatı olacaq cənnətin xüsusiyyətlərini də qeyd edir: “Sizi altından çaylar axan cənnətlərə və Ədn bağlarındakı gözəl saraylara daxil edər”. Bütün bu izahların sonunda bu qazancın çox böyük olduğunu bir daha vurğulayaraq buyurur: “Bu, böyük uğurdur!”

Quranı bağlayıb öpəndən sonra sözümə davam etdim:

- Siz əzizlər belə təhlükəli əməliyyat bölgəsinə gəlməklə xidmət naminə mal və canlarınızdan əl üzmüsünüz. Qurani-kərimin dediyi kimi, bu alış-

kitaboxu.com

verişdə gözümüz Allahdan qeyrisinin əlində və səxavətində olsa, Ondan başqa birindən ezamiyyət haqqı istəsək, bizi şiddətli əzabın gözlədiyinə şübhəmiz olmasın. Sağlam ağıl hökm edir ki, Allah tərəfindən belə bol qazanc verildiyi halda digərlərindən gözləntimizi kəsək. Əgər baxışımız belə olsa, kiminsə: "Pulunu da alırsınız! Ezamiyyət haqqını da alırsınız!" – deyən rişxəndli sözünə görə narahat olmarıq. Çünki onlar özləri anlamasalar da, bilmədən doğru deyirlər; çünki heç kim bu qədər ezamiyyət haqqı almır. Əgər məsələyə belə baxsaq, nəinki başqaları, hətta özümüz də özümüzə qarşı tələbkar olub deyərik ki, bəli, gəlirini də götürəcəyik. Nəticədə, camaatın sözü nəinki bizi yandırmaz, hətta bekar oturmayıb müqaviləmizə əməl etməyimizə motivasiya da olar.

kitaboxu.com

# On birinci fəsil

## Ən sakitləşdirici dərman

"Anamın xəstəliyi, yoldaşımın bel ağrıları və atamın qocalığı, həqiqətən, bütün əhvalımı alt-üst etmişdi. Hər gün bir xəstəxanada, hər saat bir klinikada xəstə növbəsindəydik. Bir iş bitməmiş başqa bir iş çıxırdı. Digər tərəfdən, ezamiyyətlər də həmişə pusqudaydı və bu qaçhaqovun ortasında hər an bizi boğa bilərdi. Bir dəfə yenə əlim yer-göydən üzülmüşdü, şikayətim Allaha qədər gedirdi. Eşitdim ki, iki dəfə infarkt olmuş anamın müalicəsini yarımçıq qoyub ezamiyyətə getməliyəm. Əsəbi halda, qapını döymədən komandirin otağına girdim, qapını da var gücümlə çırpıb bağladım, kiminlə və necə danışdığımın fərqində olmadan qışqırmağa başladım:

- Komandir şəxsi heyətini başa düşsə, şəxsi heyət onun üçün can da verər. Sən necə komandirsən ki, tabeliyində olanların nə çəkdiyini bilmirsən?!

kitaboxu.com

Şəhid Seyid Cəlal Həbibullahpur həmişəki soyuqqanlılığı və təbəssümü ilə mehriban şəkildə dedi:

- Məhəmməd can, ürəyin soyudu? Rahat oldun? Hələ ürəyində nəsə qalıbsa, mən qulluğundayam. Yox, bir şey qalmayıbsa, get, məzuniyyət vərəqəni gətir, imzalayım.

Elə ağır vəziyyətdə heç bir sakitləşdirici dərman mənə seyidin təbəssümündən yaxşı təsir bağışlaya bilməzdi".

Məhəmməd şəhid komandiri Seyid Cəlal Həbibullahdan danışıb hamını kövrəltdi. Əhli-beyt hərəminin müdafiəsi zamanı şəhid olmuş komandirlərini bütün uşaqlar sevirdilər.

Suriya müharibəsindən və təkfirçi qruplaşmalarla döyüşlərdən söz düşəndə həmişə Quran məclislərində iştirak edən cənab Hadipur dedi:

- Qardaşlar! İndi ki şəhidlərdən danışıldı, yaxşı olar ki, Quran oxumağı yaddan çıxarmayaq, öz ruhumuzu təmizləmək və onların məqamını yüksəltmək üçün olsa da, şam azanından qabaq bir neçə səhifə oxuyaq. Üstəlik, bu gecə on doqquzuncu gecədir və indidən qədr gecəsinə hazırlaşmaq lazımdır.

Dostlar dəstəmaz alıb vəhy sözünə könül vermək üçün ayağa qalxdılar. Mən pilləkəndən enəndə söhbətin ortasından sualı olduğunu hiss etdiyim bir cavan arxamca gəldi, qollarımı çırmayanda dedi:

kitaboxu.com

- Hacı ağa, bir sual!

- Buyur, eşidirəm.

- Bildiyiniz kimi, pasdar və bəsici uşaqların çoxu Suriyaya gedib seyidlərin bibisinin məqbərəsini müdafiə etmək istəyirlər. Bu yolda çoxlu şəhid də vermişik.

Bu girişin nə üçün olduğunu bilməyib dedim:

- Nə olsun?

- Mən həm getmək istəyirəm, həm də bir problemim var.

- Nə problemi?

- Suriyadan və hərəm müdafiəsindən söz düşəndə yoldaşım, ailəm, xüsusən də anam qorxub yalvarır ki, getməyim. Təkfirçilərin adam öldürmək tərzləri və baş kəsmələri internetdə yayılandan sonra ağlayıb yalvarır ki, sən Allah, getmə, məndə belə səhnələri görməyə taqət yoxdur, bizə yazığın gəlmir, heç olmasa, uşağına yazığın gəlsin.

- Sən nə cavab verirsən?

- Heç nə; deyirəm ki, yaxşı, amma nə edəcəyimi bilmirəm. Bir tərəfdən görürəm ki, mənim və mənim kimilərin getməməsi bir ovuc terrorçu və caninin Əhli-beyt hərəminə əl uzatması deməkdir; bir tərəfdən də anamın yalvarışları ilə qarşı-qarşıyayam. Qərara gəlmişəm ki, gedim, amma hara getdiyimi onlara

kitaboxu.com

deməyim. Uzaqbaşı deyəcəyəm ki, ezamiyyətə gedirəm.

- Bəs şəhid olsan, necə olacaq? Birdən səni ən faciəli şəkildə şəhid edib şəklini ailənə göndərsələr, necə olar? O yazıqların nə çəkəcəyini düşünürsən?!

- Mənim də sualım budur, - deyə duruxdu, sonra qaşlarını düyünləyib təəccüblə əlavə etdi: - Bağışlayın, başa düşmədim; yəni deyirsiniz ki, getməyim?

- Mən demədim getmə. Biz hər zaman şəraitimizə uyğun olaraq ən əhəmiyyətli işi görməliyik. Əgər bu nəticəyə gəlmisən ki, bu, sənin ən əhəmiyyətli işindir, onda getməlisən, amma yenə də dediyin şəkildə deyil. Biz İmam Hüseynin (ə) qəhrəmanlıq və şəhadətindən yalnız şəhadəti öyrənməli deyilik. Bundan əlavə ailələrimizi də hazırlamalıyıq. Həzrət Zeynəb İmam Hüseynin (ə) şəhadətinə hazır olmalıdır ki, onun qızıl qanı yerdə qalmasın. Eşitməmisən ki, Zeynəb olmasaydı, Kərbəla Kərbəlada qalardı?! Kərbəlada həzrət Zeynəbin rolu İmam Hüseynin (ə) rolundan kiçik deyildi. Bu məsələ təkcə həzrət Zeynəblə də bitmir. Qaniçən düşmən Ümm Vəhəbi ruhdan salmaq üçün oğlunun başını onun önünə atanda nəinki sarsılmadı, hətta o başı Ömər Sədin qoşununun önünə atıb dedi ki, biz Allah yolunda verdiklərimizi geri almırıq! Bundan böyük əzəmət ola bilər?! Bundan böyük mənəvi güc ola bilər ki, düşmənin təbliğatından

kitaboxu.com

tam da özünə qarşı istifadə edəsən və bu yolla onu zəiflədəsən?! Sən də buradan, həm gündəlik həyat əsnasında, həm də ezamiyyətlərdə, imamların, həzrət Zəhranın (ə), həzrət Zeynəbin, Kərbəla səhrasında olmuş digər qadınların, habelə bu gün öz cəmiyyətimizdə olan və şəhidlərdən sonra həyat yükünü təkbaşına daşıyan şəhid xanımlarının həyatlarından örnəklər göstərərək ananı və həyat yoldaşını incəliklə bu ilahi əmanəti daşımağa hazırlamalısan. Çarəsiz bir qadını hazırlığı olmadan fakt qarşısında qoymaq düzgün deyil. Gərək sənin qəfil şəhadət xəbərini eşidib sarsılmasın, havalanmasın. Mən bu bölgəyə gələndə yoldaşım buranın təhlükəli olduğunu bilirdi, amma bununla kifayətlənməyib maddi məsələlər, borclar və ölümdən sonrakı digər işlər barədə vəsiyyətlərimi şifahi şəkildə bildirdim. Ondakı hazırlığı görəndən sonra, qarşı çıxmaq ehtimalı olsa da, bu səfərə hazırlaşdım.

Qiraət məclisi, namaz və iftardan sonra qədr gecəsinə hazırlaşdıq. Bu gecə naryadları elə tənzim etmişdilər ki, hər kəs dua və moizə mərasiminin ən azı bir hissəsində iştirak edə bilsin; baxmayaraq ki, postda olarkən də boş durmur, dua və zikr edir, Allahla mənəvi əlaqə qururdular.

kitaboxu.com

# On ikinci fəsil

## Vəzifə qalmaqdır, getmək yox

Uzun müddətdir yüksək qan təzyiqindən əziyyət çəkirəm. Burada 3000 metrdən artıq yüksəklikdə olduğuma görə halım bir az da pisləşib. Dərmanlarım bitib, almaq üçün komandir qalasına getməliyəm. Dostlara demişdim ki, kim maşınla qara qalaya getsə, məni də aparsın. Bir neçə gündür quru öskürəklərim çoxalıb, diviziyanın həkiminə müraciət etməliyəm. Qalaya gedib həm təzyiq dərmanı alaram, həm də bu öskürəklərdən qurtularam.

Nəhayət, dostlarla birlikdə qalaya doğru yola düzəldik. Uşaqlar işlərini görüncə mən də həkimlə görüşdüm və dərmanlarımı aldım. Oradakı uşaqlarla danışmaq üçün də yaxşı imkan yarandı. Pilləkəndən qalxanda Mahmud Radmehri görüb ucadan dedim:

- Salam, ağa Radmehr!

- Salam, - deyə başını çevirdi, qısa pauzadan sonra mənə yaxınlaşaraq əlavə etdi: - Necəsiniz, hacı ağa?

kitaboxu.com

Hal-əhval tutandan sonra məni dostlarının yanına aparıb onlarla tanış etdi. Görünür, məni Müslim taborundakı dostları sayəsində tanıyırmış. Oturandan sonra dostlarına dedi:

- Ağa seyid buradakı hadisələri yazır.

- Bəli, - gülüb dedim, - bir neçə gün əvvəl, siz zastavaya gələndə ağa Nadir sizin barənizdə danışdı. Kitabdakı hadisələrdən biri də sizin ustalığınız barədədir. Sizinlə daha ətraflı danışmaq istəyirdim. Çox şükür, bu gün gördüm.

- Nadir?! Ustalıq?! – təəccüblə dedi, üzündə sual cizgiləri bir az düşünəndən sonra xatırlayıb əlavə etdi:
- Aha, ustalıq! Nadirin də bunu car çəkmədiyi yer qalmayıb. Hacı ağa, siz Allah, heç olmasa, siz mənim keçəl başımdan əl çəkin!

Sıx saçına baxıb təəccüblə dedim:

- Verdiyiniz ilk məlumat yanlışdır. Şükür Allaha, saç-saqqalınız yerindədir. Növbəti sual budur ki, siz bənnalığı və kafel vurmağı da bacarırsınız, düzdür?

- Bizim ustalığımız da yaman yayılıb ha! – deyə gülməyə başladı. - Uşağımın məktəbindən yoldaşıma və indi də dostlarımın arasına qədər.

- İndi bu dediklərinizin təfərrüatını söyləyəcəksiniz, ya yox?

- Vallah, bunları deyirəmsə, yalnız üzünüzün bir qədər gülməsi üçündür. Bir gün oğlumun məktəbindən

kitaboxu.com

evə zəng edib dedilər ki, məktəbə gedək. Yoldaşıma dedim ki, mən gedə bilmərəm, sən get, gör nə deyirlər. Əslində, məni istəmişdilər, amma getmədim, yoldaşım getdi. Axşamüstü işdən qayıdanda gördüm ki, oğlum Əli çox ədəb-ərkanla oturub dərslərini yazır. Bildim ki, bu qədər ağıllı olduğuna görə, deməli, haradasa şuluqluq edib. Üstəlik, çox hörmətlə ayağa qalxıb namaz qılmasından danışdı. Artıq əmin oldum ki, çox şuluqluq edib.

Hamımız gülüşdük. Dedim:

- Sizin Əli, güman ki, mənim oğlumla yaşıddır. Siz danışdıqca onun hərəkətləri yadıma düşür.

Radmehr sözünə davam edib dedi:

- Məsələni yoldaşımdan öyrəndim. Məktəbin direktoru deyib ki, oğlunuz əlaçıdır. Bir neçə gün qabaq məktəb əlaçılarını sıranın önünə çıxarıb mükafatlandırmış və böyüyəndə nə olacaqlarını soruşubmuşlar. Növbə Əliyə çatanda mükafatı alıb və deyib ki, gələcəkdə bənna olmaq istəyirəm. Təəccüblə soruşublar ki, axı dərslərini yaxşı oxuyursan, bənna niyə? Əli belə cavab verib: "Çox adam dərs oxuyub, amma cəmiyyətə müsbət təsiri yoxdur. Həm dərs oxuyub, həm bənna olanda nə olar ki?!"

Yoldaşım bunları danışanda bir az fikrə getdim, bir müddət öncə bir dostumla danışanda eynilə bu sözləri

dediyimi xatırladım. Oğlum da həmin cümləni söyləmiş və direktor da bizi çağırmışdı.

- Deməli, bənnalıqla da ciddi məşğul olursunuz...

- Seyid can, dedim axı, keçəl başımdan əl çəkin. Siz də başqa sual tapmırsınız, həmin direktor kimi bu məsələyə ilişirsiniz.

- Bəli, hacı ağa, - deyə Mahmudun dostlarından biri onun yanından dilləndi, - bu ağa Radmehr bekar durmağa öyrəşməyib; ya hərbi hissədədir, ya ezamiyyətdədir, ya da ustalıq edir, - sonra əli ilə Radmehrin çiyninə vurub əlavə etdi: - Bunu da deyim ki, yoxsullar üçün pulsuz işləyir. Hərçənd, haçandır deyirəm ki, gəl, mənim üçün də işlə, amma gəlmir.

Radmehr etiraz olaraq dostunun əlini öz çiynindən götürüb dedi:

- Bəsdir; şitlik bəsdir. Sən danışmasan, kimsə deməz ki, laldır.

O da gülə-gülə üzünü mənə tutub:

- Hacı ağa, bu, hamıya işləyir, amma bizə çatanda dayanır. Bir qədər öncəyə qədər xanımı elə bilirmiş ki, korpusda fəhləlik edir. Bu adam əsla özünü düşünmür ki, rütbəsi-zadı artsın, - deyə yenə güldü, sonra isə Radmehrə baxıb əlavə etdi: - De də; hacı ağaya de ki, ailə-uşağın elə bilirmiş, korpusda fəhləbaşı işləyirsən.

Mən Radmehrə baxıb gülə-gülə dedim:

kitaboxu.com

- Sizin iş və fəaliyyətinizin çoxluğunu digər dostların dilindən də eşitmişdim. Bütün bu yorulmaz səyinizin arxasındakı səbəbi bilməyi çox istərdim.

Azan səsi gəldi. Bu gün camaat namazını burada qılmağa məcburuq. Uşaqlar qollarını çırmaya-çırmaya ayağa qalxdılar, aşağıya dəstəmaz almağa düşdülər. Mən də Mahmudla birgə qalxıb onun cavab verməsini gözlədim.

Yerindən qalxıb dedi:

- Əvvəla, bunlar boş-boş danışırlar ki, guya mən bu qədər fəal və işgüzaram. İkincisi, fərz edək, belə olsa da, məgər Quran demir ki, insana ancaq öz zəhməti qalar?![1]

Olduqca gözəl və məntiqli cavabdı.

Dəstəmaz almaq üçün aşağı düşdük. Dəstəmaz aldığım yerdə bir nəfərin məni süzdüyünü güzgüdən gördüm. Üzü tanış gəlirdi. Əvvəldə gözlərinə baxmaq istəmədim, amma gördüm ki, əl çəkmir. Başıma məsh çəkdim, ayağıma çəkmək üçün də ona sarı döndüm və söhbətə başlamaq üçün dedim:

- Mən sizi haradasa görmüşəm?

- Ola bilər, - deyə gülümsədi, qısa pauzadan sonra isə əlavə etdi: - Siz Şəhid Sədrlə qohumsunuz?

kitaboxu.com

---

[1] Nəcm, 39.

Gözlərini məndən çəkməməsinin səbəbini anladım, gülüb dedim:

- Bunu mənə çox deyirlər. Düzü, özüm çox da oxşarlıq görmürəm, amma bunu soruşan ilk adam deyilsiniz; güman ki, axırıncı da olmayacaqsınız.

Soyadı Ramazani idi. Soruşdum:

- Ağa Ramazani, siz hansı tabordansınız?

Ayağına məsh çəkdi, dəstəmazını bitirib mənimlə yola düzəldi, birlikdə namazxanaya tərəf getdiyimiz yerdə dedi:

- Mən Sabirin taborundanam.

- Onda Salxordəyə, Seyid Rzaya, Müştaqiyə və digər qardaşlara məndən salam söyləyərsiz.

- Aha, siz Hacı ağa Haşimisiniz. Salxordə və Məhəmməd sizdən çox danışır, - dedi, sonra isə əlimdəki dəftərə baxıb əlavə etdi: - Yəqin, bu da xatirələri yazdığınız dəftərdir.

- Bəli, həmin dəftərdir, - deyə dəftəri ona uzatdım.

Alıb içindəkilərə göz atandan sonra dedi:

- Güman ki, siz təhlükəsizlik və kəşfiyyat uşaqlarındansınız. Bunun içindəkiləri sizdən başqa heç kim anlaya bilməz.

- Yəni bu qədər pis xətlə yazılıb? – deyə güldüm.

- Yox, çox qısa və kodla yazılıb, bu kodları ancaq özünüz başa düşə bilərsiniz: Meyit namazı və üç nöqtə,

kitaboxu.com

Şəhid Cannisari və sual işarəsi, - dedi, sonra dəftəri mənə uzadıb əlavə etdi: - Düz deyirəm?

- Düzdür, - deyə dəftəri alıb cavab verdim. – Hadisələr yadımda qalsın deyə işarə qoymuşam.

Diviziyanın ruhanilərindən birinin imamlığı ilə camaat namazı qılınandan sonra cənab Ramazani ilə sağollaşdım və qərara gəldik ki, Hadi və digər dostlarla birgə öz zastavamıza gedək. Qaladan yola düzəldik. Cənab Ramazani mənə Sabirindəki xüsusi təyinatlı dostlarımı xatırlatmışdı. İmam Səccad (ə) adına komando taboru qərargaha yaxın idi. Hadiyə dedim:

- İndi ki maşınımız var, razısınızsa, Dəkəl zastavasındakı xüsusi təyinatlılara baş çəkək.

Yaxşı və sevimli ruhanilərdən olan Hacı Ümidi ramazan ayı münasibətilə bu tabora göndərilmişdi. Taborun uşaqları onunla çox dostlaşmışdılar.

Biz zastavaya çatanda xüsusi təyinatlı dostlar səngər düzəldirdilər. Hacı Ümidi də onlarla birgə işləyir, əlindəki bellə çuvalları doldururdu. Səmimi bir ab-hava vardı. Bizim gəlişimizə görə dostların fəaliyyəti bir qədər dayandı. Salamlaşıb hal-əhval tutandan sonra Hacı Ümidi ilə bir kənara çəkilib söhbət etməyə başladıq. Hacı uşaqların yüksək əhval-ruhiyyəsindən söz açır, Səhrayinin zarafatlarından, Şeyxülislaminin qorxmazlıq və fədakarlığından, onların yaxşılıqları, səmimi hörmətləri, alicənablıqları və qeyrətlərindən

kitaboxu.com

həvəslə danışırdı. O, bir anlıq dayanıb ayağa qalxdı, "səngərqayırma əməliyyatı" ilə məşğul olan uşaqlara baxdı, xüsusi təyinatlıların birini göstərib dedi:

- Ona bax; görürsən?

- Hansı... Səhrayini deyirsən?

Gülüb dedi:

- Seyid can, siz bu taborun uşaqlarını məndən yaxşı tanıyırsınız. Yox, o birini deyirəm – Hacızadəni.

Ayağa qalxdım, onun göstərdiyi yerə baxıb dedim:

- Bəli, görürəm.

- Bu kişi, həqiqətən, istənməlidir. Bu yaxınlarda uşağı olub. Yoldaşı xəstəxanaya aparılan gün çox narahat idi. Dayanmadan onunla gedənlərlə əlaqə saxlayır, soruşurdu ki, uşaq dünyaya gəldimi, yoldaşım necədir və s.

- Bəs burada nə edir?

- Mustafa – tabor komandirini deyirəm – ona çox dedi ki, gəl, məzuniyyət vərəqəni imzalayım, ailənin yanına get; oysa razılaşmayıb deyirdi ki, mənim vəzifəm qalmaqdır, getmək yox!

- Nə gözəl! Çox qeyrətli xarakterdir! Yenə de.

- Nə deyim?! Heç bilirsən ki, bu dağlarda, qayalarda yaşayan, vətən torpaqlarını canları bahasına müdafiə edən bu uşaqların bir çoxu korpusun rəsmi əməkdaşı da deyil?

kitaboxu.com

- Bəsic üzvləridir, eləmi? Bizim zastavada da belə qüvvələr var. Onların niyə burada xidmət etdikləri çoxlarının hesab-kitabına uyğun gəlmir.

- Bəli! Cənab Bəvvas belə döyüşçülərdəndir. Bilmirəm niyə əməliyyatlarda iştirakına icazə verilmir. Bəlkə də, bəsici olduğu üçündür. Amma dostları deyirdilər ki, komandiri o qədər bezdirib, axırda icazə alıb.

Uzaqdan Səhrayini gördüm, əl yelləyib dedim:

- Yorulmayasan, komando! Axırıncı qiymətin neçə olub?

Əlini qaldırdı, amma nə dediyimi eşitmədi. Alnının tərini silib:

- Seyid can, özün işləmirsən, heç olmasa, bizim şeyxi işdən eləmə, - dedi və güldü.

Hacı Ümidi ilə biz də gülüşdük. Ümidi dedi:

- Bizim bu Ruhullah çox zarafatcıldır. Hərdən səngərin üstündə oturub PJAK-çı qardaş və bacılara xütbə oxuyur. Sanki mikrofon arxasındaymış kimi üzünü PJAK-ın düşərgəsinə tutub moizə edir.

- De ki, taborun ruhanisidir də, - deyə güldüm.

Hacı ciddi görkəm alıb dedi:

- Bəli, həm də taborun ruhanisidir. Ruhani olmayanda camaat namazında o, pişnamaz olur.

İşləyən uşaqlara doğru getdik. Hacızadəyə dedim:

kitaboxu.com

- Mübarəkdir, qəhrəman! Balacanın adını nə qoydun? Oğlandır, qız?

Güldü, üzünü Hacı Ümidiyə tutub dedi:

- Deyəsən, ezamiyyətin sonuna qədər Həkim Əbülqasim Firdovsidən başqa hamı Məhəmmədtahanın doğulmasından xəbər tutacaq.

- Ay kişi, niyə ifadələri təhrif edirsən? – təəccüblə dedim. – Əslində, belədir: Xəbər tutmayan yeganə şəxs Xacə Hafiz Şirazidir.

- Hafiz niyə? – gülüb dedi. – O yazıqla nə işin var? Olmaya, yerlindir?

Bu zaman Hadi avtomobilə yaxınlaşıb dedi:

- Hacı ağa, gedək? Gün batır ha! Gec tərpənsək, qadağa vaxtına düşəcək, sonra da gecəni burada xüsusi təyinatlı qardaşların yanında qalmağa məcbur olacağıq.

İmam Səccad (ə) taborundakı dostlarla sağollaşıb Hacı İbrahim zastavasına sarı yola düzəldik.

kitaboxu.com

# On üçüncü fəsil

## Ağrı – ilahi nemət

Obaşdandan sonra o qədər güclü diş ağrısı başladı ki, gəl görəsən. Oruc olduğuma görə dərman içə bilmirdim. Həkim də yox idi ki, bir çarə qılsın. Alt və üst çənələrimi elə güclü ağrı bürümüşdü ki, problemin hansı dişimdə olduğunu da bilmirdim. Bir az məni rahatlatsın deyə dərman qutusunda keyidici sprey axtarırdım. Bunu da deyim ki, sprey əlimdəydi, güclü ağrı içində ona baxır, amma görmürdüm. Axırda da bu nəticəyə gəldim ki, keyidici spreyimiz yoxdur. Bu minvalla məyus halda saatlarla öldürücü diş ağrısına qatlandım. Ağrını qismən də olsa, azaltmaq üçün bir işlə məşğul olmaq, ya da nə isə düşünmək lazım idi. Nə yaxşı mövzuydu: diş ağrısı. Ağrı! Dəftər və qələmi götürüb yazmağa başladım:

"Ağrı adlı nemət

Heç indiyədək düşünmüşükmü, ağrı Allahın necə yaxşı nemətlərindən biridir?! Çünki ən təhlükəli və

kitaboxu.com

qorxunc xəstəliklər ağrı və əlamətsiz xəstəliklərdir. Xərçəngin müxtəlif növlərinin, simptomsuz gizli xəstəliklərin, elə özümün düçar olduğum bu qan təzyiqinin ağrısı olub adama işarə versəydi, əvvəldə həyəcan siqnalı versəydi, bu qədər adamı öldürməzdi. Çünki vaxtında bilinsə, çoxunu müalicə etmək və ya qarşısını almaq olar.

Bir dəfə həkimdən yüksək qan təzyiqinin əlamətlərini soruşanda dedi: "Qan təzyiqinin ən böyük əlaməti onun əlamətsizliyidir; yəni heç nə hiss eləmirsən, amma qan təzyiqin yüksəkdir, infarkt və ya ölümlə nəticələnə bilər".

İlahi! Bütün nemətlərinə görə Sənə şükür edirəm!"

Bu yolla diş ağrısını bir-iki saat azaltdım, amma bunun da bir həddi var. Saata baxıb ayağa qalxdım və zastavanın həyətinə çıxdım. Mayor Baqiri oradaydı. Yaxınlaşdım və söhbətə başladıq. Birlikdə gəzişdiyimiz yerdə yolunu zibil yandıran bir əsgərə sarı döndərdi, ötəri bir yoxlamadan sonra zibil torbalarının içindəkiləri göstərib dedi:

- Bunları niyə yandırırsınız?

- Komandir, bunlar axşamdan artıq qalanlardır. Bəs yandırmayıb nə edək?

Komandir cavab verdi:

- Əvvəla, xörək çəkəndə daha diqqətli olub hərəyə ehtiyacı qədər çəkmək lazımdır. Amma indi ki bu

kitaboxu.com

diqqət göstərilməyib, yandırmaq vacib deyil. Siz bu xörəkləri zastavadan bir qədər aralıda dərələrə tökə bilərsiniz. Burada bizə görə əziyyət çəkən heyvan və quşlar yeyər, əvəzinə bizdən Allaha şikayət etməzlər!

## Eşq təvafı

Günbatan çağı cənubdan soyuq külək əsir, əl-ayağımı dondururdu. Toyotanın daha çox, oturacağa bənzəyən böyük enli buferi üstündə oturub ön hissəsinə söykənəndə radiatorun istisi böyrümü tumarlamağa başladı. Maşının içindən gələn isti hava ilə də əllərimi qızdırdım.

Sabirin taborunun komandir müavini cənab Salxordə Əmudoxt, Seyid Məhəmməd, Meysəm, Səbbağ və digər bir neçə nəfərlə birgə məni görməyə gəlib. Çox sevimli uşaqlardır. Mənimlə tanış olandan bəri hər bir neçə gündən bir bizim zastavamıza baş çəkməli, halımı soruşmalıdırlar. Məhəmmədtağı Salxordə, həqiqətən, sevimli insandır. Onu birinci dəfə görən kimi dedim:

- Sən necə də şəhidsən!

Gülüb cavab verdi:

- Təşəkkür edirəm. Bunu çox deyirlər, amma mən nə qədər güzgüyə baxıramsa, bir şey görmürəm.

Aramızda çox səmimi dostluq yaranmışdı. Ondan, doğrudan da, şəhadət ətri gəlirdi. Təklif etdim ki,

kitaboxu.com

buferin üstündə oturub getdiyi ezamiyyətlərdən xatirələr söyləsin. Adəti üzrə, danışmayıb deyirdi:

- Axı nə deyim? Deməyə sözüm yoxdur axı!

Təəccüblə gözlərimi bərəldib dedim:

- Nə danışırsan, ay kişi?! Buranın hər şeyi sözdür. İndi burda bufer üstündə oturmağımız, zastavada oturmağa yerin olmaması, yayın ortasında soyuq və qar, sənin xüsusi təyinatlı olman, neçə gündür yatanda da paltarlarını əynindən çıxara bilməmən, gecə pusquda olman, indi buraya gəlmən – bunların hamısı deyiləsi sözlərdir. Necə yəni deməyə söz yoxdur?! Özündən, qəhrəmanlıqlarından, problemlərindən, ailəndən və başqa min cür mövzudan danışa bilərsən.

Gözlərini bir tərəfə dikdi, üzünə ağır qəm çökdü, təvazökarlıqla dedi:

- Özümdən danışmağa bir sözüm yoxdur, amma istiqamət komandirimiz Şəhid Seyid Cəlal Həbibullahpurdan danışa bilərəm. Olar?

- Əlbəttə olar! Şəhidləri yada salmaqdan yaxşı nə var ki?! Özün haqda dinləməyi də çox istəyirəm. İnşallah, özünə də növbə çatar.

- İnşallah.

- Nə inşallah?

- Mənə də növbənin çatması. Allah ağzından eşitsin! Bu, mənim arzumdur!

kitaboxu.com

- Ay kişi, nə arzusu?! Niyə hey kodla danışırsan? Mən dedim ki, inşallah, bir gün öz rəşadətlərindən də bizə danışarsan.

- Nə isə. Gəl, Şəhid Seyid Cəlal Həbibullahpurdan danışaq.

Salxordə Toyota avtomobilinin şüşəsinə yapışdırılmış şəkli göstərib dedi:

- Bu, Şəhid Həbibullahpurun şəklidir. Onun mərdliyindən nə qədər danışsam, azdır. Siması Allahı yada salırdı. Hətta hirslənməsi də ilahi tərzdə idi. Bir gün zastavanı müavinimə tapşırıb bir iş üçün qərargaha getdim. Ora çatanda məni görüb etiraz etdi, dedi ki, zastavanı niyə tərk etmisən? Dedim ki, müavinimə tapşırmışam. Bəxtimdən, o anda müavinim motosikletlə bizə sarı gəlirdi. Şəhid Həbibullah əli ilə onu göstərib dedi: "Bəh-bəh! Gözlərim aydın! Zastavanı ona tapşırmısan, eləmi?! Əhsən mənə, gör necə komandirlər yetişdirmişəm!" Bizə acıqlanıb əmr etdi ki, zastavaya qayıdaq və bir də heç bir şəraitdə onun icazəsi olmadan oranı tərk etməyək.

O, Suriyada Əhli-beyt hərəmlərinin müdafiəsi zamanı şəhid olandan bir qədər sonra şal və papağımı götürüb onun yasına getməyə hazırlaşırdım. Zastavadan çıxmaq istəyəndə sərdar qərargahdan zəng etdi, hal-əhval tutandan sonra nə etdiyimi soruşdu. Dedim ki, hazırlaşmışam, şəhidin yasına gedirəm.

kitaboxu.com

Sərdar bunu eşidən kimi dedi: “Məclisə getməyin vacib deyil. Zastavada qal və razılaşdırmadan oranı tərk eləmə!”

Sərdar bu cümləni deyən kimi şəhid komandirimi yanımda hiss etdim, gözucu ətrafıma baxıb yavaşca dedim: “Şəhid olmusan, amma yenə bizdən əl çəkmirsən! Olsun! Səninlə razılaşdırmadan zastavanı tərk etmərəm; əmin ol ki, tərk etmərəm!”

Salxordənin gözünün kənarından yanağına doğru bir damcı yaş süzüldü. O, başını göyə qaldırdı. Çöhrəsi çox sevimli olmuşdu.

kitaboxu.com

# On dördüncü fəsil

## Qəribə tövsiyə

“Məhəmməd can, oğlum, əvvəl şəhid olmaq, sonra cihad etmək lazımdır, nəinki cihad edib, sonra şəhid olmaq!”

Bu, mərhum ustad Səfayinin – Allah ona rəhmət eləsin – oğluna cəbhəyə getməzdən qabaq etdiyi qəribə tövsiyədir. Maraqlıdır ki, Şəhid Məhəmməd Səfayinin özü də vəsiyyətnaməsində atasına müraciətlə bu məsələyə toxunur:

“Bismillahir-Rəhmanir-Rəhim.

“Ey arxayın nəfs! Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən! Bəndələrimin zümrəsinə daxil ol! Cənnətimə gir!”[1]

Əziz anam... Sənin çəkdiyin əziyyətləri heç vaxt unuda bilmərəm. Sən təkcə mənim deyil, bütün övladlarının təlim və tərbiyəsi üçün gecələr yuxusuz

---

[1] Fəcr, 27-30.

kitaboxu.com

qalmısan. Ümidvaram, bu məsələdə də Allah sənə səbir verər. “Allah səbir edənləri sevər!”[1] Allah xatirinə bu bəlaya da səbir et.

Əziz atam... Sənlə anam bu ağacın bar verməsi üçün çox çalışmış və nəhayət, Allahın köməyi ilə bacarmısınız. Ata can! Səndə yüksək əhval-ruhiyyə var. Mən buna görə həmişə sevinmiş və bu sözlərini qulaqlarımda sırğa etmişəm: “Əvvəl şəhid olmaq, sonra cihad etmək lazımdır, nəinki cihad edib, sonra şəhid olaq”. Mən də belə olmağa çalışdım”.[2]

## Gözlənilməz vəziyyət

Fitr bayramı namazından bir saat sonra cənab Şəhri tələsik otağa girib dedi:

- Hacı ağa, qalx, tez əşyalarını topla, maşın gözləyir.

Mən hələ bir neçə gün orada qalacağımı düşünüb yarımçıq qalmış işlərimin siyahısını da hazırlamışdım.

- Maşın məni gözləyir?! – deyə təəccüblə soruşdum.
- Əminsən? Bunlar deyirdilər ki, bayramdan sonra bir neçə gün bölgə təhlükəli olacaq, geri qayıtmaq alınmayacaq. Bəs birdən nə oldu ki, namazdan sonra, hələ tərimiz qurumamış maşın gözlədi?

- Hacı ağa, bunları sizə də mən deməliyəm?! – deyə güldü. – Sizə “Namaz qıl” deyə əmr edən Allah hər yeri

[1] Ali-İmran, 146.
[2] Şəhid Məhəmməd Səfayinin vəsiyyətnaməsindən



kitaboxu.com

buludla örtüb ki, bu gün tam təhlükəsiz şəkildə geri qayıdasınız.

Ayağa qalxıb zastavanın həyətinə çıxanda olduqca qeyri-adi bir mənzərə ilə rastlaşdım. Qalın buludlar, hərəkətli duman, rəsm əsəri kimi buludların arasından boylanan zirvələrin ucu təbiətə, dağ-dərələrə elə əzəmət bəxş etmişdi ki, ömrüm boyu hətta şəkil və filmlərdə də elə bir şey görməmişdim. Yalnız oturub yaradılışın bu şah əsərini yazılarla təsvir etmək istəyirdim. Ancaq, təəssüf ki, yeri deyildi.

Qarşıdakı yola baxıb təəccüblə soruşdum:

- Allah sənə kömək olsun, bu, kamuflyaj üçün yaxşıdır, düzdür, amma bizi də öldürə bilər. Əyri-üyrü dağ yolları ilə enən maşın üçün kamuflyaj olmasa, daha təhlükəsiz olar, nəinki bulud hər yeri bürüsün, önünü də görməyəsən!

Əlini sürücünün çiyninə qoyub dedi:

- Əgər karvanbaşı Əlidirsə, dəvəni harada oturtmalı olduğunu bilir. Sərdar günü bu gün aparılmanızı əmr edirsə, sizi aparmaq üçün də elə adam ayırıb ki, əməliyyat gecəsində işıqları yandırmadan bölgədə toz qoparır.

Əşyalarımı elə tələsik topladım ki, bir-ikisini də unutdum. Eyni zamanda hələ ünvan və telefon nömrələrini verməmiş dostlar gündəlik və qələmi tələsik bir-birindən alır, axırına qeyd edirdilər. Belə bir

kitaboxu.com

vəziyyətdə kiminlə sağollaşdığımı, kimi görmədiyimi bilmədən dostlardan ayrıldım, sürücü və iki silahlı pasdarla birlikdə komandir qalasına doğru yola düzəldik.

Bəzi mənzərələr əzəmət və gözəlliklərini elə nümayiş etdirirdilər ki, onlardan gözünü ayırmaq mümkün deyildi. Sürücü heyranlığımı gördü, gözəl bir mənzərəyə çatanda içimdəki səsi söyləyib dedi:

- Hacı ağa, istəyirsənsə, saxlayım, mənzərəyə tamaşa elə, ya şəkil çək.

Təklifini məmnuniyyətlə qəbul etdim. Maşından enib mənzərənin daha yaxşı göründüyü hündür yerlərə qalxdım və Allahın bu vəsfəgəlməz bayram hədiyyəsindən həzz almağa başladım.

İlahi! Sən nə qədər yaxşısan! Mən Sənin bütün bu sevgi və səxavətinə əsla layiq deyiləm. Bura cənnətin bir mənzərəsidir; yox-yox, cənnətin özüdür! Allahım! Bunların hamısını yalnız vəzifəmi yerinə yetirdiyim üçün və bu dünyada mənə verirsən! Sən nə qədər sevimlisən! Sən pərəstişə çox layiqsən!

kitaboxu.com

# İkinci bölmə

## Xan Tuman

kitaboxu.com

# Birinci fəsil

## Beynəlxalq qəhrəmanlar

Bir neçə aydır Hacı İbrahim yüksəkliyindən gəlmişəm. Telefonla uşaqlardan eşitdiyim son xəbər, təəssüf ki, bir pasdarın şimşək vurması nəticəsində şəhid olmasıdır. Orada vəziyyət elədir ki, insan düşmən geri çəkiləndə də müxtəlif təbii düşmənlər pusquda olurlar: şimşək, soyuq, qar və digər min cür səbəb. Oralarda elektrik minalar da quraşdırılıb; göy guruldayan və ya şimşək çaxan kimi partlayır. Hava durumu çox pisdir. Bir neçə metr qar yağıb, buldozerlər hər an qar təmizləyirlər. Suriya ezamiyyəti siyahısında Salxordə, Səbbağ və digər bir neçə pasdarın adı da çıxıb, vaxt itirmədən özlərini oraya yetiriblər. Allah onları qorusun! Mən də var gücümlə kitabı çapa hazırlayıram. Nəşriyyatın təsdiqindən sonra bu həvəs daha da artıb. Məhərrəm ayı gələndə yenə dostların arasında olmağı çox istəyirdim, lakin briqadanın təbii və iqlim problemlərinə görə göndəriş olmadı.



kitaboxu.com

Mayor Baqiri telefonda deyirdi:

- Aşura günü uşaqların bir çoxunun Əhli-beyt hərəmlərini müdafiə üçün Suriyaya ezamiyyət ərizələri İmam Hüseyn (ə) tərəfindən imzalandı. Onların biri də Zeynaldır. Özü deyirdi ki, ağanın özündən giriş icazəsi almışam və bu il Suriyaya gedəcəyəm, görəcəksiniz!

Hələ məhərrəm ayı bitməmiş Zeynalla mayorun Suriyaya getdiklərini eşitdim. Bu uşaqlarla ruhani aləm arasında nə baş verir - bunu Allahın Özü daha yaxşı bilir!

Səfər ayı gələndə şəhidlər ağasının Ərbəin ziyarəti aktuallaşır. Qardaşım üç dostu ilə birlikdə Kərbəla getmək istəyirdi. Məni də dəvət etdilər, amma şəraitim əl vermədi.

Ərbəindən bir neçə gün öncə gecə vaxtı mobil telefonumun zəngi çaldı. Həsən idi. Qəmli səslə danışırdı. Elə bildim ki, yaxınlarından birinə nə isə olub.

- Darıxıram, gəl, gedək Kərbəlaya, - dedi.

- İndi?

- Bəli, elə indi.

Səfər xərci və pasportdan danışmaq istəyəndə sözümü kəsib bildirdi:

- Nə ola, ola; gəl.

Həsən Tehrandan Quma gəlincə 2-3 saat ötdü. Mən də o müddətdə əşyalarımı hazırladım. Hamı yatmışdı.

kitaboxu.com

Yola düzəldik. Düşündüm ki, səhər çağı telefonla danışıb sağollaşaram.

Mehran sərhədinə qədər 10 saat yolda olduq. Bəziləri üç gün idi sərhəddə gecələyirdilər. Çoxları məyus olub geri qayıtsa da, o qədər adam vardı ki, iynə atsaydın, yerə düşməzdi. Nahar yeməyi üçün yerə palaz sərmək istəyəndə camaat sel kimi çıxışa doğru axışmağa başladı.

- Nə olub? – deyə bir nəfərdən soruşdum.

- Sərhədi açıblar. Nə qədər ki peşman olmayıblar, qaçın!

Sanki yer-göy əl-ələ verib getməyimizə kömək edirdi. Qayda-qanunla keçmək istəsəydik belə, bundan çox çəkərdi.

Mehran sərhədindən keçib vaqona mindik və gecə vaxtı Cəssan rayonuna çatdıq. Orada əhali bizi dövrəyə aldı və hər biri öz evinə dəvət etməyə başladı. Bu zaman bir kişi ruhani geyimimi və qara əmmaməmi görüb mənə yaxınlaşdı, qolumdan tutub dedi:

- Seyid, gedək bizə. Ailəm burda deyil, arxayın istirahət edərsiniz.

Onunla gedib evinə çatdıq. İçəri girəndən sonra otaqlarda İmam Xomeyni, Böyük Rəhbər və Şəhid Seyid Məhəmmədbaqir Sədrin şəkillərini görüb maraqla baxmağa başladım. Ev sahibi olan Əbu Əli şəkillərə baxmaqdan doymadığımı görüb əlini Böyük

kitaboxu.com

Rəhbərin şəklinə çəkdi, sonra isə gözlərinə sürtüb ərəbcə dedi:

- Allah uzun ömür versin! Bu kişi İranın və İslam dünyasının fəxridir. Bu kişi Əlinin Malik Əjdəridir. Gecə-gündüz onun salamatlığı üçün dua edirəm. Bu gecə sizi ziyarətçilər arasında görəndə düşündüm ki, nə olur-olsun, bu seyidi qonaq aparacaq, savabını da ona hədiyyə edəcəyəm.

Gözlərim yaşardı. İlahi, düz görürəm?! İlahi, düz eşidirəm?! Yəni bu kişi bizim İranın rəhbərindən danışır?

- Görürsən, Həsən? – deyə üzümü dostuma çevirdim. – Əbu Əli Böyük Rəhbər barədə elə danışır ki, sanki onu görüb. Əsla inanmazdım ki, bizim rəhbərimizin bütün müsəlmanların qəlbində belə uca yeri var.

Əbu Əli sanki Səddamın bütün cinayətlərindən uzaq olduğunu sübut etmək üçün köynəyinin sol qolunu çırmayıb iki güllə yarasına oxşayan yeri göstərdi və dedi:

- İmam Xomeyni bizim də imamımız idi. Sizin kimi biz də onu sevirdik. Mən qəbilə başçısıyam. Səddam İrana qarşı müharibəyə başlayanda bizi də zorla döyüşə apardı. Onun adamları hədələdilər ki, əgər getməsəm, bütün qəbiləmi qətliam edəcək. Əmindim ki, bunu

kitaboxu.com

edər. Öldürər, üstündən də bir qurtum su içərdi, vəssalam. Elə ilk günlərdə Mühəmmirəyə çatdıq.

“Mühəmmirə” sözündə məqsədin nə olduğunu bilmədən yarımçıq ərəbcə ilə soruşdum:

- Mühəmmirə haradır?

Mühəmmirənin farscasını bilmədiyinə görə dili topuq vurdu, cavab verə bilmədi. Həsən soruşdu:

- Seyid can, nə demək istəyir?

- Deyir ki, İraq-İran müharibəsinin ilk günlərində Mühəmmirəyə çatdıq. Soruşuram ki, Mühəmmirə haradır – bilmir.

- Bəəs qüvvələri müharibənin ilk günlərində Xürrəmşəhrə çatdılar. Yəqin, məqsədi oradır.

Əbu Əli “Xürrəmşəhr” sözünü eşidən kimi tez:

- Hə, hə, Xürrəmşəhr, - dedi və sözünə davam etdi: - Mühəmmirəyə çatanda fikirləşdim ki, müharibədən qaçmalıyam. Amma problem buydu ki, Səddam qəbiləmi qətliam edərdi. Ya qalıb din qardaşlarımla vuruşmalı, ya da qayıdıb qəbiləmi qan içində görməli idim. Başqa bir yol da vardı; məni yaralı kimi geri göndərsinlər deyə öz qoluma iki güllə çaxdım. Birini vursaydım, öz işim olduğunu bilib məni öldürərdilər. Allaha şükür ki, nə mən, nə övladlarım, nə də qəbiləm Səddamın hansısa cinayətinə şərik olub.

Əbu Əli bütün diqqətimi toplayıb onu dinlədiyimi görüb uzun ərəb köynəyinin cibindən ortaları deşilmiş



kitaboxu.com

bir vəsiqə və bir neçə pul çıxardı, vəsiqədəki şəkli bizə göstərib dedi:

- Bu, böyük oğlum Əlidir, dünya müsəlmanlarının rəhbəri Ayətullah Xameneinin əmri ilə onu Əhli-beyt hərəmlərinin müdafiəsi üçün Suriyaya göndərdim, şəhid oldu. Oğlumun vəsiqəsi üzərində gördüyünüz bu dəlik güllənin yeridir. Güllə ürəyinə dəyib şəhid edib. Dörd oğlum var, rəhbərimin əmri ilə hamısını cəbhəyə göndərmişəm ki, kimsə Seyid Əlinin yalnız bir ölkəyə, bir millətə aid olduğunu və sözünün yerdə qaldığını düşünməsin. O, bütün İslam dünyasının imamıdır, onu qəbul etməyənlərin dini dərkləri yarımçıqdır. Fəqih vilayəti İranın və Şiənin qüdrət rəmzidir, onun qədrini bilin.

Bu sözləri mən demirdim, bir korpus mənsubu da demirdi. Bu sözləri hətta bir iranlı da demirdi. Əbu Əli İraq vətəndaşı idi. Gecənin yarısına qədər onun söz və halları bir film kimi gözlərim önündən keçdi.

Səhər tezdən Nəcəf-əşrəfə doğru getmək niyyətilə Əbu Əli ilə sağollaşdıq, israrla bildirdim ki, mütləq İrana gəlib bizə qonaq olsun.

Nəcəfdə təqvalılar öndərini ziyarət edəndən sonra piyada Kərbəlaya yola düzəldik. Yolda elə səhnələr gördüm ki, Əbu Əlinin sözlərinin təkcə onun deyil, bu gün bütün azadlıqsevər və müsəlman xalqların sözü olduğunu bildim. Nəcəf-Kərbəla yolunda şəhidlərin

kitaboxu.com

böyük şəkilləri adamın diqqətini cəlb edirdi. Əvvəl elə bildim ki, onlar təkfirçilərlə mübarizədə şəhadətə qovuşmuş iraqlı şəhidlərdir. Lakin yaxınlaşdıqca gördüm ki, bəzi adlar iranlı sərdarların adlarına daha çox bənzəyir, nəinki iraqlı şəhidlərin. Nəhayət, böyük bir şəklin yanında donub qaldım. Gözlərimi şəkillərdən ayırmadığımı görən dostum dedi:

- Nə olub, seyid can? Bunlar kimlərin şəkilləridir? Nə yazılıb?

- Bunlar iranlı şəhidlərin şəkilləridir, - deyə heyrət içində bildirdim. – Bu böyük şəkil Şəhid Həmid Təqəvinindir, altına belə yazılıb: "Əyyuhəl-əbtal əl-xorasani, nəhnu əbnaukum!"

- Bunu özüm görürəm; tərcüməsi nədir?

- Yəni ey iranlı qəhrəmanlar, biz sizin övladlarınızıq!

Mənim kimi gözlərini şəkillərə dikmiş dostum əllərini başının üstündə bir-birinə keçirib təəccüblə dedi:

- Ya Əli! Nə görürəm?! Nə eşidirəm?! Yəni doğru görürəm?! Bu sözlər biz iranlılar üçün yazılmayıb ki, xidmətlərinə görə şəhid sərdarlarımıza təşəkkür etmək istəsinlər. Bu sözlər ərəbcə və ərəblər üçün yazılıb. İlahi! Mənim gördüyüm bu qəhrəmanlar Rüstəm və İsfəndiyar kimi milli və əfsanəvi qəhrəmanlarımız deyillər. Bunlar bizim beynəlxalq qəhrəmanlarımız və

kitaboxu.com

dünya miqyasında qürur mənbələrimizdir. Bunlar Əbu Əlinin şəklinə əl çəkib gözlərinə sürtdüyü şəxsin yetirmələridir.

Həsən daha sonra vəsfəgəlməz həvəslə qışqırmağa başladı:

- Əyyuhəl-əbtal əl-xorasani, nəhnu əbnaukum! Ey iranlı qəhrəmanlar, biz sizin övladlarınızıq!..

***

Bir neçə gündür müqəddəs Kərbəlada yaxşı bir evdə qalırıq. Hərəmə yaxındır. İnsanlar dəstə-dəstə ağa Əbu Abdullah Hüseyni (ə), Əbəlfəzl Abbası və onların vəfalı dostlarını ziyarət etməyə gəlirlər. Addımbaşı qurulmuş "mokəb"lər ziyarətçilərə yemək, çay və şərbət təklif edirlər. Kərbəlada olduqca böyük sıxlıq var. Dünyanın hər yerindən Kərbəlaya Ərbəin ziyarətinə gəlmişlər. Hələ ki, imamın mübarək zərihinə əlimi vura bilməmişəm. Uzaqda dayanıb ziyarətnamə oxuyuram. Daha çox, ata, ana, boynumda haqqı olanlar, dostlar və bütün möminlər tərəfindən ziyarətnamə oxuyuram. Heyifdir ki, adam buraya gəlsin və əliboş qayıtsın.

Keçən ay mayor Baqiri zəng edib bəzi dostları və döyüş yoldaşları ilə birlikdə hərbi müşavirə məqsədilə Suriyaya gedəcəyini bildirmişdi. Qrupun içində Zeynal da vardı. Çoxlu müraciətlərindən sonra, nəhayət, gedə bilmişdi. Onun üçün çox darıxmışdım. Kərbəla və



kitaboxu.com

Nəcəfdə hərəm müdafiəçilərinin və iranlı sərdarların şəkillərini görəndən sonra bu darıxmağa həyəcan da əlavə olmuşdu. Həyəcan isə səbəbsiz deyildi. Mən bilmirdim ki, İmam Hüseynin (ə) və həzrət Abbasın hərəmlərində onlar üçün dua edən günlərdə və bəlkə də, dəqiqələrdə Zeynalın və bir neçə yaxşı dostumun cəsədi hərəm şəhidləri arasında qan içindədir. Heç xəbərim yoxdu ki, Zeynalın həyat yoldaşı və övladları da burada onun durumundan xəbərsiz halda salamatlığı üçün dua edirlər.

İraqda, Kərbəla şəhərində təhlükəsizlik hökm sürür. Hətta Kazimeyn və Samirrada da təhlükə yoxdur. İraq xalqı iranlılara çox hörmət edirlər. İranlı şəhidlərin şəkilləri prospektlərin başında on dörd gecəlik ay kimi parıldayır. Onları görəndə hərəm müdafiəsinə getmiş dostlarım yadıma düşürdü. Onları bütün ziyarətlərdə yad edirdim.

Dekabr, 2015 – İmam Hüseynin (ə) Ərbəin günləri

kitaboxu.com

# İkinci fəsil

## Səhrayi səmavi oldu

Bir-iki gündür Kərbəladan gəlmişəm. Diviziyadakı dostlar arabir zəng edirdilər. Səfərdən sonra isə heç kim zəng etməyib. Bir-iki dəfə Quma məni görməyə də gəliblər. Çox həvəslə kitabın çap olunmasını gözləyirlər. Əksər zənglərdə işin nə yerdə olduğunu soruşurlar. Bəzən hələ ciddi bir irəliləyişin olmadığını deməyə üzüm gəlmir. Adətən deyirəm ki, mən əlimdən gələni edirəm, siz də dua edin ki, iş yaxşı getsin və problem çıxmasın.

kitaboxu.com

Bu axşam təkəm, darıxıram. Zarafatcıl xüsusi təyinatlı olan və Suriyaya getmək istəyən dostum Səhrayinin son zəngindən sonra kiminləsə danışdığımı xatırlamıram. Ramazan ayındakı gündəliyimi götürüb nömrələri yığmağa başlayıram. Salxordənin telefonu sönüb. Nadir cavab vermir. Məhəmməd şəbəkə xaricindədir, güman ki, Suriyadadır. Axırda polkovnik Kazimiyə zəng etdim. Çox çəkmədən cavab verdi.

Salamlaşıb hal-əhval tutması əvvəlki kimi enerjili deyildi. Ətrafdan səs-küy gəlirdi. Deyəsən, pis vaxtda zəng etmişdim. Üzr istədim. Boğazını arıtlayıb dedi:

- Yox, rica edirəm, çox da uyğun vaxtda zəng etmisiniz.

Arxayınlaşıb dedim:

- Bilmirəm, uşaqların telefonları bu gün niyə sönüb.

- Çoxu Suriyadadır. Sərdar Rüstəmianla mayor da gediblər.

- Aha, bəs belə! O biri uşaqlar necədirlər?

- Suriyada olanlardan başqa çoxu burada yanımda oturub.

- Səhrayi də? – deyə sevincək soruşdum. – Birlikdə görməyə getmişdik, xüsusi təyinatlı uşaqlardan. O haradadır? Onun zarafatları üçün darıxmışam. Bir müddət əvvəl zəng etmişdi mənə, dedi ki, sən gəlməsən, gəlməyəcəyəm.

Nədənsə polkovnikin səsi xışıldadı. Bilmədim ki, dinmədi, yoxsa əlaqə kəsildi.

- Alo! Cənab polkovnik...

- Bəli, bəli, buyurun.

- Nə oldu? Elə bildim, əlaqə kəsilib.

- Yox, biz indi Səhrayinin qonağıyıq.

- Doğrudan?! Yaxındadırsa, verin, onunla da hal-əhval tutum. Ona demək istəyirəm ki, ay kişi, axı bu nə şərtdir qoymusan; "sən gəlməsən, gəlməyəcəyəm!"

kitaboxu.com

Polkovnik çox kövrək səslə dedi:

- Seyid can, artıq gəlsən də, gəlməsən də, Səhrayi gəlməyəcək! O, dekabrın 7-də siz seyidlərin bibisinin hərəmini müdafiə edərkən şəhadətə qovuşdu. 10-da dəfn edildi, bu axşam da uşaqlar bu münasibətlə toplaşıblar.

Sanki başıma qaynar su tökdülər. Dilim tutuldu. Digər döyüş yoldaşlarını soruşmağa cəsarətim çatmadı. Axırda birtəhər özümü toparlayıb dedim:

- Bəs digərləri?

- Firuzabadi, Şeyxülislami və Muradxani də həmin döyüşdə şəhid oldu.

- Şeyxülislami cüdo üzrə çempion olandır?

- Bəli, odur.

- Firuzabadi də Qumə zastavasının komandir müavini, eləmi?

- Bəli, doğrudur; israrla sizdən xahiş edirdi ki, onlar üçün dini söhbət edəsiniz. Şəhid Muradxani isə Piranşəhrdə deyildi, siz onu tanımırdınız. O, müqəddəs müdafiə döyüşçülərindən olub, misilsiz və cəsur komandir idi.

Güclü şok içindəydim. Bir anda ən yaxşıların şəhadət xəbərini alıb heyrətdə qalmışdım. Daha heç nə dinləmək istəməyib polkovniklə sağollaşdım.

20 Dekabr 2015

kitaboxu.com

# Üçüncü fəsil

## Onlayn şəhadət

Ruhullah Səhrayi, Şeyxülislami, Firuzabadi və Muradxaninin şəhadət xəbərindən təsirlənib gecə namaza qalxdım, Allahdan getməyib qalan özümüz üçün bağışlanmaq istədim. Səhrayi demişdi ki, gəlməsən, gəlməyəcəyəm. Bu, o deməkdi ki, o və dostları indi bizi gözləyirlər.

Əziz Səhrayi! Ey qeyrətli və fədakar şəhidlər! Siz də Allahdan bizə bağışlanmaq istəyin. Şübhəsiz ki, bu gün sizin sözlərinizin müştərisi çoxdur.

kitaboxu.com

Səhər çağı gecənin pərişan yuxusundan yorğun ayılıb Nadirə zəng etdim. Zəngi açan kimi dedi:

- Hacı can, deyəsən, sizə də xəbər çatıb.

- Bəli. Allah rəhmət eləsin, Şəhid Səhrayini çox istəyirdim.

- Yox, əşi, elə bildim, onlaynsınız. Şəhid Səhrayinin yeddisi də çıxıb.

- Yenə nəsə olub?

- İndi Xanzadənin şəhadət xəbəri gəldi. Xan Tumanda qızğın döyüş gedir. Seyid, çox dua elə. Hamıya de, dua etsinlər. İndi xalqımızın duasına hər zamandan daha çox ehtiyacımız var.

21 Dekabr 2015

kitaboxu.com

# Dördüncü fəsil

## İgid bəsici, şəhadətin mübarək!

Hər zəngdə bir nəfərin şəhadət xəbərini eşitməkdən qorxsam da, ürəyim dözmədi və Məhəmmədə zəng etdim. O, hələ də şəbəkə xaricindəydi. Bir neçə gündür zəng çatmadığına görə bildim ki, Suriyadadır. Mayor da oradaydı. Axırıncı dəfə də Nadirlə danışmışdım. Salxordəyə zəng etdim. Həmişəki kimi çox səmimi şəkildə salamlaşdı. Hal-əhval tutandan sonra narahat halda soruşdum:

- Yeni nə xəbər var, igid?

- Uşaqlar deyirdilər ki, siz daim əlaqədəsiniz. Yəqin ki, hər şeyi bilirsiniz.

- Mən Xanzadənin şəhadətinə qədərini bilirəm. Yeni xəbər var?

- Zeynalla uşaqların bir-ikisi Tehranın Bəqiyyətullah xəstəxanasına göndəriliblər. Dünən də Nadir bel yırtığının müalicəsi üçün Tehrana gedib.

kitaboxu.com

- Bunu soruşmaq istəmirəm, amma dayanmaq da olmur. Xanzadədən sonra kimsə şəhid olmayıb ki?

- Firidunkənar qüvvələrindən Hacı Məhəmməd Şalikar vardı, Səhrayinin şəhid olduğu əməliyyatda yaralanıb komaya düşmüşdü.

- Sərdar Rüstəmianla birgə Hacı İbrahim yüksəkliklərinə başış keçirən adamı deyirsən, düzdür?

- Yox, o, Hacı Məhəmmədin əmisi oğlu Əsğər Şalikardır. Polkovnik Şalikar korpusdan təqaüdə çıxmışdı, müqəddəs müdafiə dövrünün 50 faizli müharibə əlillərindən idi.

- Aha! İndi necədir? Ayıldı?

- Yox, şəhid oldu.

Düşündüyüm kimi, hər an birinin şəhadət xəbərini eşidəcəyimi gözləməli idim. Nadir düz deyirdi, mən onlayn deyildim. Əhmədin dediyi kimi, burada hamı şəhadət üçün zənbilini sıraya düzübmüş. Xudaya! Nə vaxta qədər hər zəngdə ən yaxşılardan birinin şəhid olduğunu eşidəcəyəm?

- Alo! Alo! Hacı ağa... – deyə Salxordə telefondan dilləndi.

- Bəli, buyur. Bir anlığa şok oldum. Artıq neçə gündür hər zəngdə kiminsə şəhadət xəbərini alıram. Mən cənab Şalikarı tanımırdım. Sən bir az ondan danışa bilərsən?

kitaboxu.com

- Seyid can, eşitmisən, deyirlər ki, pasdar və bəsici uşaqlar puldan ötrü Suriyaya gedirlər? İstəyirəm ki, Hacı Məhəmməd Şalikarın bank hesabına baxasan. O, varlı adamdı, pul və dünya onunçün zarafata bənzər bir şeydi. İrfan və mənəviyyat adamı idi. Ona deyirdilər ki, Hacı Məhəmməd, sən niyə Suriyaya gedirsən? Sən təqaüdə çıxmısan, səkkiz il müharibədə İslam və inqilab qarşısında vəzifəni yerinə yetirmisən. Deyirdi ki, siz niyə getdiyimi soruşursunuz, mən də sizdən soruşuram: Niyə qalmalıyam? Məgər bu dünya bütün en-uzunu ilə mənə nə verib ki, qalam? Mən İslam, inqilab və Əhli-beyt üçün canımı da versəm, borcumu ödəyib qurtara bilmərəm! O gedib çoxdankı arzusu olan şəhidlik məqamına yüksəldi.

- Onda belə deməliyik: İgid bəsici, şəhadətin mübarək!

- Seyid can, səni anan Fatimeyi-Zəhraya and verirəm, ondan istə ki, tezliklə məni də öz aralarına alsınlar. Çox darıxıram. Çox qorxuram; gələcəkdən, aqibətimin xeyirli olmamasından, şəhidlər karvanına buraxılmamaqdan, şəhadət bağının qapısının yenə bağlanmasından və bayırda qalmaqdan. Səni şəhidlər ağasına, hərəmini qorumağa getdiyimiz həzrət Zeynəbə and verirəm, onlardan istə ki, məni bu narahatlıqdan xilas etsinlər.

kitaboxu.com

- Məhəmmədtağı can, sən hələ çox cavansan, İslam və müsəlmanların sənə çox ehtiyacı var. Allahdan istəyirəm səni və sənin kimiləri İslamın müdafiəsi və ucalığı üçün qorusun!

- Qarğış edirsən, yoxsa dua? İslama ehtiyacı olan mənəm. Mənim qanım damarlarıma ağırlıq edir, nə qədər ki təzə və təravətlidir, onu din və namusumu qorumağa xərcləmək istəyirəm. Əgər qanım axmasa, öləndə kim mənə əlini vursa, murdar olacaq, boynuna qüsl gələcək. Dua et ki, qanımın axmasıyla paklanım. Dua et, seyid can, sən cəddin, dua et...

Dekabr 2015

kitaboxu.com

# Beşinci fəsil

## Bu hekayənin sonu yoxdur

Hacı İbrahim yüksəkliyindən gələndən sonra, kitabı bitirəndə yazdığım son hekayə heç də son olmadı. Əslində, bu hekayə davam etməməli idi. Daha doğrusu, onu mən davam etdirməyəcəkdim. Lakin elə olmadı. Şəhidlər ağasının Ərbəinində həzrət İmam Hüseynin ziyarətinə getdim. Ölkəmin şəhidlərinin, beynəlxalq qəhrəmanların şəkillərini bir müddət öncəyə qədər bizimlə müharibə aparan bir ölkənin küçələrində görəndə dedim: “Daha bundan o yanası ola bilməz! Özüm ona rejissorluq edə və filmlərin axırında olduğu kimi, dostumla birlikdə qışqıra bilərəm: “Əyyuhəl-əbtal əl-xorasani, nəhnu əbnaukum, nəhnu əbnaukum!” Elə bilirdim ki, bununla hekayəmiz sona çatacaq, ancaq bu da hekayənin sonu olmadı.

Axırıncı hekayəm “Seyid can, gəlməsən, gəlməyəcəyəm!” deyən Səhrayinin şəhadət hekayəsi oldu. Ancaq nə edim ki, bu da hekayəmin sonu olmadı,

kitaboxu.com

Nadir Xanzadənin şəhadət xəbərini verib dedi: “Elə bilirdim, onlaynsan, amma deyilmişsən!”

Dedim ki, inşallah, onlayn şəhadət, yəni Şəhid Xanzadənin cəsədi ilə vidalaşma axırıncı olar, amma o da olmadı.

Hacı Məhəmməd Şalikarın şəhid olduğunu Məhəmmədtağı Salxordədən eşitdim, özümə çox ümid verdim ki, bu, inşallah, hekayənin sonudur. Dedim ki, igid bəsici, şəhadətin mübarək! Ancaq bu da son olmadı ki, olmadı.

Sanki bu hekayənin sonu olmayacaq. Bilmirəm kabusa bənzəyir, yoxsa əfsanəyə. Adətən, yazıçılar hekayələrinin davamlı olmasını istəyirlər, mənsə yox; təbii ki, bu kitabda. Bu hekayənin davam etməsi vətənimin hündür sərvlərinin yıxılması deməkdir. İlahi! Bu filmin seriala çevrilməsini əsla istəmirəm!

Allaha şükür, novruzdan bu günə qədər mənə yalnız təbrik üçün zəng və mesajlar gəlib.

Birdən mobil telefonumun mesaj zəngi səsləndi. Nadirdən idi. Bir neçə gün öncə zəng etmişdilər, bütün dostları toplayıb görüş təşkil etmək istəyirdilər. Düşündüm ki, yəqin, həmin dəvətlə bağlıdır, ya da yeni il münasibətilə növbəti dəfə təbrik mesajı göndərib.

Telefonun şablonunu çəkib kilidini açdım, SMS qovluğunun üstünə vurdum. Bir neçə mesaj gəlmişdi. Reklam mesajları, həqiqətən, narahatedicidir. Adətən,

kitaboxu.com

onları oxumuram. Nadirin mesajını açdım. Gözlərim ekranda quruyub qaldı, ürəyim döyünməyə başladı. İlahi! Kaş yuxuda olaydım! İlahi! Elə et ki, yuxudan oyananda rahat nəfəs alım və hər şey yuxu olsun! İlahi! Kömək et, bu kabus tez sona çatsın!

Nadir mesajında yazmışdı:

"Salam, hacı ağa!

Hacı can, Məhəmmədtağı Salxordə də arzusuna çatıb bu gün hərəm müdafiəsi şəhidlərinə qoşuldu.

Ya Əli!"

Bütün bədənimi soyuq tər basdı. Dizlərim boşaldı. Matım elə qurudu ki, gözlərim də yaşarmadı. Salxordənin Şalikarın şəhadətindən sonrakı danışıq səsi kaset kimi qulaqlarımda səslənməyə başladı.

Xudaya! Nə edirsən mənimlə?!

İlahi! Bu nə ağır missiyadır çiynimə qoymusan?!

Xudaya! Özün rəhm elə! Haçana qədər? Haraya qədər? Bəs bu dəftər nə vaxt bağlanacaq? Bu hekayə nə vaxt sona çatacaq?

Özümdən ixtiyarsız kitabxanama yaxınlaşdım. Hacı İbrahim yüksəkliyindəki əlyazmalarımı götürdüm və birbaş axırıncı səhifəni açdım. Salxordə oraya mənimçün bir yadigar qoymuşdu; bir əlyazma; yox, bir ürək sözü. Gözlərim onun xəttində qaldı, yazısını görəndə gözlərimdən yaş süzüldü.

kitaboxu.com

“Bütün aləm eşq təvafındadır və bu təvafın mərkəzi Hüseyndir!

Hacı İbrahim yüksəkliyi, Sabirin taboru, Məhəmmədtağı Salxordə

Ramazan 2015”

Sonra da gözlərini gözlərimə dikib demişdi: “Seyid can, dua elə, hüseynçi olum!”

Əziz və sevimli qardaşım! Sən arzuna çatıb hüseynçi oldun. Səni İslamın əzəmət və ucalığı naminə axan pak qanına and verirəm, mənimçün dua elə! Səni Hüseynə and verirəm, dua elə, mən də hüseynçi olum!

“Ey Əbu Abdullah! Salam olsun sənə və uğruna qurban olan ruhlara!”

11 Aprel 2016

kitaboxu.com

# Altıncı fəsil

## Bir şübhəyə cavab

Səbbağla keçən il tanış olmuşdum. Sabirin taborundan və Şəhid Salxordənin döyüş yoldaşlarından idi. Keçən il Salxordənin cəsarət və tədbirindən mənə o danışmışdı, Məhəmmədtağının ağzını bıçaq kəsməyən vaxtlarda.

Görüşən kimi bir-birimizi qucaqladıq. Hələ deyilməmiş çoxlu sözləri eşitmək üçün həyəcanlanırdım. Şəhidlərlə söhbətdən məhrum olduğum bir dönəmdə bütün səyimi toplayıb döyüş yoldaşlarından xatirələrini dinləməliyəm. Sabirin taboruna da bu məqsədlə gəlmişəm.

Birlikdə tabor komandirinin müavini Bəradəranın otağına getdik. Zəmanənin tək-tük uşaqlarındandır. Salxordə kimi onun da üz-başından şəhadət eşqi yağır. Onu çox sevirəm. Aztapılan güllərdəndir. Söhbət üçün dünəndən vədələşmişik. Səbbağla ortam daha da gözəlləşir. Əlini sıxdığım halda onu Bəradəranın

otağına yönləndirdim və birlikdə içəri girdik. Mövləvi də oradaydı. Bundan yaxşısı ola bilməzdi! Hal-əhval tutandan sonra otağın ortasındakı masanın arxasına keçdik. Mobil telefonumu çıxardım, səsyazanı işə salıb məclisə başladım:

- Bu şəhidlər barədə neçə kitab yazılsa da, yetməz, amma bu, o demək deyil ki, biz Böyük Rəhbərin "Şəhidlərin xatirəsini yaşatmaq şəhadətdən geri qalmır" deyə buyurduğu məqsədimizdən dönməliyik. Bu gün bu məqsədlə toplaşmışıq ki, şəhidlərin xatirə dəryasından bir damlanı yaşatmış olaq. Ya Əli! Məncə, ilk olaraq birinci ezamiyyətlərdən başlaya bilərik.

Baxışlar Mövləviyə sarı çevrildi. O, Salxordənin səmimi dostu idi, bir-birinin sirlərindən xəbərdar idilər.

- Məhəmmədtağı ilə birlikdə bir il Suriyaya göndərişlə məşğul olduq, - deyə Mövləvi bildirdi. - Nə qədər çalışırdıqsa, olmurdu. Göndəriş siyahıları daim dəyişirdi. Onlara bel bağlamaq olmazdı.

- Əvvəl Hələbin yaxınlığında yerləşən əl-Hazır rayonuna getdik, - Bəradəran dedi. – Strateji əhəmiyyətli o bölgəni düşməndən azad etməli idik.

"Dayan" işarəsi kimi əlimi önündə tutub dedim:

- Bir sual; hətta daha doğrusu, bir şübhə! Çoxları irad bildirirlər ki, siz Əhli-beyt hərəmini müdafiə etməyə getmisinizsə, gərək Dəməşqdə həzrət Zeynəb və Rüqəyyənin hərəmləri yaxınlığında vuruşasınız.

kitaboxu.com

Təkfirçi düşmənlərin toplaşdığı Hələbə gedib arı yuvasına çubuq soxmaq nə üçündü?

- Əvvəldə məhz eləydi, - deyə Bəradəran cavab verdi. – Düşmən Dəməşqdən əlini üzəndən sonra Hələbi özünə paytaxt seçdi. Səbəblərindən biri də Türkiyəyə yaxınlığı və ona birləşən quru yolu idi. Siz deyin; bir neçə güclü ölkə əl-ələ verib bizi məhv etmək üçün öz qüvvə və imkanlarını Hələbə göndərirlərsə, bizim Dəməşqdə qalıb düşmənin hərtərəfli güclü hücumunu gözləməmiz ağıldandırmı?! Yoxsa ağıl hökm edər ki, gedib strateji çıxışları bağlayaq və onun daha da güclənməsinin qarşısını alaq?!

- Dəməşqdə qalsaydıq, 13 deyil, 13 min şəhid verəcəkdik, - Səbbağ dedi.

- Xan Tuman da həmin bölgədədir, eləmi? – deyə soruşdum.

Bəradəran cavab verdi:

- Bəli, Xan Tuman həmin ana yolun kənarında yerləşir. Əlbəttə, müxtəlif əməliyyatlarımız oldu. Əvvəlkilərin Xan Tumanla əlaqəsi yox idi. Razısınızsa, Xan Tumanın azadlığı ilə nəticələnən əməliyyatlardan danışaq.

- Yaxşı olar. Əslində, bütün sözləriniz maraqlıdır, amma indi mövzumuza yaxın olan odur.

Səbbağ dedi:

kitaboxu.com

- Əməliyyatların birində əfqanıstanlıların Fatimiyyun diviziyası, Hizbullah qüvvələri və iranlı könüllülər iştirak edirdilər. Döyüşün qızğın yerində Hizbullah uşaqlarının Fatimiyyun diviziyasını atəşə tutmaq ehtimal vardı. Dostla düşmən arasında məsafə az idi. Rabitə əlaqələrində də bir-birinin dilini bilmirdilər. Bu ehtimal doğru olsaydı, özümüzkülər bir-birini qıracaqdı. Bu yerdə Məhəmmədtağı Salxordə motosikletə minib irəli getdi. Soruşdum ki, hara gedirsən? Dedi ki, gedim baxım, bir-birini vurmasınlar. Dedim: "Ay kişi, nə sən onların dilini bilirsən, nə onlar sənin. Getmənin nə xeyri?" Dedi ki, Allaha təvəkkül, inşallah, bir yol tapılar. Dedim ki, gözlə, mən də gəlim. Güllə və mərmilər arasında qaza basdı. Əvvəlcə, dillərini yaxşı bildiyimiz Fatimiyyun uşaqlarının yanına getdik. Orada atəşlərin açıldığı istiqamətdən hücum edənin özümüzkülər olması ehtimalı gücləndi. Hizbullah uşaqlarının yanına da getməli idik. Çox təhlükəli idi. Üç istiqamətdən güllə yağırdı. Bir tərəf düşmən idi, biri Fatimiyyun, biri də Hizbullah. Müşahidə etdiyi əlamətləri Fatimiyyun uşaqlarına deyib aslan kimi Hizbullah cinahına sarı getdi. Bu adamın canında qorxu adlı bir şey yox idi. Hətta dostun da səni düşmən sandığı bir yerə getmək asan deyil.

Bu problemi necə həll etdiyini eşitmək üçün səbirsizlənib dedim:

kitaboxu.com

- Axırda hansı yolu tapdı?

Səbbağ dedi:

- Hizbullah uşaqlarına çatdıq, amma dillərini bilmirdik. Onlar ərəbcə danışırdılar. Məhəmmədtağı haraya atəş açdıqlarını bilmək üçün onların atəş səngərlərinə getmək istəyirdi. Onları sözlə başa sala bilmədiyini görüb pantomima teatrı kimi fikrini çatdırmağa başladı. Onları gülmək tuturdu. Həmin gülüşlərlə onlar da kömək edib Salxordə ilə həmin dillə danışdılar. O, əlləri ilə gözlərini dartıb onlara başa salırdı ki, badam gözlü əfqanıstanlılara atəş açmaq ehtimalı var. Nəhayət, onlara səngərə getməli olduğunu başa saldı, onlar da ratsiya ilə irəli xəbər verdilər. Məhəmmədtağı irəlidə də pantomima işarələri ilə danışıb onları təhlükədən xəbərdar etdi. Bundan sonra Fatimiyyun diviziyası ilə əlaqə saxlayıb atəşləri düşmənə doğru yönəltdi. Məhəmmədtağının pantomima dili həmin gün çoxunun həyatını xilas etdi. Ondan sonra bütün diviziyalar arasında qayğıkeş və qüdrətli komandir kimi məşhurlaşdı, Suriya, Livan, İraq və Əfqanıstanın pərgarına çevrildi. Hamı onu çox sevirdi.

Bəradəran dedi:

- Əl-Hazır rayonunun yaxınlığında Sabiqiyyə kəndi var. Ondan 300-400 metr irəlidəki üçbucaq bağa qədər ərazi bizdəydi. Xan Tumanın azadlığı əməliyyatı

kitaboxu.com

oradan başlayacaqdı. Biz sübh namazından sonra Fatimiyyundan bir taborla Sabiqiyyədən yola düşüb üşbucaq bağın arxasında mövqe seçməli, əməliyyat başlayanda hücum etməli idik. Xan Tumana getmək üçün ilk addımımız buydu. Bölgə öyrəniləndən sonra iş bağlandı və hər kəsin vəzifələri deyildi. Əbu Turab Fatimiyyun taborunun komandiri idi, mən, Kumeyl və Məhəmmədtağı Salxordə də müşavir kimi onun yanındaydıq. Məhəmmədtağı geridən qüvvələri Sabiqiyyəyə gətirməyə getdi.

- Kumeyl kimdir? O da Fatimiyyundandır?

- Xeyr, Kumeyl tehranlı cəsur komandir idi. Məhəmmədtağı gəlməzdən öncə xəbər gəldi ki, düşmən eynilə bizim hücum nöqtəmizdən hücuma keçib. Vəziyyət mürəkkəbləşdi və vəzifələr dəyişdi. Kumeyllə Əbu Turabın işi hamıdan çətin oldu. Bizim hücumdan ibarət vəzifəmiz dəyişib müdafiə oldu. Artıq bir sədd kimi düşmənin nüfuzunun qarşısını almalı idik.

Kumeyllə Əbu Turab tabeliklərində olan taborlarla düşmənə hücum etdilər. Düşmən Fatimiyyunun hazırlığına tab gətirmədi. Bundan istifadə edib əməliyyatı hücuma çevirə bilsəydik, böyük qələbə əldə edərdik. Təxminən sübh azanı vaxtı öncəki plan üzrə hücum əməliyyatına başladıq. Düşmənin atəşi çox güclü idi. Gecədən sübh azanına qədər gedən

kitaboxu.com

döyüşlərdə üçbucaq bağ bir neçə dəfə işğal və azad edilmişdi. İlk mərhələdə bağı azad etmək lazımdı. Fatimiyyun döyüşçüləri hücum etdilər, lakin düşmənin nisbi hazırlığına görə bağa girə bilmədik. Həzrət Fatimə sevdalıları taboru düşmənin 50 metrliyinə qədər irəlilədi, bir dəstə şəhid oldu, bir dəstə yaralandı. Elə bilirdik ki, Kumeyllə Əbu Turab da şəhid olublar. Sonra öyrəndik ki, yaralıdırlar. Bununla Fatimiyyun qüvvələri komandirsiz sıxışıb qaldılar və bir iş görə bilmədilər. Hava işıqlandı və düşmən ərazini görə bildi. Artıq döyüşçülər nə özləri geri qayıda, nə də yaralıları apara bildilər. Olduqca mürəkkəb bir vəziyyət yarandı. Belə şəraitdə qərar qəbul etmək çox çətindir. Məhəmmədtağı canlı qüvvə ilə Sabiqiyyə kəndinə çatdı. Rabitə əlaqəsi yaradıb məni çağırdı. Tez getdim. Dedi ki, uşaqlar yaralıdırlar, sıxışıblar, yardım istəyirlər. Dedim ki, hava işıqlanıb, getmək imkansızdır. Dedi ki, zirehli PDM-lə gedərik. Dedim: "Könüllü yoxdur. Zirehli maşını vurarlar!" Əfqanıstanlı uşaqlardan Kavə dərhal dedi: "Mən gedərəm!" Salxordə dedi: "İki nəfər kifayətdir. Mən də gedirəm. Bizi qoruyun, ikimiz uşaqların qollarından tutub qaldırarıq".

Məhəmmədtağının getməsini əsla istəmirdim. "Məhəmmədtağı, bir şərtlə səni getməyə qoyaram," – dedim. Şərtimi dinləmədən Kavə ilə birlikdə piyadanın

döyüş maşınının içinə atılıb dedi: “Qəbuldur!” Ondan ötrü o qədər qorxurdum ki, uşaqlara dedim: “Düşmənə tərpənməyə macal verməyin. Zirehli maşına bir güllə də dəyməməlidir!” Əfqanıstanlı döyüşçülər elə atəş yağdırdılar ki, təkfirçilər başlarını da qaldıra bilmədilər. PDM tez Sabiqiyyə ilə düşmənin arasındakı tikiliyə çatdı. Ora düşməndən 70, əfqanıstanlı yaralılardan isə 20 metr aralıdaydı. Tikilinin arxasında nisbətən yaxşı mövqedə idilər, ancaq ən təhlükəli hissə həmin 20 metrlik ərazi idi.

Qüvvələrimizin qoruma atəşləri ilə zirehli maşın irəliləməyə başladı. Kavə çox cəsur idi. Çevik şəkildə yerindən sıçradı və Salxordə ilə birlikdə yaralıların arasına girdilər, Əbu Turab da daxil olmaqla bir neçə yaralını maşına mindirdilər. Düşmən nə olur-olsun, maşını vurmaq qərarına gəldi. Bizim dəstəyimizlə maşın qayıtdı. Qapısını açanda isə yerimdə quruyub qaldım, üzümü Kavəyə tutub dedim: “Bəs Salxordə hanı?” Dedi: “Gəlmədi, yaralıların arasında qaldı”. Ratsiyadan ona dedim ki, haradasan, niyə gəlmədin? Dedi: “Şəhid olduqlarını düşündüyümüz bəzi uşaqlar burada sıxışıb qalıblar. Kumeyllə Əbu Turab yaralandıqları üçün komandirsiz qalıblar, köməyə ehtiyacları var”. Dedim: “Ay kişi, mənə qulaq asmadın ki; şərtim oydu ki, qayıdasan!” Çox soyuqqanlı şəkildə dedi: “Yəni deyirsən ki, mən qayıdım, amma

kitaboxu.com

döyüşçülərim qalsınlar?! Bəs sonrakı əməliyyatlarda bizə necə güvənərlər?! Belə komandirlik olar?!"

Salxordədən başqa Kumeyl də gəlməmişdi. Yəni atəş o qədər güclü olmuşdu ki, gətirə bilməmişdilər. Yeri də bəlli deyildi. Məhəmmədtağı onunla əlaqə saxlayıb şəhidlərin arasında tapdı. Kavəyə dedim: "Kumeyli gətirmək lazımdır; gedirsən?" Dedi: "Gedirəm, amma təkmi?" Üzümü əfqanıstanlı döyüşçülərə tərəf çevirdim. Bir-iki nəfərdən başqa hamısı başını aşağı salmışdı. Elə bilməyin, qorxaq idilər ha! Orada qalmaları da cəsarətlərini göstərirdi. O qədər atəş altında şəhidlərin arasına girmək üçünsə cəsarətdən qat-qat artıq bir şey lazımdı. Çünki bu dəfə mərmi və raketlər çox toz-duman yaratmışdı, kabinin içindəki sürücü önünü görə bilmirdi. Bir nəfər başını bayıra çıxarıb sürücüyə yol göstərməli idi. Bu isə qaçılmaz ölüm deməkdi.

Ramazan ayı, hava çox istidir. Zənnimcə, qardaşların boğazları quruduğuna görə masanın üstündəki suya həsrətlə baxırlar. Bilmirəm, bəlkə də, döyüş səhnələrini yadlarına salıb belə susayıblar. Səbbağ komandirinin qurumuş boğazının hərarətini hiss edib köməyə gəlir, onun sözünü davam etdirib deyir:

- Deyirlər ki, Kərbəla-5 əməliyyatında düşmənin atəşi çox ağır olub, mərmilər hər 10 metrdən bir yerdə

kitaboxu.com

dəlik açıb. Orada isə hər an bir-iki metrliyimizə bir mərmi düşürdü. Təxminən saat 9-da əraziyə bir maşın girdi. Qasim Süleymaninin birdən döyüşün ortasına gəlişi bizi elə şok etdi ki, hamımızın matı qurudu. Tehranın Fatehin taborunun uşaqları gələnin sərdar Süleymani olduğunu bilən kimi çox çətinliklə onu geri qaytardılar. Onun gəlişi ilə qüvvələrimizə yeni can gəldi. Zirehli maşının sürücüsü Hizbullah uşaqlarından idi. O da çox cəsur idi, dərhal ikinci dəfə getməyə hazır olduğunu bildirdi. Əfqanıstanlı döyüşçülər arasında boyu təxminən 2 metr olan enlikürək bir kişi vardı, adı Məhəmmədcavad idi. Dedi ki, mən Kavə ilə gedərəm. Zirehli maşının qapısını açdıq. Kavə içəri girib başını bayıra çıxardı. Məhəmmədcavad girmək istəyəndə bir anlıq dayandı. Fatimiyyun döyüşçülərindən biri tənəylə dedi: "Nə oldu? Qorxdun yaralanarsan?" Məhəmmədcavad qaşlarını düyünləyib: "Mən İranda səkkizillik müharibədə bəs qədər yaralanmışam, bu dəfə şəhadətdən azına razı deyiləm. Haqqınızı halal edin!" – dedi və PDM-nın içinə atıldı. Maşın yola düzəldi. Topla və ağır avtomat atəşləri ilə onları qoruyurduq. Kumeylin yeri təxminən bilinmişdi. Onu bu dəfə də gətirə bilməsəydilər, düşmən anlayıb onu vuracaqdı. Çox tez onun yanına çatdılar. Kavə pələng kimi yerə atıldı və yaralıları maşına doğru sürüməyə başladılar. Bu zaman Məhəmmədtağı da tikilinin

kitaboxu.com

arxasından onlara köməyə getdi. Sonradan özü deyirdi: "Güllələrin Kavəyə dəymədiyini görəndə düşündüm ki, ondan nəyim əskikdir?! Getdim və köməkləşib yaralıları maşına apardıq".

Sonra maşının qapısı bağlandı və Salxordə yenə onun böyründə tikilinin arxasına keçdi. PDM qayıdır, biz də topla ona dəstək verirdik. Birdən bir mərmi topun lüləsində ilişib qaldı və top sıradan çıxdı. Bundan pisi ola bilməzdi. Təkfirçilər bir anın içində vəziyyətdən istifadə edib zirehli maşını raketlə vurmağa başladılar. Birinci raket hədəfə dəyib sürüşdü, ikincisi isə zirehi dəldi, Kumeylin başının üstünün dərisi qopub üzünə düşdü, Məhəmmədcavad isə şəhadətə qovuşdu. Partlayış dalğası və alov maşının qapısından çıxdı, Kumeylin üz-başını yandırdı. Kumeyl yansa da, geri qayıtmaq istəmir, deyirdi ki, qalıb bu təkfirçilərin anasını ağladacağam.

Saata baxıb gördüm ki, günorta azanına bir saatdan az qalıb. Dostlara üzümü tutub dedim:

- Deyəsən, yorulmusunuz, boğazlarınız da quruyub. Razısınızsa, söhbətin ardı sonraya qalsın.

- Məhəmmədtağ ilə Fatimiyyun qüvvələrinin başına nə gəldiyini bilmək istəmirsiniz?

- Mən ona görə burdayam. Amma qorxuram ki, boğazlarınız quruduğuna görə bu istidə əziyyət çəkərsiniz.

kitaboxu.com

- Bunu deyim, gedək namaza. Təxminən saat on bir idi. Məhəmmədtağı dünəndən yemək yeməmişdi. Amma ondan arxayın idik, çantasında hər şey olurdu; sursat və ratsiya batareyasından tutmuş şokolad, su və konservə qədər. Orada olduğu müddətdə şokolad və yeməklərini Fatimiyyun uşaqları arasında bölüb onları da doyurmuşdu. O, sözün əsl mənasında komandir idi. Bütün o müddətdə mənimlə əlaqədəydi, yaralılara kömək edib təhlükəsiz yerə apardıqca anbaan mənə bildirirdi. Düşmənlə məsafəsi cəmi 50 metr olduğuna görə atəşi yönəltməkdə bizə çox yaxşı kömək edə bilirdi. O, bu yolla həmin gün düşmənin itkisini ciddi şəkildə artırdı. Məxfi məlumatları ratsiyadan yerli ləhcəylə deyirdi. Arabir düşmənin atəşi güclənəndə və şəxsi heyəti ruhdan düşəndə yerli ləhcə ilə mənə deyirdi: “Mən ratsiyanın səsini yüksəldirəm, uşaqlar səni eşidəcəklər. Mənimlə elə danış ki, bunlar ruhlansınlar”. Sonra da ucadan gülüb deyirdi: “Biz burada rahatıq, siz özünüzü düşünün. Elə deyilmi, uşaqlar?!” Fatimiyyun qüvvələri də komandirlərinin bu qədər arxayın olduğunu görüb ruhlanırdılar. Bir sözlə, Məhəmmədtağı həmin gün təkcə tabora deyil, həm də bizə komandirlik etdi.

Onun şəxsi heyəti hərəkət edə və geri qayıda bilmədiyinə görə gözləyib axşam qaranlıqda qayıtmalı idilər. Axşama qədər dayanmadan başlarına atəş yağdı.

kitaboxu.com

Salxordəni də güclü partlayış dalğası tutmuşdu. Təkfirçilərdə Cəhənnəmi adlı dəhşətli kustar bomba vardı. O qədər güclü idi ki, biz onu bu adla tanıyırdıq. Düşmən onların birini Məhəmmədtağının olduğu yerə atmışdı. Bu qədər deyim ki, onun yalnız partlayış dalğası tikilinin qalın divarında çox böyük çat əmələ gətirmişdi. Görün bu, adamın beyninə nə edər?! O, adamlarını ruhlandırır, özlərini itirmələrinə imkan vermirdi. Zaman ağır keçirdi. Nəhayət, gecənin qara pərdəsi dostlarımıza qayıdış müjdəsini verdi. Ratsiyadan Salxordəyə dedim: "Uşaqlar qaranlıqda yolu tanımazlar, bir də görərsən, düşmən tərəfə gedirlər. Qabağa düş, arxanca gəlsinlər". Bununla istəyirdim ki, təhlükədən uzaqlaşan ilk adam özü olsun. Lakin uşaqlar dəstə-dəstə gəlirdilər, oysa yox idi. Ratsiyadan dedim: "Hardasan? Niyə gəlmirsən?" Dedi: "Gözləyirəm ki, heç kim qalmasın!" O qədər hirsləndim ki, dedim: "Burada olsaydın, özüm öldürərdim səni! Bu gün məni boğaza yığdın!"

Səbbağ dedi:

- Və həmin gecə sübhə qədər ərazini təkfirçilərdən təmizlədik. Bir-iki həftə ardıcıl döyüş getdi və axırda mövqeyimizi möhkəmlədə bildik.

kitaboxu.com

# Yeddinci fəsil

## Xudaya, məni şəhid elə!

9 Aprel 2016-cı ildə baş vermiş hadisələri dinləmək üçün Bəradəran və Mövləviyə müraciət etməliyəm. Ruhullah taborunda vədələşdiyimiz zamanda görüşdük. Bu dəfə Mövləvinin otağına getdim və danışdıq ki, Bəradəran vaxt tapan kimi bizə qoşulsun. Mövləvinin otağında bir metal komod, iki çarpayı və iki stul vardı. Mövləvi stulların birini pəncərənin yanına apardı, pəncərəni açdı və mənə təklif etdi ki, əyləşim. Ondan Məhəmmədtağı Salxordə ilə Hüseyn Bəvvasın şəhadəti və Seyid Səccad Xəlilinin itkinliyi ilə nəticələnən əməliyyatdan danışmasını xahiş etdim.

Mövləvi dedi:

- Aprelin 6-da Suriyaya gedəcəkdik. Ayın 1-də görüşdük. Məhəmmədtağı bir neçə aydı maşın almışdı. Zəng edib dedi ki, sizə gəlirik. Təbiət Günü idi, birlikdə gəzməyə getdik. Ayın 2-də işə çıxdıq. Günorta yeməyimizi yeyəndə bilməzdik ki, həmin gecə gedə

kitaboxu.com

bilərik. Axşam saat 10-da qəfildən zəng edib dedilər ki, hazırlaşın, gedirsiniz. Görünür, vəziyyət ağır imiş ki, qəfildən belə qərar verilmişdi. Tehrana İmam Hüseyn (ə) Universitetinə getdik. Silahlanıb hazırlanmaq üçün bir gün vaxtımız vardı. Universitetdə gəzişir, keçmiş xatirələrimizi yada salırdıq. Xatirələrimiz çox şirin və ürəkaçan idi. Məhəmmədtağı gülüb dedi: "Bircə bu, ürəyimdə qalmışdı. Daha ürəyimdə heç nə yoxdur. Əgər Allah istəsə, bu dəfə gedib şəhid olmaq istəyirəm, - sonra üzünü göyə tutub əlavə etdi: - Xudaya, məni şəhid elə!"

Ayın 3-də Dəməşqdə idik, 4-də Hələbdə, 5-də səhər Xanatda, günortadan sonra da Xan Tumanda. Məhəmmədtağı Əmmar mövqeyini təhvil aldı. Sarı ev, quşçuluq ferması və saman anbarı Əmmar mövqeyinin düşmənə doğru ön xətti sayılırdı. Salxordə mövqe komandiri, Əndi onun müavini, Seyid Rza Tahir sarı evdəki bölüyün komandiri təyin edildi, ikinci bölük Rəcəbi ilə mənə tapşırıldı, Canbazi ilə Abbaspur da Mütəhhər istiqamətində xidmətə başladılar. Yerləşəndən sonra Məhəmmədtağı bölüklərə vəzifələrini izah etdi.

Ayın 7-də Məhəmmədtağının baldızının toyu idi. Qorxurdu ki, ondan qabaq başına bir iş gələr və toy baş tutmaz. Hamıya tapşırmışdı ki, o vaxta qədər nəsə olsa, heç kimə xəbər verməsinlər. 7-ə qədər bir hadisə baş

kitaboxu.com

verməyəndə isə rahat nəfəs alıb dedi: “Allaha şükür! Bundan sonrası önəmli deyil!”

Ertəsi gün zəng edib toyda iştirak edə bilmədiyinə görə üzr istədi, sonra qızı ilə danışmağa başladı. Uşaq dili ilə Zeynəbə: “Qızım hələ bir “əzizim” de,” – deyib boynunu əyir, qızı “əzizim” deyəndən sonra gülüb başını qaldırırdı.

Axşam şam və işa namazlarının arasında Aşura ziyarətnaməsi oxuyurduq. Bir tərəfinə bu ziyarətnamə yazılmış, digər tərəfində isə Şəhid Firuzabadinin şəkli olan kartlarımız vardı. Mən ziyarətnamə oxuyanda Məhəmmədtağının şəklə baxıb ağladığını hiss etdim. Get-gedə ağlamaqdan çiyinləri tərpənir və ziyarətnamə oxuyurdu. Çox yüksək mənəvi haldaydı. Hətta işa namazına başlayanda da təkbiri ağlaya-ağlaya dedi. Namazdan sonra bir qədər ratsiya batareyası və digər əşyalar alıb Əmmar mövqeyinin axırıncı səngərlərindən paylamağa başladıq. Mütəhhər istiqamətində yeni rabitə cihazlarını uşaqlara verəndə birdən bir raket düşdü. “Məhəmmədtağı!” – deyə qışqırdım. O qaçıb Fatimiyyun uşaqlarından birinə sipər kimi dayandı. Heç kimə bir şey olmadı. O qədər yorğun idi ki, yüngül yemək yeyib saat 10-da yatdı. Günboyu o qədər işləyirdi ki, başını daş üstünə də qoysaydı, yatardı. Saat 12-də Mahmud Radmehr ratsiyadan dedi: “Əmmar mövqeyi, dinlə! Sizin

kitaboxu.com

mövqeyin önünü vurmaq istəyirik. Qüvvələrə deyin, narahat olmasınlar". Ratsiyaya cavab verməsi üçün Məhəmmədtağını oyatmağa məcbur olduq. Bayıra çıxanda gözlərini ova-ova dedi: "Hüseyn, yaxşı bir yuxu gördüm!" Soruşdum ki, nə gördün? Dedi ki, sonra deyərəm. Mən gedib yatdım, o isə səngərlərə baxış keçirməyə getdi. Nə vaxt qayıtdığını, həmin gecə bir də yatıb-yatmadığını bilmədim.

Ertəsi gün səhər saat 9-da səhər yeməyini yedik, saat 12-də də günorta yeməyi gəldi. Salxordə günorta yeməyini yemədi. Sonra birlikdə quşçuluq təpəsindəki təminat səngərinə getdik. Orada at nalı formasında böyük bir daş var. Onun üstündə oturub Məhəmmədtağıya dedim: "Gecə yuxuda nə görmüşdün?" Təəccüblə dedi: "Mən yuxu görmüşəm?" Dedim: "Hə, özün dedin ki, yaxşı bir yuxu görmüşəm, sonra sənə danışaram". Dedi ki, zarafat edirdim. Demə, yuxu görüb, amma danışmaq istəmirmiş. Günorta azanı veriləndə səngərdən bir çuval çıxarıb tozunu çırpdı, yerə sərib namazını qıldı, sonra: "Sarı evə Seyid Rza Tahirə baş çəkməyə gedirəm," – deyib getdi. Təxminən saat 2-də yenə yanımıza gəldi. Saat 1-dən düşmənin artilleriya hücumu başlamışdı. O gələndə raket atəşləri dəqiqədə 1-2-dən 10-a çatmışdı. Düşmən Xan Tumanı geri almaq üçün ciddi qərara gəlmişdi, raket hücumları

kitaboxu.com

səngimirdi. Məhəmmədtağı hər an ətrafımıza düşən raketlərə məhəl qoymadan əlindəki snayperin durbini ilə düşmənin hərəkətlərini izləyirdi. Mütəhhər istiqamətinə baxmaq üçün səngərdən çıxıb sola getdi, məndən 2 metr aralıdan keçəndə raket fitini eşidib arxası üstə yerə uzandı. Raket səngərin bayırına düşdü. Düşmən səngərləri vurarkən yeni fəndə əl atmışdı; bir səngərin yanına raket düşəndə uşaqlar uzanırdılar. Onun ardınca eyni yerə bir raket də atırdılar ki, uzandıqları yerdən qalxanda onları yaxalasın.

Birinci raket düşəndə ikimiz də yerə uzandıq. O, ayağa qalxan kimi mən də qalxdım və paltarının arxasının tozlu olduğunu gördüm. Bunu demək istəyəndə ikimizin arasına bir raket düşdü. Yerdən ayrılıb səngərə çırpıldım. Az sonra kənardan hərarət hiss edib bildim ki, sağam. Göyə qalxan toz və tüstüdən yerə kölgə düşdüyünü hiss edirdim. Diqqətlə ətrafa baxdım. Məhəmmədtağı yatanda olduğu kimi uzanmışdı; eyni rahatlıqla. Nə qədər qışqırdımsa, cavab vermədi. Tələsik ratsiyadan qışqırmağa başladım: “Maşın! Maşın!..” Belimə götürmək istədim, bacarmadım. Özüm də yaralanmışdım. Beş dəqiqədən sonra Rəcəbi gəldi, onu əl-Hazır xəstəxanasına apardıq, amma iş işdən keçmişdi.

Mövləvinin gözləri yaşardı. Bəradəran, Mehditəbar və Rəcəbi içəri girdilər. Oturmağa stul yox idi. Otağın



kitaboxu.com

kənarındakı çarpayılarda oturub hal-əhval tutmağa başladılar. Bu barədə Bəradəran və Mehditəbarla az-çox danışmışdım deyə üzümü Rəcəbiyə tutdum:

- Siz 9 aprel hadisələrindən bizə danışa bilərsiniz?

- Deyəsən, ağa Mövləvi hadisəni danışıb, - deyə Mövləvinin kövrəldiyinə işarə vuraraq bildirdi. – Hər halda, mən də gördüklərimi söyləyə bilərəm. Salxordənin şəhid edildiyi zaman sarı evdə bizə də hücum oldu. Orada komandir Seyid Rza Tahir idi. O, sarı evdə müdafiə olunanda düşmən zirehli maşınla gəldi. Döyüşçülərin enməsi üçün qapı açılanda Seyid Rza pulemyotla onları atəşə tutdu və ağır itki verdilər. Seyid Rza, Məsudianzadə, Ruhani və Fatimiyyundan digər on üç nəfər düşməni geri qovdular.

Rəcəbinin dayandığını görüb Mehditəbara dedim:

-Buyurun, sizi dinləyək.

- Təxminən günorta saat 3-ün yarısında digər mövqelərdə olduğu kimi, Yasir mövqeyində də düşmənin hücumu ilə üzləşdik. Bozorgi, Əsğərzadə və Bəvvasla birgə mövqe seçdik. Düşmən artilleriya hücumuna başladı. Onlar raketdən əlavə, olduqca yüksək dağıdıcılıq sürəti olan Cəhənnəmi adlı kustar bombalardan da istifadə edirdilər. Bəvvas səngərində oturduğu yerdə namaz qılırdı. Düşmənin hücumu anbaan güclənirdi. Bəvvas namazını bitirəndə gülüb dedim: "Qorxmusan?" Güldü. Mən də oturduğum

kitaboxu.com

yerdə namazımı qıldım. Düşmənlə aramızda təxminən 150 metr məsafə vardı. Snayperləri də atəş açırdı. Hətta səngərin dəliyindən baxmaq istəyəndə də tez vururdular. Təxminən saat 4-də düşmənin atəşi olduqca gücləndi. Əzizi ilə mən Bəvvasa baş çəkmək üçün yandakı səngərə gedəndə birdən başımızın üstündən, təxminən 50 metr yuxarıdan həmin Cəhənnəmi kapsullarından birinin endiyini gördük. Heç nə edə bilmədik. Bizim səngərimizlə Bəvvasın səngərinin arasına düşdü. Səngər uçdu və biz altında qaldıq. Seyid Səccad Xəlili və digər bir neçə nəfər köməyə gəldi. Bizi güclü partlayış dalğası tutmuşdu. Əzizinin ayağı ağır yaralanmışdı; sonra onu kəsdilər. Düşmən hər an yaxınlaşırdı. Əzizini bir ədyalın üstünə qoyub geriyə göndərdik. Bəvvasın yanına getdim. Üzü üstə yıxılmışdı. Başını qaldırıb çevirdim. Çox ürəkağrıdan səhnə idi. Üzünün yarısı getmişdi. Onu da bir ədyalın arasına qoyub sürüyə-sürüyə geriyə apardıq. Düşmən tankları anbaan yaxınlaşırdı. Kömək üçün mövqeyimizə gəlmiş Seyid Səccad Xəlili düşmən irəliləyəndə itkin düşdü. Deyirdilər ki, təkfirçilərə əsir düşüb, sonra onu şəhadətə yetiriblər.

Namazdan sonra Sabirin taborunu tərk edəndə şüşəli qapının üstündəki yazı diqqətimi cəlb elədi və oxumağa başladım.

kitaboxu.com

- Salxordənin vəsiyyətnaməsinin surətidir, - deyə Mövləvi bildirdi.

Mobil telefonumu çıxarıb şəklini çəkdim. Öz əlyazması idi, imzalı və tarixli. Axırda yazmışdı:

"İnşallah, Allah ölümümü Öz yolunda şəhidlik edər. İllərdir yeganə arzum Allah yolunda şəhadətdir. Qıldığım hər namazda aciz şəkildə bu diləyi istəyirəm. Birdən Allah mənim bu dünyadan gedişim üçün başqa bir yol təyin etsə, Özündən istəyirəm ki, şəhid dostlarımın hörmətinə, əfv və mərhəmətini məndən əsirgəməsin. Şəhid dostlarımdan da mənə əl tutmalarını istəyirəm.

Məhəmmədtağı Salxordə, dekabr 2015"

## Hekayənin davamı var

Fitr bayramında Tehrandan Mazandarana gedən yollarda ağır tıxac olur. Şimaldan Tehrana sarı yol boş olsa da, tıxacın bütün yola təsir göstərib hərəkəti birtərəfli etmə ehtimalı çoxdur. Bu səbəbdən qatar bileti alıb özümü yolda qalmaq problemindən xilas etmək qərarına gəlmişdim.

Bileti bir neçə gün öncə almışdım. Axşamüstü mayor Baqiri məni vağzala aparmağa gəldi. Hərbi hissədəki dostlarla bir-bir sağollaşıb İsmayılla yola düzəldik. Darıxırdım. Nəzarət-buraxılış məntəqəsinə çatanda mayora dedim ki, bir az dayansın, oradakı

kitaboxu.com

dostlarla da vidalaşım. Gündüzlər təxminən yarım saatımı onlarla keçirirdim. Sağollaşandan sonra maşına mindim və yolumuza davam edib qapıdan çıxdıq. Qarşıdakı prospektin ortasındakı şəhid şəkilləri diqqət çəkirdi; diviziyanın hərəm müdafiəsindəki ilk şəhidi Seyid Cəlal Həbibullahpurdan və keçən il mənim gəlişimdən bir neçə gün qabaq Hacı İbrahim yüksəkliyində şəhid olmuş Ruhullah Sultanidən tutmuş bir neçə gün qabaq şəhadətlərinin qırxını qeyd etdiyimiz Xan Tuman şəhidlərinə qədər. Prospektlə irəliləyir, amma gözlərimi şəhidlərdən ayıra bilmirdim. Vətənimin qeyrətli şəhidləri ilə vidalaşmaq üçün başımı arxaya çevirdim. Prospektin əvvəlinə böyük bir banner vurulmuş, bütün şəhidlərin şəkilləri birlikdə ora yerləşdirilmişdi. Sonuncu şəklin yeri isə boş idi. Altından belə yazılmışdı: “Bu yol davam edir!”

Allah bilir, o boş yer dostlarımdan hansının şəklinin yeri olacaq. Gözlərimi ən yaxşı şəhid dostlarımın şəkillərindən çəkmədən prospektin axırındakı döngə onları məndən gizlətdi. Mən bilərək, ya da bilmədən bir hekayənin içinə düşmüşəm. Və məlum olduğu kimi, bu hekayənin davamı var.

Haşimi Ərsəncani
İyul 2016

kitaboxu.com

# Mündəricat


Ən böyük nemət ....................................................................... 3

Mövqe yaran və mövqe qoruyan diviziya ........................................ 5

Birinci bölmə ........................................................................ 9

Hacı İbrahim yüksəkliyi .......................................................... 9

Birinci fəsil ........................................................................ 10

Hekayə haradan başladı? ........................................................ 10

Zəncirsiz döyüş nişanları ........................................................ 13

İkinci fəsil .......................................................................... 28

Axar çay .............................................................................. 28

Üçüncü fəsil ........................................................................ 30

Müjdə .................................................................................. 30

Hacı İbrahimin qışları ............................................................ 32

Dördüncü fəsil ...................................................................... 35

Bəsici həyatı ........................................................................ 35

Beşinci fəsil ......................................................................... 41

Kəşfiyyat ............................................................................. 41

Mazandaranın uzun dənəsi ...................................................... 44

Altıncı fəsil ......................................................................... 48

Leyli yolunda ....................................................................... 48

Mənfi fikirli cənab ................................................................ 52

Yeddinci fəsil ...................................................................... 56

Öztəminatlı döyüşçülər .......................................................... 56

Əxlaq dərsi .......................................................................... 61


kitaboxu.com

Səkkizinci fəsil....................................................................................66
Əgər İmam Mehdi içəri girsə ...............................................................66
Ruhani siyasətləri.................................................................................70
Doqquzuncu fəsil .................................................................................73
Komandir postda..................................................................................73
Bu şəhərdə qəribəm..............................................................................75
Onuncu fəsil .........................................................................................78
Ezamiyyət haqqı...................................................................................78
On birinci fəsil .....................................................................................83
Ən sakitləşdirici dərman.......................................................................83
On ikinci fəsil.......................................................................................88
Vəzifə qalmaqdır, getmək yox .............................................................88
On üçüncü fəsil ....................................................................................98
Ağrı – ilahi nemət.................................................................................98
Eşq təvafı............................................................................................100
On dördüncü fəsil...............................................................................104
Qəribə tövsiyə ....................................................................................104
Gözlənilməz vəziyyət.........................................................................105
İkinci bölmə .......................................................................................108
Xan Tuman.........................................................................................108
Birinci fəsil.........................................................................................109
Beynəlxalq qəhrəmanlar.....................................................................109
İkinci fəsil ..........................................................................................118
Səhrayi səmavi oldu ...........................................................................118
Üçüncü fəsil .......................................................................................121
Onlayn şəhadət...................................................................................121

Dördüncü fəsil .......... 123
İgid bəsici, şəhadətin mübarək! .......... 123
Beşinci fəsil .......... 127
Bu hekayənin sonu yoxdur .......... 127
Altıncı fəsil .......... 131
Bir şübhəyə cavab .......... 131
Yeddinci fəsil .......... 144
Xudaya, məni şəhid elə! .......... 144
Hekayənin davamı var .......... 151

kitaboxu.com